www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 yanvar 2018-ci il Cümə axşamı № 18 (6907) Qiymətı 60 qəpik

### Xəbər

**1 ton xəstə at əti satanlar tutuldu - "leş mafiyası" yenə iş başında**

yazısı səh.10-da

## "Tezliklə o və bandası tarixin zibilliyində olacaq" - hədə

# ERMƏNİ LOBBİSİ SƏRKİSYANI İFŞA ETDİ: "YALANÇI, NARKOMAN VƏ QUMARBAZDIR!.."

Erməni prezidenti ermənilər etirazla qarşıladı: "100-dən çox siyasi dustağı azad et!.."; Fransa isə işğalçı "kiçik bacı"sına qahmar çıxdı; **Makron:** "Daim yanınızda olacağıq!"; Fransanın xarici işlər naziri mayın 28-də, prezidenti isə oktyabrda İrəvana gedəcək - səbəb...




yazısı səh.8-də

## "Döyüşlər hər an başlaya bilər, hazır olmalıyıq"

**General Yaşar Aydəmirov:** "Qısamüddətli xarakterli müharibə olacaq, dəqiq və güclü zərbələrlə"

yazısı səh.7-də

### Gündəm

**Prezident İlham Əliyev Davosda mühüm görüşlər keçirdi**



Dövlət başçısı forum çərçivəsində İsrailin baş naziri və BP-nin baş icraçı direktoru ilə də bir araya gəldi; **deputat:** "Davos Forumu həm də siyasi meydandır"

yazısı səh.5-də

**İki jurnalist dünyasını dəyişdi**

yazısı səh.3-də

**Cümhuriyyətin yüz ilində "Qızıl amnistiya" olacaqmı...**

yazısı səh.4-də

**Qəfil ölümlərdən xilas yolu - "Stent for life" proqramı...**

yazısı səh.3-də

**"Radikal dini cərəyanlar ciddi problemə çevrilməkdədir" - partiya sədri**

yazısı səh.4-də

**Türkiyənin Afrin əməliyyatı Azərbaycana ideal fürsət verir**

yazısı səh.11-də

**Varlıların gözü doymur, yoxsa...**

yazısı səh.12-də

**Borclu şəxs hansı halda ölkədən çıxa bilməz?**

yazısı səh.13-də

**Şaxtalı havada çimməyin xeyri varmı...**

yazısı səh.14-də

**Xaricdə təhsil üzə dövlət proqramı bərpa oluna bilər**

yazısı səh.13-də

**"Badi-Kubə" MTK-nın binasında nələr baş verir...**

yazısı səh.14-də

**Neft emalı zavodları paytaxt kənarlarına nə zaman köçürüləcək...**

yazısı səh.10-da



*Zahid Oruc:*

**"Azərbaycan ABŞ və Rusiya generallarının danışıqlar prosesinin gizliliyinə zəmanət verir"**

yazısı səh.9-da



*Vüqar Bayramov:*

**"Davos Forumu aparılan islahatları təqdim etmək üçün imkanlar qazandırır"**

yazısı səh.6-da



*Vahid Əhmədov:*

**"Aksiz dərəcələrinin artırılması ciddi problem yaratmayacaq"**

yazısı səh.12-də







## Səməd Seyidov AŞ PA-da Serj Sərkisyana sərt cavab verdi

### Azərbaycanlı deputat assambleyada komitə sədrinin müavini seçildi

**Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri, qurumun vitse-prezidenti Səməd Seyidov AŞPA-nın iclasında çıxış edən Ermənistan prezidenti Serj Sərkisyana cavab verib.**

APA-nın məlumatına görə, S. Seyidov Ermənistan prezidentinin çıxışına toxunaraq onun dünya ictimaiyyətini aldatdığını bildirib: "Siz Azərbaycana qarşı müharibənin lideri olmusunuz. Niyə çıxışınızda Xocalı faciəsi barədə danışmadınız? Orada uşaqlar, yaşlı insanlar, qadınlar daxil olmaqla ermənilər tərəfindən təxminən 600 nəfər öldürüldü. Niyə etnik təmizləmə barədə danışmadınız? Hazırda siz beynəlxalq ictimaiyyəti aldatmağa çalışırsınız. Nə bu təşkilatın, nə də digər təşkilatların qətnamələrini yerinə yetirirsiniz. BMT, Avropa İttifaqı, Avropa Şurası, digər təşkilatlar Azərbaycan torpaqlarının işğalı barədə danışıb. Siz bu təşkilatlardan heç kəsi qəbul etməyə hazır deyilsiniz".

Serj Sərkisyanın çıxışı zamanı isə azərbaycanlı hüquq müdafiəçisi Əhməd Şahidov ona "sürpriz" yaşadıb. Belə ki, Ermənistan prezidenti çıxış edərkən zalda əyləşən hüquq müdafiəçisi Əhməd Şahidov əlində azərbaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevin fotolarını tutaraq, səssiz etiraz aksiyası keçirib. Şahidov facebook statusunda yazıb: "Azərbaycanlı girovlar Dilqəm Əsgərov və Şahbaz Quliyevin fotolarını görən Serj Sərkisyan bir qədər pauza verdi və sonra çıxışına davam etdi. Səssiz aksiyanın keçirildiyi sektorda əksəriyyət erməni olsa da, özləri aksiyaya müdaxilə etmədilər və AŞ PA təhlükəsizlik xidmətini köməyə çağırdılar. Təhlükəsizlik xidmətinin əməkdaşları hüquq müdafiəçisindən aksiyanı dayandırmağı və zalı tərk etməyi tələb etdi".

Ə.Şahidov bildirib ki, bu tələbdən sonra zalı tərk edib: "Sərkisyanın mühafizəsi gəldi, kameraya baxmaq istədi. Mən hüquq müdafiəçisi olduğumu dedim, AS PA təhlükəsizlik işçiləri dedilər ona dəymək olmaz. Ermənilər də tərs-tərs baxıb heç nə deyə bilmədilər"...

Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qış sessiyası çərçivəsində Azərbaycan nümayəndə heyətinin üzvü, deputat Vüsal Hüseynov təşkilatın hüquq məsələləri və insan hüquqları komitəsinin sədr müavini seçilib.

V. Hüseynov APA-ya bildirib ki, bununla bağlı bu gün (dünən-red.) keçirilən seçkilərin nəticəsi bir saat əvvəl açıqlanıb.

Vüsal Hüseynov Azərbaycan Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Fazil Məmmədovun yaxınları istintaqa cəlb olundu

### Sabiq nazirin Vergilər Nazirliyində işləyən kadrları - Habil Məmmədov, Elnur İsgəndərov, Mahir Rəfiyev həbs oluna bilər

**Fazil Məmmədovun Vergilər Nazirliyində əsas maliyyə axınlarına nəzarət edən kadrları istintaqa cəlb olunub. Belə ki, onlardan Vergilər Nazirliyində aparılan leqal və qeyri-leqal əməliyyatlarla bağlı ifadələr alınır.**



Bu sırada vergilər nazirinin müavini, Fazil Məmmədovun qudası Namiq Əliyev, Bakı şəhəri Lokal Gəlirlər Departamentinin baş direktoru, nazirin büdcə məsələləri üzrə müşaviri Habil Məmmədov, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti rəisinin 1-ci müavini Namiq Quliyev, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərovun oğlu, vergilər naziri Fazil Məmmədovun bacısı oğlu, Bakı Vergilər Departamentinin rəis müavini işləmiş Elnur İsgəndərov və vergilər nazirinin müşaviri Mahir Rəfiyev istintaqda ifadələr veriblər. Tendensiya.com-u məlumatlandıran mənbə bildirib ki, adıçəkilən şəxslərdən istintaq müddətində başqa yerə getməmək barədə iltizam alınıb. Mənbə bildirib ki, Fazil Məmmədovun yaxın adamlarının istintaqa cəlb olunmasının səbəbi Vergilər Nazirliyində qeyri-leqal yolla toplanılan böyük məbləğdə pulların uzun müddət büdcədən yayındırılması prosesi olub. Həmçinin iş adamlarına edilən basqılarla bağlı da Fazil Məmmədovun adamları sorğu-sual edilirlər. Məlumatda bildirilir ki, şikayətçi olan iş adamlarından da xüsusilə Bakı şəhəri Lokal Gəlirlər Departamentinin baş direktoru Habil Məmmədovla bağlı izahatlar alınıb. Bundan əvvəl mediada yayılan xəbərlərdə bildirilir ki, Eldar Mahmudov nazir olduğu dövrdə orta və böyük vergi ödəyiciləri haqqında məlumatlar ona Habil Məmmədov tərəfindən ötürülürmüş. Bundan sonra isə keçmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) həmin iş adamlarına qarşı əməliyyat keçirərək, onlardan külli miqdarda pul tələb edirmiş. Onun Eldar Mahmudovla şəxsi münasibətlərinin də yüksək səviyyədə olduğu deyilir. Mətbuatın yazdığına görə, Eldar Mahmudov vəzifədən çıxarılandan sonra da Habil Məmmədov onunla münasibətləri kəsməyib. Habil Məmmədov həmçinin Fazil Məmmədovun "qara kassiri" olaraq da bilinir.

Məlumatlı mənbənin bildirdiyinə görə, Fazil Məmmədovun yaxın ətrafı MTN hadisələrindəki həbslərin Vergilər Nazirliyində də aparılacağını istisna etmədiyindən dörd divara düşməmək üçün çıxış yolları axtarırlar.

**E.HÜSEYNOV**

## Salyanda iki gənc bıçaqlandı

**Yanvarın 24-də günorta saatlarında Salyan şəhərində bıçaqlanma hadisəsi baş verib.**

Virtualaz.org-un Şirvan bürosunun məlumatına görə, Salyan şəhəri "Plastik" yaşayış massivinin Ş.Ə.Hüseynzadə küçəsində yaşayan 20 yaşlı Cəfərov Nurməmməd Telman oğlu və 22 yaşlı Abdullayev Toğrul İlham oğlu Salyan şəhər sakini olan iki qardaş tərəfindən bıçaqlanıb.

Yaralılar dərhal Salyan Mərkəzi Rayon Xəstəxanasına yerləşdiriliblər. Yeddi bıçaq xəsarəti alan Nurməmməd Cəfərovun vəziyyəti ağır olduğundan dərhal əməliyyata götürülüb. Toğrul Abdullayev isə sinə nahiyəsindən bir bıçaq xəsarəti alıb.

Hadisəni törətməkdə şübhəli bilinən Salyan şəhər sakini olan iki qardaş saxlanılıb. Faktla bağlı araşdırmalara başlanılıb.

Əməliyyat olunmuş hər iki yaralının vəziyyətinin ağır olduğu bildirilir.

## Azərbaycanda 10 km dərinlikdə neft yataqlarının axtarışı aparıla bilər

**"Beş-on ilə dövlət alimlərin, xüsusən akademik alimlərin qarşısında 10-12 kilometr dərinlikdə neft yataqlarının aşkarlanması tələbini qoyacaq".**


Akif Əlizadə

APA-nın xəbərinə görə, bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə Akademiyanın Rəyasət Heyətinin yanvarın 24-də keçirilən iclasında deyib.

"BP şirkəti Meksika körfəzində 10 kilometr dərinliyində neft yatağı aşkar edib. Bu onu göstərdi ki, 10-12 kilometr dərinlikdə neftin olmasını proqnozlaşdırmaq mümkündür. Bizim bu dərinlikdə neftin ola biləcəyi barədə proqnozlar verməyə əsasımız var", - deyə AMEA prezidenti qeyd edib.

## Salyanda 71 yaşlı qadın yanaraq ölüb

**Salyan rayonunun Xocalı kəndində yanğın hadisəsi baş verib. Virtualaz.org saytının Şirvan bürosunun əldə etdiyi məlumata görə, 1947-ci ildə anadan olmuş kənd sakini İsmayılova Ceyran Nəzər qızının tənha yaşadığı evdə yanğın hadisəsi baş verib.Hadisə nəticəsində Ceyran İsmayılova yanaraq ölüb.Hadisənin neft qızdırıcısı ilə ehtiyatsız davranma ucbatından baş verdiyi ehtimal edilir.**

Faktla bağlı araşdırmalara başlanılıb.

## Bakıda 5 prokurorluq işçisi vəzifədən azad edilib

**Bakıda 2017-ci ildə cəzalandırılan prokurorluq işçilərinin sayı açıqlanıb.**

APA-nın məlumatına görə, Bakı şəhər prokuroru İlqar Abbasov şəhər prokurorluğunda ötən ilin yekunlarına həsr olunmuş kollegiya iclasında bildirib ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb.

2017-ci ildə müxtəlif xətalar törətdiklərinə görə 19 prokurorluq əməkdaşı, o cümlədən 3 rayon prokuroru intizam məsuliyyətinə cəlb edilib, onlardan 5 nəfər tutduğu vəzifədən azad olunub, 1 nəfər isə prokurorluq orqanlarından xaric edilib.

## İdarə və təşkilatlarda əlillər üçün iş yeri kvotası yaradılır

**Azərbaycanda əlillər üçün idarə, təşkilat və müəssisələrdə iş yeri kvotası yaradılır. Əlillər üçün idarə, təşkilat və müəssisələrdə əlavə olaraq kvota yaradılması təklif olunur.**

APA-nın məlumatına görə, yeni hazırlanmış "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun layihəsinin 22-ci (Əlilliyi olan şəxslərin məşğulluğunun təmin edilməsi) maddəsində qeyd olunur ki, əlilliyi olan şəxslərin işlə təmin etmək üçün müəssisə, idarə və təşkilatlarda kvota müəyyən edilir.

Kvota müəyyən edilmiş iş yerlərinə əlilliyi olan şəxslər müvafiq icra hakimiyyəti orqanının göstərişi ilə işə qəbul edilir. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən göndərilmiş əlilliyi olan şəxslərin onlar üçün kvota üzrə müəyyən olunmuş iş yerlərinə qəbul etməyən işəgötürənlər qanunla müəyyən edilmiş məsuliyyət daşıyır.

Qanun layihəsi Milli Məclisin Əmək və sosial siyasət komitəsinin yanvarın 25-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.

## Azərbaycan - Kosovo matçı ləğv olunub

**Fevralın 2-də Türkiyənin Antalya bölgəsində Azərbaycan və Kosovo milli komandaları arasında planlanlaşdırılan yoldaşlıq oyunu baş tutmayacaq. "Report"un AFFA-nın rəsmi saytına istinadən verdiyi məlumata görə, bununla əlaqədar hər iki futbol federasiyasının rəhbərliyi arasında püşkatmadan sonra görüş keçirilib və qarşılıqlı razılıq əldə olunub.**

Qeyd edək ki, UEFA Millətlər Liqasının bu gün (dünən-red.) İsveçrənin Lozanna şəhərində keçirilmiş püşkatmasının nəticəsinə əsasən, Azərbaycan və Kosovo milli komandaları eyni qrupda mübarizə aparacaq. Görüşün ləğvinə səbəb kimi məhz bu məqam göstərilib.

# İki jurnalist dünyasını dəyişdi

## Nicat Məlikov ürəktutmadan, Ülviyyə Şamilqızı avtomobil vurması nəticəsində vəfat etdilər

**Tanınmış jurnalist Nicat Məlikov yanvarın 23-də axşam saatlarında qəfildən dünyasını dəyişib.**

Həmkarımız mağazaya gedərkən ürəyi tutub və küçədə - yıxıldığı yerdə keçinib.

N. Məlikov 1979-cu ildə anadan olub.

O, jurnalist fəaliyyətinə "Zerkalo" qəzetində müxbir kimi başlayıb. Sonradan həmin nəşrin siyasət şöbəsinin müdiri olub.

N.Məlikov "APA Holdinq"ə daxil olan "Vesti.Az" saytında müxbir kimi çalışıb.

Daha bir həmkarımız Ülviyyə Şamilqızı Rusiyada yol qəzasında həlak olub.

Ülviyyə Şamilqızını (Məmmədova) Rusiyanın Həştərxan şəhərində avtomobil vuraraq öldürüb.

30 yaşlı adı açıqlanmayan şəxsin idarə etdiyi "Volkswagen Passat" markalı avtomobil Magistral küçəsində məşqdən evə dönən 1986-cı il təvəllüdlü Azərbaycan vətəndaşı olan qadını (rəsmi məlumatda ad açıqlanmayıb) vuraraq öldürüb. Hadisə tənzimlənməyən piyada keçidində baş verib. Şosenin həmin hissəsindən piyadanın keçməsində qayda pozuntusu yoxdur. Orada işıqfor və keçid üçün zolaq qoyulmadığından tənzimlənməyən piyada keçidi adlanır.

Ülviyyə Şamilqızının ölümü ilə nəticələnən faktla bağlı Rusiya Daxili İşlər Nazirliyinin İstintaq İdarəsinin Həştərxan vilayəti üzrə şöbəsində prosessual yoxlama aparılır.






Ü.Şamilqızının cənazəsi doğulduğu Gəncə şəhərinə aparılaraq orada dəfn olunacaq.

Qeyd edək ki, uzun müddət Azərbaycan mətbuatında fəaliyyət göstərmiş Ülviyyə Şamilqızı bir sıra KİV-lərdə, o cümlədən "Xalq Cəbhəsi" qəzetində, "Report" informasiya agentliyində çalışıb. O, fəaliyyəti dövründə dəfələrlə jurnalistlər arasında keçirilən müsabiqələrin qalibi və mükafatçısı olub. Ü.Şamilqızı təhsilini davam etdirmək üçün ötən ildən Rusiyanın Həştərxan şəhərində yaşayırdı.

Ülviyyə Şamilqızının atası Şamil Məmmədov Qarabağ müharibəsində itkin düşüb. Sonradan ona şəhid statusu verilib.

Bu ilin aprelində isə Ülviyyənin toyu olacaqdı...

**Allah həmkarlarımıza rəhmət eləsin!**



# Bayıldan əhali köçülür: sürüşmə aktivləşib

## Səbayel RİH-də xüsusi qərargah yaradılıb

**Son günlərdə atmosfer yağıntılarının təsirindən Səbayel rayonu Bayıl yamacında, teleqüllənin yaxınlığındakı mövcud sürüşmə zonasında aktivlik nəzərə çarpıb, torpaqda çatlar əmələ gəlib, bəzi yerlərdə isə çatlar genişlənib.**

Məsələ ilə bağlı aidiyyəti dövlət qurumlarının nümayəndələri həmin ərazidə olub və sürüşmə sahəsinə baxış keçiriblər.

Səbayel RİH-dən musavat.com-a verilən məlumata görə, Bakı şəhərinin aktiv sürüşmə zonalarından olan bu ərazidə sürüşmə halının baş verməsi yeni hadisə deyil, illərlə mövcud olan köhnə problemdir: "Sürüşmə hadisəsi müəyyən dövrdən bir aktivləşir. Yağıntıların normadan artıq olması və digər səbəblər də buna öz təsirini göstərir. Belə hallar hələ sovetlər dönəmində də mövcud idi. Vaxtilə ərazidə inşa olunmuş qanunsuz tikintilər, onların kommunikasiya xətlərinin qəzalı olması da sürüşməyə təkan verən hallardandır.

Məsələnin ciddiliyi nəzərə alınaraq, vətəndaşların təhlükəsizliyinin qorunması məqsədilə Səbayel Rayon İcra Hakimiyyətində Xüsusi Qərargah yaradılıb. Mütəxəssislərin iştirakı ilə sürüşmənin əhatə dairəsi, bu ərazidə mövcud tikililərin ünvanları və yaşayan vətəndaşların sayı müəyyənləşdirilib.

Sakinlərin təhlükəsizliyinin təminatı məqsədilə xüsusi təxliyə və yerləşdirmə planları hazırlanıb, tələbat yaranarsa vətəndaşların müvəqqəti yerləşdiriləcəyi yerlər müəyyənləşdirilib.

Məsələ ilə bağlı RİH-in başçısı Eldar Əzizov tərəfindən qərargahın iclası keçirilib, xidmət, təşkilat və dıgər sahələrin rəhbərlərinə müvafiq tapşırıqlar verilib. Ərazidə gedən prosseslər Nazirlər Kabinetı tərəfindən nəzarətdə saxlanılır".

Yanvarın 24-də axşam saatlarında sürüşmə zonasında daha təhlükəli vəziyyət yaranıb və əhalinin müəyyən hissəsinin köçürülməsi ilə bağlı işlərə başlanılıb.

**İcra hakimiyyətindən gecə saatlarında göndərilən məlumatda qeyd olunur:** "Qərargahın iclasından sonra rayon icra hakimiyyəti və rayon polis idarəsinin əməkdaşları həmin ərazidə olmuş sakinlərlə görüşüblər.

Təhlükəsizlik nöqteyi-nəzərindən sakinlərə müvəqqəti olaraq evlərini tərk edib qohumları və yaxınlarının evlərinə köçmələri tövsiyə olunub. Ərazi polis nəzarətinə götürülüb. Digər sakinlərin yerləşdirilməsi üçün ərazidəki idarə, təşkilat və müəssisələrdə müvəqqəti sığınacaqlar yaradılıb. Məsələ ciddi şəkildə nəzarətdə saxlanılır və əlavə tədbirlər görülür".

# Qəfil ölümlərdən xilas yolu - "Stent for life" proqramı Azərbaycanda da tətbiq oluna bilər

## 2017-ci ildə ölkədə vəfat edənlərin 57.8 faizi ürək çatışmazlığından ölüb; yeni ilin ilk ayında da statistika dəhşət saçır; tanınmış ürək cərrahının təklifi dəstəkləndi...

**Son illərdə Azərbaycanda ürəktutmadan vəfat edənlərin sayı ciddi şəkildə artıb. Statistikaya görə, 2017-ci ildə Azərbaycanda əhali arasında ölümlərin ən əsas səbəbi ürək-damar sistemi xəstəlikləri olub. Bunu Milli Məclisin Səhiyyə komitəsinin iclasında deputat, tanınmış ürək-damar cərrahı, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası İdarə heyətinin sədri Rəşad Mahmudov bildirib. Onu da deyib ki, vəfat edənlərin 57.8 faizi ürək çatışmazlığından ölüb.**



Qeyd edək ki, R.Mahmudov hələ 2017-ci ilin yanvarında, yəni 57.8 faizlik ölüm statistikası mövcud olmadığı zaman musavat.com-a açıqlamasında həyəcan təbili çalmışdı. Deputat bundan daha əvvəl, 2016-cı ilin payızındakı parlament iclasında, elə hökumət üzvlərinin iştirak etdiyi büdcə müzakirələrində bildirmişdi ki, dünya ölkələrinin səhiyyəsində tətbiq olunan "Stent for life" proqramından yararlanmaqla Azərbaycandakı qəfil ölümlərin böyük bir hissəsinin qarşısını almaq tam mümkündür. R.Mahmudov ürəktutmalarının əsasən 40-60 yaş arasındakı insanların arasında geniş yayıldığını da söyləmişdi.

Elə yeni ilin ilk ayında ürək tutmalarından dünyasını dəyişənlərlə bağlı acı xəbərlər ardıcıl şəkildə yayılır. Yanvarın ilk həftəsində Bakı Dövlət Universitetinin rektoru, akademik, keçmiş deputat Abel Məhərrəmovun qardaşı Məhərrəm Məhərrəmov iş başında ürək tutmasından dünyasını dəyişdi. Yanvarın 22-də Ağcabədi Rayon Məhkəməsində məhkəmə prosesi zamanı vəkilin qəflətən ürəyi tutub və elə məhkəmə zalında dünyasını dəyişib. 23 yanvarda isə jurnalist həmkarımız Nicat Məlikov küçədə gedərkən ürəktutmasından 39 yaşında həyata vida edib. Ötən ilin sonlarında isə digər jurnalist həmkarımız Natiq Qədimov 41 yaşında məhz ürəktutmasından qəfil vəfat etdi. Deməli, icbari tibbi sığortanın bütün ölkə ərazisində tətbiqinə qədər "Stent for life" prqramı tətbiq olunsa, xeyli insanı ölümün pəncəsindən qoparmaq olar.

"Stent for life" - "Yaşamaq üçün stendləmə" deməkdir. Bu proqram həm ürək, həm beyin damarlarını bərpa etmək imkanı verir. Yəni damarın tam tutulması anında belə o, xəstəxanaya çatdırılarsa, həmin tibbi avadanlıqlar vasitəsilə iki saat ərzində damarın yolunu bərpa etmək və xəstəni ölümdən xilas etmək mümkündür. R.Mahmudov deyir ki, bu proqramın ölkəmizdə qəbul olunması ildə 15 minə yaxın kəskin infarkt xəstəsi olan insanların azı 90 faizinin həyata normal şəkildə qaytarılması, ailələrinin başında qalması deməkdir. Hazırda isə bu insanlar ya əlilə çevrilir, ya da həyatını itirir. Əlillə çevrilməsi həm də onların əmək qabiliyyətini itirməsi deməkdir. Bu isə təkcə həmin şəxslərin ailələrinə yük olmaları deyil, həm də dövlətə yük deməkdirr. Bunun ardınca təbii ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlillərin sayının artmasından, paralel olaraq pensiyaçıların statistikasında artan tempin müşahidə olunmasından danışmağa məcbur olacaq.

**Rəşad həkimin bu təklifi kifayət qədər maraqla qarşılanır və təqdir olunur. Məsələn, politoloq Hikmət Hacızadə qəzetimiz vasitəsilə xahiş etdi ki, səlahiyyətli şəxslər və orqanlar bu məsələnin tətbiqi istiqamətində addım atsınlar:** "Bu istiqamətdə addım atılsa, minlərlə adam ölümdən xilas ola bilər. "Stent for life" proqramı olduqca vacib və taleyüklü bir proqramdır. İldə minlərlə vətəndaşımızın həyatını xilas edə bilər. Özü də bu proqram Rusiyada, Belarusda, hətta Ermənistanda artıq tətbiq olunub. İldə 15-20 milyon manat xərc çəkib bu proqramı tətbiq etmək olar. Amma bu addımın atılması səhiyyəmizi xeyli qabağa salar. Odur ki, xahiş edirəm, bu məsələni diqqətdə saxlayın! Doktor Rəşad Mahmudovdan isə xahiş edirik ki, bu təklifi hər yerdə səsləndirsin, inadkarlıqla bunun üzərində işləsin!"

**Deputat, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev "Yeni Müsavat"a bildirdi ki, prinsipcə, bu istiqamətdə Azərbaycanda da addım atmaq olar:** "Amma qan-damar sistemi xəstəlikləri tək Azərbaycanın deyil, bütün dünyanın problemidir. Dünyadakı bütün ölümlərin üçdə ikisi qan-damar sistemi xəstəliklərinin payına düşür. Azərbaycanda da təxminən buna yaxın bir statistika var. Rəşad həkimin dediyi də böyük bir proqramdır. Şübhəsiz ki, hökumət bu məsələyə baxmalıdır. Bu, çox vacib bir məsələdir. Milli Məclis olaraq bu məsələləri biz də büdcə müzakirələrində, həm də hökumətin hesabatlarında qaldırırıq. Yəqin ki, hökumətin mart ayındakı hesabatında da bu barədə deyəcəyik. Hər halda, bu məsələləri hökumət qarşısında qaldırmaq Səhiyyə Nazirliyinin borcu, işidir. Amma təkcə bu proqram deyil, başqa proqramlar da var. Bütövlükdə ürək-damar xəstəliklərinin profilaktikası və müalicəsi, bu xəstələrin reabilitasiyası üçün dövlət proqramı da qəbul oluna bilər".

**M.Quliyev bildirdi ki, bunlar hamısı ciddi maliyyəyə bağlı məsələlərdir:** "Biz indi icbari tibbi sığortaya keçməyə hazırlaşırıq. Şübhəsiz ki, belə xəstələrin həm müayinəsi, həm profilaktik müalicələr, o cümlədən ağır əməliyyatların həyata keçirilməsini icbari tibbi sığorta qarşılayacaq. Amma sığorta başlayana qədər belə bir proqrama imkan olar, ya olmaz, bunu yəqin ki, hökumət götür-qoy etməlidir".

**Deputat əlavə etdi ki, ölkə üzrə icbari tibbi sığortaya 2019-cu ildə keçilməsi planlaşdırılır:** "İki rayonda bu, tətbiq olunur, Sədərəkdə də başlayır. 2018-ci il ərzində yəqin daha bir rayon da əlavə olunar. Yəni 4 rayonda biz bu təcrübəni davam etdirəcəyik".

**Mövzunu diqqətlə saxlayacağıq.**

**❑ E.PAŞASOY,**
**❑ "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 18 (6907) 25 yanvar 2018

**Deputat, Əfv Komissiyasının üzvü Məlahət İbrahimqızı Azərbaycanda “Qızıl amnistiya”nın imzalana biləcəyini deyib. Qarşıdakı ayların birində belə bir sərəncamın verilmə ehtimalları yüksək dəyərləndirilir.**

# Cümhuriyyətin yüz ilində “Qızıl amnistiya” olacaqmı?

Xüsusilə bu ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının yüz ilinin tamam olması və ölkə başçısının bu ili “Cümhuriyyət ili” elan etməsi bu məsələni daha da aktuallaşdırıb. “Qızıl amnistiya”nın məhz 28 may ərəfəsində veriləcəyi barədə xəbərlər dolaşmaqdadır. Bu ilin “Cümhuriyyət ili” elan olunması ilə bağlı verilən qərarın əhəmiyyətini daha da artırmaq üçün bu tipli amnistiyanın verilməsinə böyük ehtiyacın olduğu vurğulanır.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev “Qızıl amnistiya”nın verilməsinin vacibliyindən söz açdı:** “Bu il bizim üçün çox əlamətdar bir ildir, həm daxili auditoriya, həm də beynəlxalq ictimai rəy üçün müəyyən addımlar atmaq lazımdır. Belə bir addım atılarsa, yəni "Qızıl amnistiya" verilərsə, cəmiyyətdə sıfırdan yenidən münasibətlərə baxmaq məsələsinə başlanıla bilər. Nəticədə böyük bir milli barışıq üçün zəmin yaranar. Həbsxanada çoxsaylı günahkar insanlar var ki, səhvlərini anlayıblar, cəzalarının müəyyən hissəsini çəkiblər. Mən də məhbəsdə olmuşam. Orada elələri var ki, azad edilməsi doğru sayılmaz. Həbsxanada hər cür adamlar olur. Amma ümumi götürəndə düşünürəm ki, “Qızıl amnistiya” verilsə, əhəmiyyətli bir hadisə olar. İstənilən halda, bəzi şəxslərin azadlığa buraxılıb-buraxılmaması götür-qoy edilməlidir. Bu, kütləvi xarakter ala bilməz. “Qızıl amnistiya” elə bir şeydir ki, hamıya şamil olunan əfv sayılır. Bunu məhbəs həyatındakı məhbuslar bu cür qəbul edirlər. Düşünürəm ki, tam o mənada olmasa da, geniş amnistiyanın verilməsi mümkündür".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı Cümhuriyyətin yüz illiyinin əsas bayramlardan biri olduğunu söylədi:** “Həm dövlətimiz, həm də xalqımız adına çox ciddi bir bayramdır. Çox güman ki, hökumət bu bayramla əlaqədar bir sıra tədbirlər planı hazırlayacaq. Bunlar hökumətin işidir və bizlərin bununla bağlı təklif, tövsiyələr vermək səlahiyyəti yoxdur. Biz, sadəcə, təklif vermişik ki, bu bayramı təşkil etmək üçün vətəndaş cəmiyyətinin nümayəndələri də komissiya tərkibinə daxil edilsinlər. Hüquqları pozulan insanlarla ən çox təmasda olan hüquq müdafiəçiləridir. Bunu tam məsuliyyətimlə deyirəm. Biz bir təşkilatıq və bizə aylıq gələn şikayətin sayı azından yüz olur. Ola bilsin ki, "Qızıl amnistiya" verilsin və siyasi məhbuslara olan maddələr ora salınmasın. Amma vətəndaş cəmiyyəti nümayəndələri təklif etdiyimiz komissiyaya daxil edilsələr, o zaman çoxsaylı insanlar azadlığa çıxa bilər. Bunların içərisində də günahsız insanlar ola bilər. Cümhuriyyətin yüz illiyi ilə bağlı ölkədə başqa islahatların da keçirilməsini çox istərdik. Bu problemlərin həlli əhali üçün böyük bayram müjdəsi olardı. Hökumət siyasi məhbus anlayışını qəbul etmir və hesab edir ki, həbs olunanlar siyasi motivlərlə həbs edilməyiblər. Amma hüquq müdafiəçilərinin siyasi məhbus hesab etdiyi insanlar var. Çox istərdik ki, mart ayında siyasi məhbusların azadlığa buraxıldığı bir əfv sərəncamı verilsin, yaxud amnistiya ilə yanaşı da əfv imzalansın. Bunları etmək üçün bəhanələr, günlər kifayət qədərdir. Heç belə günlər olmadan da bir qrup insanı azad etmək olar. Bir sıra şəxslər var ki, onların tərəfdarları, onları müdafiə edən şəxslər var, onların azad edilməsi üçün beynəlxalq qurumların tələbləri ortadadır. Bu sırada öncəliklə İlqar Məmmədovun adını qeyd etmək olar ki, onun hazırda azadlığa buraxılması çox vacibdir. Digər tərəfdən, yaxşı olardı ki, həbsdə olan qadınlar bu sərəncamlarla azadlığa buraxılanlar sırasında çoxluq təşkil edərdilər. İki gün öncə də Gözəl Bayramlıya üç il həbs cəzası verildi. Çox istərdim ki, əfv və amnistiya verilərsə, bu sırada qadınlar çoxluq təşkil etsinlər. Mayın 28-dəki önəmli bayramımızla bağlı çox istərdim ki, yaradılan müvafiq qurum cəmiyyətin sosial sifarişini yerinə yetirsin. Bununla Azərbaycan dünya miqyasında daha çox müsbət mövqelər alardı. Daha çox ölkə daxilində bu müsbət imicin yaranmasını istərdim. Açığı, beynəlxalq mövqe mənim üçün o qədər də böyük önəm kəsb etmir".



**Fərəc Quliyev:** “Geniş amnistiyanın verilməsi mümkündür”

❑ **Cavanşir ABBASLI,**
❑ **“Yeni Müsavat”**

# Həbsdəki tanınmışlardan xəbər var

## İlqar Məmmədov xarici vəkil üçün etibarnaməni imzalayıb; Əziz Orucova ailəsi ilə görüş verilmir



İlqar Məmmədov



Əziz Orucov

**Həbsdə olan REAL sədri İlqar Məmmədovun işinə britaniyalı vəkilin də qoşulduğu barədə xəbər vermişdik. Artıq vicdan məhbusu həbsxanada xarici vəkilin işində iştirak etməsi barədə etibarnaməni imzalayıb. Bu barədə “Yeni Müsavat”a onun həyat yoldaşı Vəfa Məmmədova məlumat verib.**

V.Məmmədova həyat yoldaşının ümumi vəziyyəti ilə bağlı bunları deyib: “İlqarın işində olan yenilik yalnız odur ki, işinə yeni vəkil qoşulub. Xarici vəkil hələ Azərbaycana gəlib İlqarla görüşməyib. Çünki yeni təsdiqlənib. İlqar da etibarnaməni hələ yeni imzalayıb. Vəkilin Azərbaycana gəlib-gəlməyəcəyini də dəqiq bilmirik. Bizim üçün əsas olan vəkilin xaricdə olmasıdır. Çünki onsuz da burada vəkil Fuad Ağayev var. Yəni xarici vəkilin bura gəlməsi o qədər də vacib deyil. Çox böyük zərurət yaranarsa gələ bilər. Sonuncu dəfə İlqarla Yeni ildən sonra görüşmüşəm. Elə bir problemi yoxdur. Problem, sadəcə, vəkili ilə bağlı olmuşdu. Sənədləri yanına buraxmadılar. Bu problem də, deyəsən, həll olunur. Başqa elə bir yenilik yoxdur”.

**“Kanal 13" internet televiziyasının rəhbəri Əziz Orucov hökmdən apelyasiya şikayəti verib. Kanal rəhbərinə hələ də ailəsi ilə açıq görüş verilmir. Bu barədə məlumat verən Ə.Orucovun həyat yoldaşı Lamiyə Orucova bunları dedi:** "Apelyasiya şikayəti artıq verilib. Nə zaman şikayətə baxılacağı hələ məlum deyil. Amma vəkilin dediyinə görə, həftənin sonuna qədər xəbər çıxar. Əzizin ümumi durumu qaydasındadır. Lakin bir problem yaşayırıq ki, hələ də bizə açıq görüş verilmir. Açıq görüşə icazə verəcəklərini deyirlər, amma artıq 9 aydır ki, bizə bu görüş verilmir. Bu, süni formada yaradılmış problemdir. Dəfələrlə cəhd etmişəm ki, rəislə görüşüm, nə üçün icazə verilmədiyinin səbəbini soruşum. Amma müxtəlif bəhanələrlə bu görüşə imkan verilmir. Saxlanma şəraiti qaydasındadır. Sonuncu dəfə Əzizin dustaq yoldaşı ilə problemi yaranmışdı. Aralarında dava düşmüşdü. Bu problem aradan qaldırılıb. Həmin dustağı oradan çıxarıblar, yerinə başqasını gətiriblər. İstilik sistemi qaydasındadır".

❑ **Cavanşir ABBASLI,**
❑ **“Yeni Müsavat”**

# “Radikal dini cərəyanlar ciddi problemə çevrilməkdədir”

## **Partiya sədri:** “Siyasi, demokratik müxalifətin zəifləməsi radikal qüvvələrin meydana çıxmasına səbəb olur”



Razi Nurullayev

**“Bu gün Azərbaycanda dini müxalifətin meydana çıxma təhlükəsi var. Müxtəlif məzhəblər, təriqətlər, radikal dini cərəyanlar ciddi problemə çevrilməkdədir”. Bu barədə “Yeni Müsavat”a açıqlamasında yeni AXCP-nin sədri Razi Nurullayev bildirib. Onun sözlərinə görə, təhlükənin olduğunu söyləməsi üçün bir sıra arqumentləri var: “Sosial şəbəkədə elə statuslar görürəm ki, musiqi dinləməyi günah hesab edirlər, şadlanmağı günah hesab edirlər, onlar üçün insan əzabkar olmalı, dünya cah-cəlalından uzaq dayanmalıdır. Yəni uzun sözün qısası, insan yasa batmalıdır. Belə bir təhlükə olduğu halda dünyəvi müxalifətin zəiflədilməsi və ölkənin siyasətinə təsir imkanlarının azaldılması, o cümlədən dindarlarla birlikdə hərəkət etməyi çıxış yolu kimi görməsi sonun başlanğıcıdır. Bu təhlükə çox ciddidir”.**

R.Nurullayevin fikrincə, dünyəvi demokratik müxalifətin zəifləməsi və təsir imkanlarını itirməsi, onun əvəzində radikal dini müxalifətin meydana gəlməsi yalnız müxalifət üçün təhlükə yaratmır, daha çox iqtidar və dövlətimiz üçün təhlükəlidir: “Demokratik müxalifət dünyəvidir və onlarla dil tapıb anlaşmaq problem deyil. Qatı dini cərəyanlarla, başqa ölkələrin din pərdəsi altında siyasətinə yardımçı olanlarla isə dil tapmaq mümkün deyil. Onlar üçün dialoq, humanizm, barışdırıcılıq xas deyil, daha çox dağıdıcılığa, yıxmağa, yandırmağa, uçurmağa, sökməyə meyllidirlər. "Allahu-əkbər" deyib özünü partlatmaq istəyən, əvəzində cənnətə düşməyə inanan “dindar” nüvə bombasından daha təhlükəlidir. Təriqətlər, məzhəblər parçalayıcı mövqe nümayiş etdirir, din pərdəsi altında gizlənən siyasətçilər isə bunu qanlı toqquşmalara gətirib çıxarırlar. Bu cür təhlükəli bir zamanda yaşadığımızı göz önünə gətirərək, dünyəviliyin inkişafına və təbliğatına ciddi yanaşırıq. Hakimiyyətin isə bu dəyərlərin saxlanması üçün özünə tərəfdaş olaraq dünyəvi müxalifəti seçməkdən başqa yolu yoxdur. Ona görə də qoy ciddi düşünsünlər. Dindarları isə öz siyasətinə pərçim edənlər, onlarla üzdə bir olub, ideoloji baxışda fərqlənən dünyəvi müxalifət isə düşünsün ki, həlledici məqamda dəyənək birinci elə onların başına enəcək".

❑ **Etibar SEYİDAĞA,**
❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 18 (6907) 25 yanvar 2018





# Prezident İlham Əliyev Davosda mühüm görüşlər keçirdi

## Dövlət başçısı forum çərçivəsində İsrailin baş naziri və BP-nin baş icraçı direktoru ilə də bir araya gəldi; deputat: "Davos Forumu həm də siyasi meydandır"

**Yanvarın 24-də İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumu çərçivəsində "Neft və qaz sənayesi siyasəti üzrə liderlərin toplantısı" adlı sessiya keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada iştirak edib.**

Dövlət və hökumət başçıları ilə yanaşı, dünyanın aparıcı enerji şirkətlərinin rəhbərlərinin, mütəxəssislərin və alimlərin də qatıldığı sessiyada neft və qaz sənayesinin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmin gün Davosda İsrail Dövlətinin baş naziri Benyamin Netanyahu ilə görüşü olub. AzərTAc xəbər verir ki, görüşdə İsrailin baş naziri Benyamin Netanyahunun Azərbaycana səfəri məmnunluqla xatırlandı, səfərin nəticələrinin Azərbaycan-İsrail əlaqələrinin inkişafına yeni təkan verdiyi qeyd olunub. Söhbət zamanı ikitərəfli əlaqələrin müxtəlif aspektləri müzakirə edilib, gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparılıb.

Prezidenti İlham Əliyev Davosda BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə də görüşüb.

APA-nın məlumatına görə, görüşdə "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsini nəzərdə tutan müqavilənin uzadılmasının əhəmiyyəti vurğulanıb. Bu il "Şahdəniz-2" yatağından ilk qazın hasil olunacağı, TANAP kəmərinin istismara veriləcəyi bildirilib.

Söhbət zamanı Azərbaycanda neft hasilatının perspektivləri ilə bağlı məsələlər müzakirə olunub.

Prezident İlham Əliyev Robert Dadlini Bakıya səfərə dəvət edib.

Azərbaycan prezidenti İlham Əliyev Davosda "Statoil" şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə də görüşüb...

Davosda Ekspo 2025 ümumdünya sərgisinə Bakı şəhərinin namizədliyi ilə bağlı tədbir keçirilib. Ekspo 2025 Bakı Əməliyyat katibliyindən APA-ya verilən məlumata görə, yanvarın 23-də keçirilmiş tədbirin əsas məqsədi dəvətlilərə Bakının ismarışını çatdırmaq olub. Toplantıya dövlət və özəl sektorları təmsil edən nümayəndələr, o cümlədən səfirlər, diplomatlar, təhsil, media qurumlarının nümayəndələri, müxtəlif şirkətlərin rəhbərləri qatılıb. Rəsmi qəbulda çıxış edən Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi, Beynəlxalq Sərgilər Bürosunda Azərbaycan nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov qeyd edib ki, Bakının təklif etdiyi "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusu Dünya İqtisadi Forumunun builki mövzusu olan "Pərakəndə Dünyada Ümumi Gələcəyin Qurulması" ilə geniş mənada üst-üstə düşür.

**E. Əmirbəyov vurğulayıb ki, "Bakının Ekspo 2025 üçün təklif etdiyi "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusunu Dünya İqtisadi Forumunda müzakirə etməkdən şərəf duyurlar:** "Dünya həmişəkindən daha sürətli templə dəyişir və Ekspo 2025 üçün Bakının təklif etdiyi alt-mövzuların təşkil edən insan ehtiyacları - səhiyyə, təhsil və məşğulluq - dünyanın hər bir ölkəsinin üzləşdiyi məsələlərdir. İqtisadiyyatlar və cəmiyyətlər transformasiyaya uğrasa da, bu mövzular insanları birləşdirir və onların həyat seçimlərinə təsir göstərir. Bu xüsusda öz baxışlarımızı Davosda təqdim etmək imkanından çox məmnun olduq və tədbir zamanı və sonra aldığımız müsbət reaksiya bizdə ruh yüksəkliyi yaradır".

**Deputat Vahid Əhmədov "Yeni Müsavat"a açıqlamasında forumun əhəmiyyətindən bəhs etdi:** "Davod İqtisadi Forumu 48-ci dəfədir keçirilir və çox əhəmiyyətli bir forumdur. Çünki burada həm müəyyən ölkələrin dövlət başçıları, baş nazirləri, eyni zamanda iri şirkətlərin rəhbərləri iştirak edir. Bu, həm iqtisadi forumdur, həm də orada danışıqlar aparmaq üçün meydan var. Fikir verin, İlham Əliyev bu bir neçə gün ərzində 30-a yaxın şirkət rəhbərləri ilə, həmçinin OPEK-in rəhbəri ilə görüşüb. Yəni bu forumun çox böyük əhəmiyyəti var. Bizim üçün xüsusi əhəmiyyəti ondan ibarətdir ki, hələ əvvəlki dövrdə Davosun hazırladığı reytinq cədvəlində, inkişaf etməkdə olan ölkələr arasında 3-cü yeri tutmuşuq. Yəni Litva, Macarıstandan sonra Azərbaycan gəlir. Bu forumun əhəmiyyəti həm də bundan ibarətdir ki, cənab prezident Azərbaycanda həyata keçirilən islahatlar barədə məlumat verir. Çıxışında qeyd edib ki, artıq neft-qaz ehtiyatlarına ümid etmək lazım deyil, qeyri-neft sektorunu inkişaf etdirmək lazımdır. Bu istiqamətdə Azərbaycanda aparılan islahatlar barədə danışıb".

**V.Əhmədov Davos Forumunun əslində bir meydan olduğunu vurğuladı:** "Bu meydanda ölkəmizdə aparılan islahatları nəzərə çatdırmaq, iri şirkətləri bu barədə məlumatlandırmaq çox mühüm əhəmiyyət kəsb edir. İkincisi də orda müəyyən dövlət rəhbərləri ilə görüşlər keçirilir, məlumatlar verilir. Ola bilər ki, Azərbaycanla əlaqədar bəzi məlumatlar onlarda yoxdur, gedən iqtisadi islahatlardan xəbərsizdirlər. Məsələn, biz Milli Məclisin 3 komitəsində Ələt Azad İqtisadi Zonanın yaradılması ilə əlaqədar qanun layihəsini müzakirə etdik və qəbulu üçün plenar iclasa təqdim etdik. Yəni belə bir zona ilk geniş azad iqtisadi zona olacaq. Bu kimi məsələlər barədə Davosda iri şirkətləri məlumatlandırmaq çox əhəmiyyətlidir. İnvestisiya yatırmaq istəyən şirkətlər, dövlətlər istəyirlər ki, orada stabillik olsun, bu da Azərbaycanda var. Cənab prezidentin bir fikri də çox xoşuma gəldi. Qeyd etdi ki, Azərbaycan müstəqil siyasət aparır. Düzdür, bu, bəzi dövlətlərin xoşuna gəlmir, bizi kiçik dövlət hesab edirlər, amma biz öz müstəqil siyasətimizi aparırıq, heç nədən də çəkinmirik. Yəni çox nümayişkaranə şəkildə bu sözləri dedi, bizimçün də bu, çox önəmlidir".

**Deputat qeyd etdi ki, Davos Forumu təkcə iqtisadi forum deyil, həm də siyasi səhnədir:** "Orada polemikalar üçün də meydan genişdir, həmçinin Qarabağ məsələsi ilə əlaqədar da məlumat verilir və s. Ümumilikdə, mən Dovos Forumunu həmişə yüksək əhəmiyyətli forum sayıram".

❑ **Cavid TURAN,**
❑ **"Yeni Müsavat"**

# Afrin əməliyyatı Amerika üçün çətin sınağa çevrilir

## Vaşinqton kürdlər və NATO müttəfiqi Türkiyə arasında seçim etməli olacaq, yaxud da...

**Türkiyə ordusunun Afrin rayonunun azad edilməsi məqsədilə başlatdığı "Zeytun budağı" əməliyyatı 6-cı gündür davam edir. Kürdlər gündüzlər gizlənsə də, gecələr fəallaşaraq müqavimət göstərməyə çalışırlar. Məsələ ondadır ki, Türkiyə ordusu havadan və qurudan artilleriya atəşi ilə kürd mövqelərini məhv edir, kürdlər isə gecələr bayıra çıxırlar.**

Əməliyyatın 5-ci günü Ankarada prezident sarayında təşkil olunan toplantıda çıxış edən Rəcəb Tayyib Ərdoğan bildirib ki, əməliyyat başladığından bu günə qədər Türkiyə ordusu və müttəfiq qüvvələrin ümumilikdə 7-8 nəfər itkisi olub. Qarşı tərəfdən isə 268 nəfər məhv edilib. Ərdoğan ASO-nun irəlilədiyini və Afrin tamamilə təmizlənənə qədər əməliyyatın davam edəcəyini bildirib.

Türkiyə ordusunun yaydığı rəsmi məlumata əsasən yanvarın 24-dək Afrin əməliyyatında 3 hərbçi şəhid olub. Bunlar piyada gizir Musa Özalkan, baş leytenant Oğuz Kaan Usta və gizir Mehmet Muratdağıdır.

**Baş nazir Binali Yıldırım bəyan edib ki, Afrində əməliyyatlar çərçivəsində 214 hədəf vurulub məhv edilib:** "Ərazidə sonuncu terrorçu zərərsizləşdirilənə qədər əməliyyat davam edəcək".

Türkiyə ordusu Afrində əməliyyat apardığı bir zamanda Ankarada hökumət aktiv diplomatiya aparır. Söhbət əməliyyatla bağlı mənfi rəylərin və əks-təbliğatın aparılmasının qarşısını almaqdan gedir. Həftənin əvvəlində Ərdoğan Rusiya prezidenti Putin, Fransa prezidenti Makronla telefonla danışıb və "Zeytun budağı" əməliyyatı haqqında məlumat verib.

Bundan başqa, xarici işlər naziri iki gün əvvəl Parisdə ABŞ dövlət katibi Reks Tuillersonla görüşüb. Bu görüşdən sonra açıqlama verilib ki, ABŞ prezidenti Trampın istəyi ilə ABŞ və Türkiyə prezidentləri arasında telefon danışığı aparılacaq.

Qeyd edək ki, Ərdoğan Putinlə telefon danışığından sonra bildirib ki, Suriya mövzusunda Rusiya ilə koordinasiyalı çalışırlar. Eyni zamanda Ərdoğanın Trampla görüşünün əsas mövzusu da Afrindəki vəziyyət olacaq.



Bu arada Türkiyə daxilində "Zeytun budağı" əməliyyatı əleyhinə təbliğat aparan şəxslərə qarşı əməliyyatlar davam edir. "Anadolu" agentliyi xəbər yayıb ki, Afrin əməliyyatı əleyhinə təbliğat apardığı üçün saxlanılan 150 nəfərdən 11-i barəsində həbs qərarı çıxarılıb. Saxlanılmaların əsas səbəbi sosial şəbəkələrdə "Zeytun budağı" əməliyyatı əleyhinə və PYD/PKK lehinə təbliğat aparmalarıdır.

Türkiyə ordusunun Almaniya istehsalı olan tanklarla Afrinə hücum etməsi bəzi alman siyasətçiləri narazı salıb. Əməliyyatda Almaniya istehsalı "Leopard" tanklarından istifadə olunur. Bir neçə partiyadan olan siyasətçilər hökumətə müraciət edərək Türkiyəyə tank satışını dayandırmağa çağırıblar. Baş nazir Merkelin partiyasından olan deputat Norbert Röttgen BBC-yə bildirib ki, Türkiyənin Afrin əməliyyatı qanunsuzdur. O hökuməti Ankaraya silah embarqosu tətbiq etməyə çağırıb.

Almaniya Sol Partiyanın Federal məclisdəki fraksiya sədri Sahra Wagenknecht bildirib ki, Afrin əməliyyatına cavab olaraq Konyadakı NATO bazasında xidmət edən Almaniya hərbçiləri geri çağırılmalıdır. Fraksiya sədri deyib ki, Konyadakı bazada AWACS kəşfiyyat təyyarələri tərəfindən əldə olunan kəşfiyyat bilgiləri Afrin əməliyyatında istifadə olunur. Almaniyada PKK həssaslığı yeni hadisə olmasa da, son zamanlarda mülayimləşməkdə olan Almaniya-Türkiyə münasibətlərinin yenidən pisləşəcəyini demək olar.

Daha bir diqqəti cəlb edən tendensiya isə Qərb mediasının mövqeyidir. Doğrudur, siyasi dairələr Türkiyənin Afrin əməliyyatına sözdə dəstək versələr də. Mediada fərqli ab-hava hiss olunur. Məsələn, ABŞ-ın nüfuzlu "Nyu York Tayms" qəzeti yayınladığı analitik məqaləsində Afrin əməliyyatının Türkiyənin mövqelərini gücləndirdiyi, bunun əksinə, ABŞ-ın mövqelərinin zəiflədiyini iddia edib. Qəzetin yazısında iddia olunur ki, Vaşinqton indi həm kürdləri qorumaq, həm də Türkiyə kimi müttəfiqini itirməmək arasında qalıb, çıxış yolu axtarır. Eyni zamanda Tramp hökumətinin Suriya kürdlərinə 30 min nəfərlik sərhəd mühafizə xidməti təşkil etməsi proqramının iflas etdiyini, Ankaranın ciddi təpkilərinə səbəb olduğunu qeyd edən məqalədə Ağ Evin indi bu iki həssas durum arasında seçim etməyə çalışdığını qeyd edib. Ancaq eyni zamanda Suriyada savaş meydanı daraldıqca bu ölçünü saxlamanın da çətinləşdiyi, manevr imkanlarının tükəndiyi, seçim etmək məcburiyyətinin yarandığı qeyd olunur. İndi Vaşinqton qarşısında iki seçim var. Birincisi, ya kürd silahlılarına dəstəyini böyük ölçüdə azaldacaq, bununla da kürdlər qarşısında xəyanətkar kimi görünəcək və planları pozulacaq, ya da NATO müttəfiqi Türkiyə ilə qarşıdurmaya girəcək.

Hələliksə Vaşinqton ikisi arasında manevr edir. Həm Afrin əməliyyatını dəstəkləyir, həm də kürdlərə dəstəyini davam etdirir. Ancaq bu durumun nə qədər davam edəcəyi bilinmir. Çünki Afrin əməliyyatı davam edir və irəliləyən zamanda ABŞ-ın daha konkret mövqe sərgiləməsi lazım gələcək. Maraqlıdır ki, Pentaqon Suriyanın şərqindəki kürd qüvvələrinə Afrinə keçməməklə bağlı xəbərdarlıq edib. Çünki belə olarsa, əməliyyatın miqyası və şiddəti daha da böyüyə bilər. Mümkündür ki, amerikalılar yaxın günlərdə kürdləri fakt qarşısında qalaraq Afrindən vaz keçməyə razı salsınlar və bununla da müəyyən müddətə Türkiyənin də maraqlarının təmin olunması və Suriyada kürdlərin mövqelərinin əsas Raqqa bölgəsində qorunub saxlanmasına nail olsunlar.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 18 (6907) 25 yanvar 2018

# Rusiya bankirlərinin ABŞ-ı hədələməsinin pərdəarxası

## Şahin Cəfərli: “ABŞ-ın yeni sanksiya planı böyük narahatlıq yaradıb”

**Rusiya bankirlərindən ABŞ-a növbəti hədə gəlib. “Financial Times”ın yazdığına görə, “Sberbank”ın rəhbəri German Qrefin ardınca VTB-nin başçısı Andrey Kostin də ABŞ-ın tətbiq etdiyi sanksiyaların müharibəyə səbəb ola biləcəyi barədə xəbərdarlıq edib. O bildirib ki, ABŞ-ın Rusiya üzərinə bundan sonra da sanksiyalar qoyması “müharibə elan edilməsinə” bərabər sayıla bilər.**

**Andrei Kostin** deyib ki, ən böyük təhlükə Avropada çox sayda silahların konsentrasiya olunmasındadır. Onun fikrincə, belə bir hal NATO və Rusiya qüvvələri arasında toqquşmaya səbəb ola bilər: “NATO Avropada çox sayda silah toplayır və Rusiya heç şübhəsiz buna eyni şəkildə reaksiya verəcək. Bundan kim qazanacaq? Yalnız generallar və silah istehsalçıları. Amerika deyir ki, Avropa silahlanmaya indikindən çox xərcləməlidir. Bu, kimə lazımdır?”

Qeyd edək ki, ABŞ-ın Maliyyə Nazirliyi bu yaxınlarda Konqresə cənab Putinə yaxın olan oliqarx və “yarımdövlət biznes vahidlərinin” siyahısını təqdim etməlidir. Bu siyahı Rusiyaya qarşı növbəti sanksiyalar üçün baza rolunu oynayacaq.

“Financial Times” yazır ki, Rusiyanın dövlətin nəzarətində olan iki ən böyük bankı - VTB və Sberbank ABŞ-ın onları Swift beynəlxalq banklararası ödəniş sistemindən kənarlaşdıra biləcəyindən narahatdır.

**Kostin deyir:** “Düşünürəm ki, vəziyyət "soyuq müharibə" zamanında olduğundan daha təhlükəlidir. Məncə, Amerika odla oynayır, çünki münasibətlər pisdən betərə doğru gedir və buna görə məsuliyyəti biz daşımırıq. Bir-birinə yaxın məsafədə o qədər silah var ki. Nə desən baş verə bilər. - Kostin deyib, - Ola bilər, bu nüvə müharibəsi olmasın, amma bu bizim münasibətlərimizi daha da pisləşdirəcək. Suriyada, Baltikada və ya hazırda Amerika gəmilərinin üzdüyü Qara dənizdə bundan sonra nələrin baş verə biləcəyini kim bilir?..”(BBC)



**Politoloq Şahin Cəfərli hesab edir ki, Andrey Kostin müharibə ehtimalından bəhs edərək məsələni məqsədyönlü şəkildə həddən artıq şişirdib:** “Düşünürəm ki, cənab Kostin 29 yanvar 2018-ci il tarixi ərəfəsində ABŞ siyasi rəhbərliyinə, Tramp administrasiyasına mesaj göndərir ki, sanksiyalar məsələsində çox dərinə getməsinlər. Həmin tarixdə ABŞ hökuməti 2017-ci ilin iyulunda Konqresdə qəbul edilən və avqustun 2-də prezident Tramp tərəfindən imzalanan yeni sanksiya qanununa (CAATSA) uyğun olaraq Rusiya prezidenti Vladimir Putinə yaxın oliqarxların, iş adamlarının, özəl və dövlət sektorundakı bossların adlarının, eləcə də onların malik olduqları sərvətin və aktivlərin siyahısının qeyd olunacağı geniş hesabatı Konqresə təqdim edəcək. Konqresin isə bu siyahı əsasında həmin şəxslərə qarşı növbəti sanksiyaların tətbiqi barədə qanun qəbul edəcəyi gözlənilir. Əvvəlkilərdən fərqli olaraq, budəfəki sanksiyalar daha ağrılı olacaq. Çünki təkcə yuxarıda qeyd olunan kateqoriyaya aid fərdlərə yox, həm də onların ailə üzvlərinə qarşı sanksiyaların tətbiqi gözlənilir. Bunun səbəbi odur ki, həmin şəxslərin bir çoxu malik olduğu sərvəti ailə üzvlərinin adına keçirib, hətta bəziləri öz həyat yoldaşından rəsmən ayrılaraq sərvətini onun adına sənədləşdirib. Konqres sanksiya qanununu hazırlayarkən bu məsələni qabaqcadan nəzərə alıb. Bu səbəblə, yeni sanksiyalardan yayınmaq çox çətin olacaq”.

**Digər ağrılı məqam odur ki, sanksiya siyahısına düşəcək şəxslər dollar sistemindən təcrid ediləcək. Ş.Cəfərlinin sözlərinə görə, bu şəxslərin həm ABŞ-dakı aktivləri, mal varlıqları dondurulacaq, həm də onlar, ümumiyyətlə, ABŞ bank sistemindən istifadə edərək biznes aparmaq imkanından məhrum ediləcəklər:** “ABŞ bank sistemindən məhrum olmaq isə dolayısı ilə Avropa bank sistemindən, yəni avrozonadan da təcrid olunmaq deməkdir. Çünki əvvəla, Avropa bank sistemi ABŞ bank sistemi ilə əlaqəli şəkildə çalışır. İkincisi isə CAATSA *(Amerikanın düşmənlərini sanksiyalar vasitəsilə cəzalandırmaq)* qanununda göstərilir ki, ABŞ-ın sanksiya siyahısına düşəcək fərdlər və qurumlarla böyük biznes quran üçüncü tərəflər də sanksiyaya məruz qalacaq. Yeni sanksiya altındakı rusiyalılarla birgə iş görmək istəyən avropalılar da bundan çəkinmək məcburiyyətində qalacaqlar. Bu səbəblə, A.Kostinin narahatlığı başadüşüləndir”.

**Politoloq deyir ki, ABŞ Rusiyaya təzyiqləri getdikcə artırır:** “Obama dövründə əsası qoyulan bu siyasət Moskvanın gözləntilərinin əksinə olaraq, Tramp dövründə nəinki səngimədi və dayanmadı, tam əksinə, gücləndi və uzunmüddətli dövlət siyasəti halına gəldi. Məlum olduğu kimi, Tramp ötən ilin dekabrında yeni Milli Təhlükəsizlik Strategiyasını elan etdi. Həmin strategiyada Rusiya və Çin ”ABŞ-ın dəyərlərini və qlobal liderliyini sarsıtmaq istəyən rəqib dövlətlər" kimi təqdim olunur və onların bu təftişçi beynəlxalq fəaliyyətinə qarşı mübarizə aparılacağı bildirilir. Bu sənəd ABŞ-ın digər müvafiq institusional sənədləri üçün baza rolunu oynayır. Belə ki, Pentaqonun yeni Milli Müdafiə Strategiyasında son 15 ildə ilk dəfə olaraq terrorizm 1 saylı təhlükə kimi göstərilmədi və onun yerini başqa dövlətlərdən qaynaqlanan təhlükələr aldı. ABŞ-ın maraqlarına əsas təhlükə törədən dövlətlər kimi Rusiya, Çin, İran və Şimali Koreya qeyd olunub, terrorizm isə sıralamada beşincidir. Bu təhlükələrə qarşı ABŞ-ın öz ordusunu və NATO-nu daha da gücləndirəcəyi bildirilib. Trampa təqdim olunan yeni “Nüvə siyasətinin icmalı” layihəsində isə nüvə silahının hansı hallarda tətbiq olunacağı ilə bağlı yeni yanaşmalar əksini tapıb. Belə ki, daha əvvəl ABŞ-ın ona qarşı nüvə və ya kimyəvi-bakterioloji silahlarla hücum olacağı təqdirdə nüvə silahını tətbiq edəcəyi göstərildiyi halda, yeni sənəddə ABŞ-ın vacib infrastrukturuna *(elektrik, rabitə şəbəkələri və s.)* dağıdıcı kiberhücumlar ediləcəyi təqdirdə də buna nüvə zərbəsi ilə cavab veriləcəyi qeyd olunub. Bundan başqa, ABŞ məhdud dağıdıcı gücə malik nüvə başlıqları, sualtı və suüstü gəmilər üçün nüvə başlıqlarına malik yeni ballistik və qanadlı raketlər yaradacağını da elan edib. Az gücə malik nüvə başlıqları onların tətbiq olunması riskini artırır. Bütün bunları nəzərə alaraq Andrey Kostinin xəbərdarlığının əsaslı olduğunu düşünmək olar".

**Ş.Cəfərli onu da qeyd edir ki, “soyuq müharibə” dövründən də məlumdur ki, bu cür siyasət daha çox qarşı tərəfi çəkindirməyə və zəiflətməyə yönəlib:** “ABŞ Rusiyanın Gürcüstan və Ukraynaya hərbi müdaxilələrlə başlayan neoimperial, revanşist siyasətini və Qərbin hegemonluğuna əsaslanan mövcud dünya düzənini təftiş etmək cəhdlərini dayandırmaq, onu bu siyasətdən vaz keçirmək istəyir. Bütün bu kompleks addımlar - iqtisadi sanksiyalar, hərbi tədbirlər, NATO-nun Rusiya sərhədlərində öz hərbi infrastrukturunu qurması məhz bu məqsədin həyata keçirilməsinə yönəlib. Digər tərəfdən, Rusiyanı bu addımlara cavab verməyə, yeni silahlanma yarışına təhrik edərək onun öz məhdud resurslarını tükətməsi nəzərdə tutulub. Rusiyanın siyasi və biznes dairələri hadisələrin bu cür inkişafından çox narahatdır. Putinin növbəti 6 illik müddətə prezidentliyə davam qərarı verməsi bu baxımdan qeyri-müəyyənliyi xeyli artırıb. ABŞ Rusiyanın geri addım atdığını görmədən öz siyasətindən vaz keçməyəcək, Putin isə hələlik geri çəkilmək istəmir. Bu durum gərginliyi xeyli artırsa da, mən bu yeni "soyuq müharibə"nin qaynar mərhələyə keçəcəyinə inanmıram, çünki söhbət böyük nüvə arsenalına malik ciddi dövlətlərdən gedir".

❑ **Dünya SAKİT**
**“Yeni Müsavat”**

# Davos Forumunun Azərbaycan üçün əhəmiyyəti

## Vüqar Bayramov: “Ölkəmiz apardığı islahatları təqdim etmək üçün səmərəli imkanlar əldə edir”




**Dünyanın diqqəti yenə İsveçrənin kiçik bir kəndindədir. Bu kənddə dünyada Davos Forumu kimi tanınan beynəlxalq əhəmiyyətli tədbir keçirilir. Azərbaycanın dövlət başçısı də hər il olduğu kimi, forumun işinə qatılmaq üçün İsveçrəyə gedib, orada çoxsaylı görüşlər keçirməkdədir.**

Qeyd edək ki, Dünya İqtisadi Forumu (The World Economic Forum - WEF) 1970-ci illərdə akademik Klaus Schwab tərəfindən yaradılmış kiçik bir müzakirə qrupundan hazırda minlərlə iştirakçının qatıldığı dünya səviyyəli tədbirə çevrilib. Tədbirin iştirakçıları arasında yüzlərlə böyük şirkət rəhbərləri, onlarla dövlət başçısı, beynəlxalq QHT, media nümayəndələri var.

Dünya İqtisadi Forumu zamanı qeyri-rəsmi ikili görüşlər də ən azı rəsmi proqramdakı toplantılar qədər diqqət çəkir. Bundan əlavə, forum artıq sadəcə qlobal iqtisadi durumun müzakirə olunduğu və gələcəyə dair gözləntilərin dartışıldığı bir görüş olmaqdan çıxıb. Belə ki, gündəlik və operativ çıxış yolu gözləyən siyasi və sosial problemlər son illərdə daha çox diqqət çəkməyə başlayıb.

**İqtisadçı-ekspert, İqtisadi və Sosial Araşdırmalar Mərkəzinin rəhbəri Vüqar Bayramovun sözlərinə görə, Davos yeganə forumdur ki, dünyanın aparıcı liderlərini, dövlət və hökumət başçılarını, eləcə də aparıcı biznes qurumlarının rəhbərlərini, QHT və KİV təmsilçilərini bir araya yığa bilir:** “Bu baxımdan, Davos Forumu çox ciddi bir tədbirdir. Qlobal olaraq məsələlərin müzakirə oluna biləcəyi, dövlətlərin öz potensialını təqdim edə biləcəyi bir tribunadır”.

**Davos həm də Azərbaycanın yüksək önəm verdiyi azsaylı tədbirlərdən biridir:** “Azərbaycanın dövlət rəhbəri səviyyəsində təmsil olunması da göstərir ki, bu forum ölkəmiz üçün əhəmiyyətli tədbirdir. Postneft dövründə Azərbaycanın bir tədbirə qatılması daha çox lazımdır. Çünki ölkə iqtisadiyyatı investisiyalara ciddi ehtiyac duyur. Bu investisiyaları cəlb etmək üçün Davos İqtisadi Forumu, oradakı görüşlər, müzakirələr əlverişli platformadır. Eyni zamanda burada Azərbaycan apardığı islahatları təqdim etmək üçün səmərəli imkanlar əldə edir. Builki tədbirdə dövlət başçısı lazım olan mesajlarını ifadə edib”.

**Ekspert hesab edir ki, Azərbaycan da Davos Forumu üçün vacib tərəfdaşlardan biridir:** “Bir neçə il öncə Davos İqtisadi Forumunun regional forumunun Cənubi Qafqaz və Orta Asiyada ilk dəfə olaraq Azərbaycanda keçirilməsi göstərir ki, forum ölkəmizə ciddi tərəfdaş kimi yanaşır. Azərbaycanın da Davos kimi tribunaya ehtiyacı var. Azərbaycan orada öz potensialını, iştirakçılara təqdim edir. Düşünürəm ki, bütün bunlar qarşılıqlı əməkdaşlığın həm forum, həm də Azərbaycan üçün səmərəli olmasını göstərir”.

❑ **DÜNYA,**
**“Yeni Müsavat”**

**Qarabağ bölgəsində davam edən "nə hərb, nə sülh" vəziyyəti şübhəsiz ki, işğalın davamına, status-kvonun qorunub saxlanmasına xidmət edir. Hətta işğalçı Ermənistanın həyasızlığı o həddə çatıb ki, son vaxtlar İrəvan atəşkəsin pozulmasına görə Azərbaycanı ittiham edir. Ancaq yazılanlardan bəlli olur ki, qardaş Türkiyənin Afrin bölgəsində başlatdığı antiterror əməliyyatı isə düşməni narahat etməyə başlayıb. Birinci Qarabağ müharibəsinin veteranlarından biri, general-leytenant Yaşar Aydəmirov "Yeni Müsavat"ın suallarına cavab verib. Müsahibəni təqdim edirik:**

# "Döyüşlər hər an başlaya bilər, hazır olmalıyıq"

## General Yaşar Aydəmirov: "Qısamüddətli xarakterli müharibə olacaq, dəqiq və güclü zərbələrlə"

**- Cənab general, bir sıra ekspertlər hesab edir ki, Türkiyənin Afrin bölgəsində həyata keçirdiyi hərbi əməliyyatlar Azərbaycan üçün Qarabağda antiterror əməliyyatları aparmaq şansı yaradır. Peşəkar hərbçi olaraq bu barədə nə deyə bilərsiniz?**

- Türkiyə 80 milyonluq bir dövlətdir, dünyada güclü rolu var. Sözsüz ki, Azərbaycanın da özünəməxsus yeri var, ancaq Türkiyə qədər böyük dövlət deyil. Elə prezidentimiz də çıxışlarında iki dəfə deyib ki, iri dövlətlər Azərbaycanı müharibə eləməyə qoymur. Hansı ki, bizim ordu daha güclü, uğurlu hərbi əməliyyatlar apara bilər. Təbii ki, əgər böyük dövlətlər imkan versə...

**- Amma bu da var ki, Türkiyənin həyata keçirdiyi hərbi əməliyyatlar dediyiniz xarici qüvvələr üçün daha böyük təhlükə kəsb edir, nəinki Azərbaycanın öz ərazisində həyata keçirəcəyi əməliyyatlar...**

- Sözsüz ki. Amma Azərbaycan ordusu Qarabağı işğaldan azad edəndən sonra ölkəmizin atacağı növbəti addımlardan qorxurlar. Ona görə də Azərbaycanın böyüməsi həmin dövlətlərə sərf eləmir. Azərbaycan ancaq hazırkı ərazilərindən ibarət deyil ki.

**- Dediklərinizdən belə çıxır ki, Afrin təcrübəsi də bizimçün şans yaratmır?**

- Onu siyasətçilər bilər. Sözsüz ki, hərbçilər müəyyən təcrübəni öyrənəcək. Özü də tək bizim ordumuz yox, digər ordular da bu əməliyyatları təhlil edəcəklər. Ancaq siyasi tərəfi barədə bir söz deyə bilmərəm.

**- Türkiyə ordusu əvvəlcə kürd terrorçularının mövqelərinə nöqtəli zərbələr endirdi, ardınca quru əməliyyatlara başladı. Bu, Azərbaycan üçün Qarabağ əməliyyatında yaxşı bir təcrübə deyilmi?**

- Bəli. Türkiyə ordusunda dəqiq silahlar var. Həmçinin Azərbaycan ordusu dəqiq silahlara malikdir. Bu silahlar hədəfi dərhal məhv etmək gücündədir və hədəfdən yayınma mümkün deyil. Dəqiq kəşfiyyat aparan və sərrast atəşə malik silahlarımız var və özü də bunlar Türkiyə ordusundan da az deyil.



**"Qoy ermənilər Qarabağda yol çəksinlər, onsuz da o yol bizə lazım olacaq"**

**- Məlum oldu ki, Türkiyə ordusu 70 faiz daxili istehsal hesabına silahlanıb. Qərb dövlətlərinin faktiki olaraq silah sanksiyalarına məruz qalan Azərbaycan gələcəkdə qardaş ölkənin silah bazarına müraciət edə bilərmi?**

- Elə silahlar var ki, Türkiyə ordusu onları sata bilmir. Ancaq yüksək texnologiya ilə istehsal olunan silahlar bizdə də var. Həmçinin digər güclü dövlətlərdən də yeni texnologiyaya əsaslanan silahlar alırıq. Azərbaycan ordusunun 95 faizi dəqiq və müasir silahlarla təchiz edilib. Onların da müəyyən hissəsi ölkəmizdə istehsal olunur.

**- Bu günlərdə Azərbaycanın Rusiyadan hərbi texnikanın növbəti partiyasını alması Ermənistanı təşvişə salıb. Şimal qonşumuzla bu cür əməkdaşlıq halları Rusiyanın zərərsizləşdirilməsi baxımından ölkəmizin şansını artırırmı?**

- Rusiyanın zərərsizləşdirilməsi siyasi məsələdir. Ancaq Azərbaycan o silahları alır ki, Ermənistan tərəfin bunu almaq üçün vəsaitə malik deyil. Bunlar manevr qabiliyyətinə malik zirehli transportyorlardır, dağın zirvəsindəki və ya aşağıdakı hədəfləri də vura bilən ciddi silahlardır. Ermənistan o tipli silahların heç birini də almayıb.

**- Alınan yeni texnikanın cəbhə bölgəsində yerləşdiriləcəyi barədə məlumat yayıldı. Bu, düşmənə xəbərdarlıq sayıla bilərmi?**

- Sözsüz ki, düşmənə xəbərdarlıqdır.

**- 2018-ci ildə seçkilər keçirilməsi səbəbindən hərbi əməliyyatların olmayacağı iddiası daha çox səslənir. Hesab olunur ki, beynəlxalq güclər də bölgədə sakitliyin olması üçün çalışacaqlar. Döyüş təcrübəsi olan bir hərbçi olaraq bu proqnozları bölüşürsünüz?**

- Mənim fikrim belədir ki, döyüşlər hər an başlaya bilər. Ona görə də biz buna hər an hazır olmalıyıq. Müəyyən məsələlər var, yəqin ki, onlar da həllini tapacaq. Qısamüddətli xarakterli müharibə olacaq, dəqiq və güclü zərbələrlə. Ermənistan ordusu Azərbaycan ordusunun qarşısında uzun müddət dayana bilməyəcək.

**- Suriyadakı hədəfləri Xəzərdən vuran, bu ölkəni özünün təsir dairəsinə salmış şimal qonşumuz Türkiyənin hərbi əməliyyatlarına qarşı çıxmadı. Bəs Rusiya indiki halında əvvəlki illərdə olduğu kimi, Ermənistanın arxasında dayanacaqmı?**

- Açıq şəkildə heç kəs heç kimə kömək etməyəcək, ancaq gizli şəkildə kömək edə bilər. Söhbət tək Rusiyadan getmir, başqa dövlətlərdən də gedir.

**- Bu yaxınlarda mətbuatda belə bir xəbər yayıldı ki, ABŞ Ermənistan ordusuna snayperlər göndərib...**

- Məgər Azərbaycan snayperi amerikan snayperindən zəifdir? Azərbaycanın istehsal etdiyi snayper silahlarına, iriçaplı pulemyotlarına baxsınlar və onların daha da modernləşməsinə fikir versinlər.

**- Cənab general, bu ərəfədə Azərbaycan ərazisindəki ermənilər bölgədə tikinti işləri həyata keçirir. Hətta bu günlərdə Xankəndi-Drambon yolunun çəkilişinə başladıqlarını bildirdilər, hansı ki, həmin istiqamətdə 90-cı illərdə gərgin döyüşlər getmişdi, böyük itkilərimiz olmuşdu. Bir hərbçi olaraq bu kimi xəbərləri necə qarşılayırsınız?**

- Qoy ermənilər Qarabağda yol çəksinlər, onsuz da o yol bizə lazım olacaq. Azərbaycanın bu boyda ordusunun hərəkəti üçün bizə çoxlu yollar lazım olacaq. Azərbaycan ordusunun heç 30 faizinin Qarabağda hərəkət etməsi, yerləşməsi üçün yer yoxdur. Ermənilər tikirlərsə, tiksinlər. Bizimçün tikirlər də. Azərbaycan ərazisidir, hamısı yaxşı tanıdığımız yerlərdir. Torpaqları azad edəndən sonra ondan da yaxşı yollar salacağıq. Bununla erməni işğalçıları öz əhalisini aldatmaq istəyir.

**- Ermənilər özləri iddia edirlər ki, Qarabağdakı hərbçilər arasında ruh düşkünlüyü var...**

- Onlarda nə vaxt ruh yüksəkliyi olub ki? Hətta onların ən ali siyasi və hərbi rəhbərindən soruşsan ki, sən Qarabağ məsələsini öz xeyrinə həll etməyə inanırsan, onlar inanmadıqlarını deyəcəklər. Sadəcə olaraq, onlar kənardan idarə olunur.

**- Sizə də yaxşı məlum olduğu kimi, Qarabağın işğalı Azərbaycan daxilində qeyri-stabilliyin mövcud olduğu dövrə təsadüf etdi. Hazırda seçkiqabağı gərginlik içində olan Ermənistanda da gərginliyin gözlənilən olduğu deyilir. Azərbaycan belə gərginlikdən istifadə edə bilərmi?**

- Sözsüz ki, istifadə edə bilərik. İşğalçı ölkədə nə qədər qarışıqlıq çox olsa, bizim qələbə şansımız daha böyük olar. Şübhəsiz ki, qələbə şansımız həmişə var. Amma məsələn, üç gün ərzində həll edəcəyimiz məsələni belə bir vəziyyətdə bir gündə, həm də daha az qüvvə ilə reallaşdıra bilərik.

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

# Bizi öldürən marafon



**Xalid KAZIMLI**

**İnsanlar mediada, sosial şəbəkədə paylaşılan bəd xəbərləri oxuyub elə düşünə bilərlər ki, jurnalistlər ard-arda və çox gənc yaşda vəfat edirlər. Elə olmağına elədir. Amma gənc yaşda ürəkdən və başqa xəstəliklərdən vəfat edənlər təkcə jurnalistlər deyil.**

Sadəcə, bizim peşənin adamları mediada çalışırlar, sosial şəbəkədə fəaldırlar, itkiyə məruz qalanda bunu ictimailəşdirir, kədərli yazılar qələmə alırlar.

Eyni şeyi həmkarlarını, dostlarını gənc yaşda itirən sürücülər, qəssablar, müəllimlər, ticarətçilər, çilingərlər, idmançılar və sair peşə adamları edə bilmirlər.

Onların çoxu heç jurnalistlər qədər də bir-birini tanımırlar, mütəşəkkil halda deyillər və öz itkilərini ictimailəşdirmirlər.

Yoxsa gənc yaşda həyata vida etmək məsələsi bütün peşələrə xasdır. Bu, həyatın fitrətində var. Hamı sağ-salamat yaşlaşa bilmir, insanların bir qismi erkən yaşda dünyadan köçür.

Sadəcə, bu tendensiya son illərdə bir qədər pis tərəfə meyllənmiş kimi görünür.

İndi sayı artmış qəzalarda da qurban gedənlərin çoxu gənc adamlardır. Onların dərdi və statistikası tamam başqadır.

Xəstəliklərə gəlincə, son illərdə tibb çox inkişaf edib, hər dərdin dərmanı var, amma hər dəfə yeni-yeni illətlər meydana çıxır.

Xatırlayırsınızsa, bir neçə il qabaq bir neçə həmkarımız ağır xəstəliyə yoluxmuşdu, amma onlara sahib çıxanlar, müalicə etdirənlər oldu və indi həmkarlarımız sağ-salamat aramızdadır.

Nə yazıq ki, bəzən gizli xəstəliklər həmkarlarımızı, eləcə də vətəndaşlarımızı qəfildən, bir gecədə aparır və hamımız bu acı faktın qarşısında qalırıq.

Bir gün, bir saat əvvəldən bilinsəydi, onların həyatını xilas etmək olardı. Amma bilmək olmur.

Baxırıq ki, sapsağlam adamdır, yeyir-içir, deyir-gülür, planlar qurur, vədlər verir... və bir gecə xəbər gəlir ki, adam daha yoxdur.

Həyat sürətlənib, hamımız böyük bir marafon yarışına qoşulmuşuq, gecə-gündüz qaçaqovdayıq, yaşayış uğrunda mübarizədəyik. Əsəblər dözmür, əsəb dözəndə də orqanizm, ayrı-ayrı orqanlar bu gərginliyə, tempə tab gətirmir.

Bu ölkənin də taleyi belə gətirib. Hələ çox şeyi yerinə oturmayıb. Biz kütləvi şəkildə normal işləməyi bacarmadığımız kimi, normal yaşamağı da, istirahət etməyi, müayinə olunmağı da bacarmırıq. Bizim üçün əsas məsələ qoşulduğumuz yarışda axıra qalmamaq, autsayder olmamaqdır.

Son illərin tibbi statistikası ortaya dəhşətli bir fakt qoyub. Son on ildə vəfat edənlərin 57 faizi ürəkdən gedirmiş.

Siqaretin, spirtli içkilərin bərbad etdiyi orqanizmi hansısa bir yerdə toparlamaq, ziyanın yarısından qayıtmaq olur, amma ürəyi məhv edən nədirsə, biz onun qarşısını ala, diaqnozunu təyin edə, profilaktıkasını öyrənə bilmirik.

Kardioloq dostlar deyirlər ki, sağlam həyat tərzi keçirmək, özünü çox yormamaq, vaxtaşırı müayinə olunmaq, hər şeyə əsəbiləşməmək gərəkdir.

Hamısını etmək olar, tamahını basıb içməzsən, tütünün ziyanını anlayıb zərərli vərdişdən əl çəkərsən, "eybi yox, az qazanım, özümü öldürməyim" deyib az işləyərsən, vaxtaşırı "məni müayinə et" deyə həkim dostların zəhləsini də tökərsən, amma əsəbiləşməmək insanın öz əlində deyil axı.

Düzdür, hər şeyə əsəbiləşməmək olar. Lap adam özünü maksimum cilovlayar, çox şeyə də əsəbiləşməz. Amma insanlarla dolu basabas bir şəhərdə, çox şeyin öz qaydasında, normal halında olmadığı ölkədə, amansız qapışmanın, boğuşmanın getdiyi cəmiyyətdə, hər gün yeni-yeni təhlükələrin baş qaldırdığı, "icad edildiyi" dünyada əsəbləri qorumaq praktiki olaraq mümkün deyil.

Elə özünü cəmiyyətdən, dünyadan təcrid etmək də mümkünsüzdür. İnsan olan insan cəmiyyətində yaşamalıdır.

Kələfin çözümü də elə buradadır - insanlıqda. İnsan olan, insan kimi yaşamaq istəyən, bir-birinə problem yaratmayan, bir-birinə kömək olan insanlar bu problem həll edə bilərlər. İnsan cəmiyyətində yaşayaraq canavar xisləti ilə davrananda biri yol qəzasında gedir, biri məhəllə bıçaqlaşmasında ölür, biri xilası intiharda görür, bəzilərinin də ürəyi tablaşmır.

Bu marafonun sonunda həyat yoxdur.

Elə qədim dövrün məşhur marafonunda da mənzil başına çatan döyüşçü Filippud "qələbə qazandıq" xəbərini verərkən ürəyi tab gətirməmişdi. Bizimkilər isə heç qələbə xəbərini də verməyə macal tapmırlar.



# Xalqı ayağa qaldıran adamlar

Zamin HACI
zaminhaci@gmail.com

"Həqiqət üçün ən ağır zamanlar, hər şeyin həqiqətə oxşadığı zamanlardır"
*(Stanislav Yeji Lets)*

**Nemət müəllim vaxtilə uca millətimizi başına yığıb meydan hərəkatı qayırmışdı və nəticədə Topxanadakı armud ağacı cəhənnəm, Vəzirovun əkdiyi qozları da itirdik. İndi isə adam elmi kəşflər istiqamətində çalışır. Misal üçün, deyir bir dənə istilik sobası kəşf eləmişəm. Mən bunun videosuna baxdım. Demək, evin içində vedrədə suyu qaynadırsan, qalxan buxar da eşşək boyda bir müşəmbə (klyonka - qədim türk dilimizdə yazsam) içərisində yığılır. Təxminən evin içində parnik açmaq kimi bir zaddır. Bunu görəndə yadıma çoxdan oxuduğum ingilis yumoru düşdü: "Qışda dayımın evi yandı. Çox sevindim, çünki ilk dəfə idi o ev isti idi". Yəni indi Nemət müəllim də evin içinə su buxarı dolu nəhəng şar buraxmaqdansa bəlkə ocaq qalasa daha mükəmməl nəticə əldə edərdi. Əslində yaxşı edir, o boyda hoqqalara dözmüş millətin başında hansı ixtiranı sınaqdan çıxartsan halaldır. Turp əkirlər başımızda nə olur ki? Evimizdə parnik açsalar nə olacaq?**

Ancaq insafən millət üçün çalışan, vuruşan ziyalılarımız da çoxdur. Gərək insan yaxşı cəhətləri də görsün, yazsın. Həyat ağ-qara rənglərdən ibarət deyil, boz da var. *(Ermənistan boşalır, bunu özünüz məndən yaxşı bilirsiniz, yazmağa heç ehtiyac yoxdur. Ona görə yazmıram).* Həmin millət fədailərindən xüsusi qeyd edə bilərik Xaləddin müəllimi. Binəqədi vilayətinin icra başçısını. O qədər xalq üçün çalışır, hətta mənə elə gəlir Xaləddin müəllimin ismi-şərifini başburutuna yanlış həkk ediblər, yəqin onun adı Xalqəddin olmalıdır. Lakin buna qiymət verən varmı? Əksinə, paxıllıq edirlər. Ayağının altını qazırlar. Getdiyi yolda kanalizasiya lyukunun qapağını oğurlayırlar ki, icra başçısı çalaya düşsün, bunlar *(ya da rəhmətlik Nazim Nağıyev demişkən, "bınnar")* isə çirkin məqsədlərinə çatsınlar.

Haşiyə çıxaraq qeyd edim ki, son aylarda Binəqədi ərazisində kanalizasiya qapaqlarının oğurlanması kütləvi hal almışdır. Sanki bununla məşğul olan mütəşəkkil cinayətkar dəstə vardır. O boyda inkişaf gedib, pensiyaların baza hissəsi 3 manat, elektriklərin pulunun faza hissəsi 3 manat əlli qəpik, maaşların qoza hissəsi 4 manat, narkomanların doza hissəsi 5 manat artmışdır! Buna görə biz partiya və hökumətə minnətdarıq! Bəs bu tiplər lyuk qapaqlarını niyə oğurlayır? Məqsəd yalnız yuxarıda yazdığım kimi, Xaləddin müəllimə sui-qəsddir.

Özü də bu qapaqların yerinə camaat taxtadan dairəvi qapaqlar kəsib qoyur. Bəzi yerlərdə çalaya ağac əkirlər. Bəzi küçələrdə isə çaladan müasir işıq dirəyi çıxır, çalanın dibində də ora yıxılan gənclərin, ağsaqqal və ağbirçəklərin istirahəti məqsədiylə müasir skameykalar qoyulmuşdur.

Mövzumuz bu deyildi, haşiyə bir az geniş alındı, üzürlü sayın. Xaləddin müəllimin möhtəşəm fəaliyyətindən bəhs etməliydim. Son vaxtlar, xüsusən vergilər naziri dəyişəndən bəri camaatın Xaləddin müəllimdən şikayətləri artmışdır. Misal üçün, görürsən saytda başlıq atıblar: "Xaləddin İsgəndərov Biləcəri sakinlərini ayağa qaldırdı". Bəyəm bu pisdirmi? Qalxın, oturun. "Oturmayan erməndir" - yuxarıda adını çəkdiyimiz məlum personaj demişkən. İcra başçısı istəyir biz qalxaq, hərəkət edək, xolesterolumuz azalsın.

Ümumiyyətlə, Xaləddin müəllimin sayəsində Binəqədi zonasında idman növləri çox inkişaf edibdir. O, nəinki xalqı ayağa qaldırır, həmçinin qışda xalqı sürüşdürür, payızda xalqı üzdürür, yayda qaçdırır (avtobus dalıyca) və sairə. Təpələr də düzəldib - alpinizmi öyrənəsiniz deyə. Ancaq heç görün "Xaləddin İsgəndərov xalqı təpəyə dırmaşdırdı" başlığı qoyan varmı? Paxıllıq bizim evimizi yıxacaq.

Yenə xüsusi qeyd edirəm, hər başlığa çıxarılan sözə aldanıb təxribata uymaq olmaz. Bizim Qarabağ dərdimiz var. Elə vaxtilə Xaləddin müəllim "Təmiz Binəqədi" projesini elan edəndə camaat bunu səhv başa düşmüşdü, zənn edirdilər zibil maşını gəlib küçələri təmizləyəcəkdir. Halbuki burada millətin cibini təmizləmək nəzərdə tutulurdu. Proqram uğurla aparıldı, bu saat regionda ən təmiz ciblər Binəqədi sakinlərindədir.

# "Tezliklə o və bandası tarixin zibilliyində olacaq" - hədə




## Erməni lobbisi Sərkisyanı ifşa etdi: "Yalançı, narkoman və qumarbazdır!.."

### Erməni prezidenti ermənilər etirazla qarşıladı: "100-dən çox siyasi dustağı azad et!.."; Fransa işğalçı "kiçik bacı"sına qahmar çıxdı; **Makron:** "Daim yanınızda olacağıq!"; Fransanın xarici işlər naziri mayın 28-də, prezidenti isə oktyabrda İrəvana gedəcək - səbəb...

**Ermənistan prezidenti Serj Sərkisyan Fransaya səfər edib. Səfər çərçivəsində Fransa prezidenti Emmanuel Makronla görüşən işğalçı ölkənin başçısı dünən - yanvarın 24-də isə Strasburqda Avropa Şurası Parlament Assmbleyasının (AŞ PA) sessiyasında çıxış edib.**

"Yeni Müsavat" xarici qaynaqlara istinadən xəbər verir ki, Makron erməni həmkarı ilə görüşdən sonra keçirilən mətbuat konfransında Fransanın həmişə Ermənistanın yanında olacağını bəyan edib. O, Sərkisyanla görüşü "maraqlı" adlandırıb və əlavə edib ki, "Ermənistan Qərblə Şərq arasında stabil demokratik ölkə qurmaq üçün (?!-red.) uzun bir yol keçib".

*****

İşğalçı Ermənistanı həmişə özünə "kiçik bacı" sayan Fransanın indiki prezidentinin yuxarıdakı sözləri əslində təəccüblü deyil. Təəccüblü olan belə bir açıq-aşkar ermənipərəst dövlətin, erməni "soyqırımı" iddiasının ən güclü təbliğatçısının Dağlıq Qarabağ məsələsində qərəzsiz vasitəçiliyə iddia eləməsi, üstəlik, Rusiyanın vassalı və hərbi qalasa olan bir saxta dövləti gülünc şəkildə "stabil demokratik ölkə" adlandırmasıdır.

Bu da hamısı deyil. E.Makron daha sonra 2018-ci ili Ermənistan üçün "cümhuriyyət qurulmasının 100 illiyi" ilə bağlı mühüm il adlandırıb və deyib ki, mayın 28-də Fransanın xarici işlər naziri "ilk erməni respublikasının 100 illiyi tədbirlərinə qatılmaq üçün" İrəvana gedəcək. Makronun özü isə oktyabrda Ermənistana səfərə hazırlaşır.

Maraqlıdır, görəsən, Fransa XİN başçısı mayən 28-də Bakıya - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi törəninə də qatılacaqmı? Hələlik rəsmi Parisin bu yöndə hər hansı açıqlaması yoxdur. Bu yerdə xatırladaq ki, 2015-ci ildə bədnam erməni "genosidi" iddialarının 100 illiyi ilə bağlı İrəvan səfər eləmiş üç xarici ölkə prezidentlərindən biri məhz Fransa lideri Fransua Olland olmuşdu *(digər ikisi Rusiya və Serbiya prezidentləri idi)...*

*****

Qayıdaq əsas mövzuya və qeyd edək ki, bu, S.Sərkisyanın Avropaya prezident qismində son ziyarətidir. Yəni buna "vida səfəri" də demək mümkündür. Çünki martın 2-də onun ikinci müddətə prezidentlik səlahiyyətləri bitir və Ermənistanın yeni prezidenti seçilmələdir. Yəqin ki, təzə prezident Böyük Britaniyadakı səfir, keçmiş baş nazir və iş adamı Armen Sərkisyan olacaq. Ancaq 4-cü prezident yeni baş nazirdən az səlahiyyətlərə malik olacaq. Baş nazirliyə isə artıq bəllidir ki, Serj Sərkisyanın özü can atır.

"Yeni Müsavat" onun prezidentlikdən baş nazirliyə sıçrayış etməklə "Qarabağ klanı"nın hakimiyyətini uzatmaq istəməsinə Avropadakı erməni lobbisinin sərt reaksiyası, hətta hədələri haqda yazmışdı. Bu mövqe və təpki Serj Sərkisyanın Parisə və Strasburqa səfəri zamanı da özünü qabarıq şəkildə göstərib. Yeri gəlmişkən, erməni diasporunun Sərkisyana etirazlarını Makronun Ermənistanı "demokratik ölkə" adlandırması kimi qara zarafatına cavab da saymaq olar.

*****

"Biz Sərkisyanın bu səfərini reaksiyasız qoya bilməzdik. Biz artıq bununla bağlı Fransanın prezidentinə və KİV-lərinə, Fransa Senatına, Paris meri və AŞ PA-nın bütün vəzifəli şəxslərinə, Sərkisyanın görüşə biləcəyi şəxslərin hamısına açıq etiraz məktubu göndərmişik". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, 1 in.am erməni nəşrinə müsahibəsində "Erməni dirçəlişi" panerməni təşkilatının Paris şöbəsinin koordinatoru Şant Voskerçyan deyib.

**Məktubda deyilir:** "Biz bu görüşlərlə bağlı çox narahatıq. Ona görə ki, Ermənistan heç cür sovet epoxasından çıxa bilməyib və orada hər addımda insan haqları pozulur. Müxalifətin hansısa hərəkətlər eləməyə hüququ yoxdur. Cəmi 3 milyon əhalisi olan bir ölkədə 100-dən çox siyasi məhbusun olması anormaldır. Seçki yolu ilə prezident olmayan Ermənistan prezidenti Fransaya gəlir, onun prezidenti ilə, Senatın rəhbəri və digər vəzifəli şəxslərlə görüşür. Biz bunu cavabsız qoya bilmərik".

**Məktub-müraciətdə Serj Sərkisyanın bioqrafiyasına da yer ayrılıb. Bildirilir ki, o, seçki nəticəsində prezident olmayıb, konstitusiya dəyişikliklərini də o məqsədlə edib ki, "o, və onun bandası ölkənin sükanı arxasında əbədi qalsın".**

"Biz eyni işi AŞ PA-da gördük. Türkiyə və Azərbaycan nümayəndə heyətləri istisna olmaqla, AŞ PA-nın bütün xadimlərinə müraciət yolladıq ki, onlar da öz sualları ilə Serj Sərkisyanı heç olmasa, bir az reallıq hissinə qaytarsınlar... Sərkisyan böyük yalançı, narkoman və qumarbazdır. 25 ildir ölkədə seçkilər saxtalaşdırılır. Bu azmış kimi, son vaxtlar özünü göstərən bahalaşma sırf süni xarakter daşıyır və Serj və bandasının varlanmasına xidmət edir. Erməni xalqı bürün bunlara hələ də dözür. Nə vaxtadək? Bunlar xalqın səbir kasasını doldurmalı, insanlar küçəyə çıxmalıdırlar", - deyə o, xalqa çağırış edib.

**Erməni diaspor fəalı sonda Sərkisyanı hədələyib də:** "Əgər aprel ayında o, baş nazir postuna əyləşə və Londondan olan ələltısını *(Armen Sərkisyanı - red.)* prezident elәsə, bu, Ermənistanda böyük bir partlayışa gətirəcək. Həmin partlayış nəticəsində Serj və bandası tarixin zibilliyinə atılacaq".

*****

Bunun belə olub-olmayacağını, işğalçı ölkədə sosial-siyasi partlayışın baş verib-verməyəcəyini bilmək üçün isə çox gözləmək lazım gəlməyəcək. Şübhə yox ki, Ermənistanın ağası Rusiyanın mövqeyi və qərarından da az şey asılı olmayacaq...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# ABŞ və Rusiya generalları yenə Bakıda görüşəcək - detallar

## Zahid Oruc: "Azərbaycan prosesin gizliliyinə zəmanət verir"



**ABŞ silahlı qüvvələrinin generalı, NATO-nun Avropadakı birləşmiş qoşunlarının komandanı Kertis Skaparotti və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov yanvarın 26-da Bakıda görüşəcəklər. Virtualaz.org "The Wall Street Journal"a istinadən xəbər verir ki, generalların görüşündə Ukraynaya dair vəziyyət də müzakirə olunacaq. Hərçənd onların görüşünün bilavasitə səbəbi Ukrayna deyil. Həmin gün Dubayda Putinin xüsusi nümayəndəsi Vladislav Surkovla ABŞ-ın Ukrayna üzrə xüsusi nümayəndəsi Kurt Volker də görüşəcəklər. Onlar Ukraynanın şərqindəki münaqişənin dayandırılması üçün sülh planının bərpası barədə danışacaqlar.**

Generallar Skaparotti və Gerasimovun yanvar ayında Bakıda görüşəcəklərinə dair məlumatı bundan əvvəl "BuzzFeed" nəşri yaymışdı. Görüş barədə razılıq generallar arasında telefon danışığı zamanı əldə olunub. Gözlənilir ki, Skaparotti və Gerasimov Bakıda Azərbaycan hərbi-siyasi rəhbərliyi ilə ayrıca danışıqlar da keçirəcək.

Qeyd edək ki, ötən ilin fevralında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov və ABŞ Silahlı Qüvvələrinin qərargah rəisləri komitəsinin sədri Cozef Danfordun görüşü də Bakıda keçirilib. Sentyabrda isə Valeri Gerasimov Bakıda NATO Hərbi Komitəsinin rəhbəri Petr Pavellə görüşüb.

Sözügedən iki görüş üçün niyə məhz Bakının seçilməsinə gəlincə, hələ o zaman "Nyu York Times" qəzeti yazmışdı ki, məkanın seçimi asan olmayıb. Qəzet ABŞ hərbi rəsmilərinə istinadən yazırdı ki, Rusiya tərəfi C. Danfordun Rusiyanın paytaxtı Moskvaya, yaxud Belarusa gəlməsini təklif edib. Pentaqon isə görüşün Qərbi Avropada keçirilməsinə üstünlük verib. Lakin Avropa İttifaqının V. Gerasimov barəsində Avropaya səfəri qadağan edən sanksiyası olduğundan bu mümkün olmayıb. V. Gerasimovun Ukraynadakı hərbi müdaxilənin əsas fiqurlarından olduğu iddia edilir, sanksiya da bu səbəbdən tətbiq olunub. Nəticədə son olaraq görüş üçün Bakı neytral məkan kimi seçilib.

Bakıda ötən ilin 18 fevralında ABŞ və Rusiya baş qərargah rəislərinin görüşündən iki gün sonra isə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Avrasiyada əməkdaşlıq və problemlər məsələlərinə həsr olunan panel-müzakirədə çıxışı zamanı Azərbaycan prezidenti İlham Əliyev bildirmişdi ki, görüş üçün Bakının seçilməsi qərarı bizim deyildi. Biz bu qarşılıqlı əlaqənin təşəbbüskarı kimi çıxış etməmişik. Prezidentdən sitat: **"Bizə yaxınlaşaraq görüş üçün Bakının seçilməsinə razı olub-olmamağımız soruşulmuşdu. Biz dedik ki, əlbəttə, buna razıyıq. Bəs nəyə görə Azərbaycan seçildi? Mən bu sualı özümə verdim. Avrasiyanın xəritəsinə baxaraq gördüm ki, ola bilsin, Azərbaycan onların görüşə biləcəyi yeganə məkandır. Biz NATO-nun üzvü deyilik. Biz Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyilik. Biz güclü beynəlxalq nüfuza malik olan ölkəyik. Biz ABŞ, Avropa və qonşularımız, Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkəyik. Buna görə də artıq nəinki təkcə bizim regionda, həm də daha geniş miqyasda Azərbaycanın sabitləşdirici amil kimi rolu artacaqdır. Generallar ilk dəfə Bakıda görüşdü".**

2017-ci ilin sentyabr ayında keçirilən görüş barədə isə beynəlxalq münasibətlər üzrə amerikalı **ekspert Peter Tase** bildirmişdi ki, Bakıda Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov və NATO Hərbi Komitəsinin rəhbəri Petr Pavel ilə görüş Azərbaycanın sülh, xalqlar arasında dialoqa böyük töhfə verdiyini göstərir: **"Bakı son onilliklər ərzində iri çoxtərəfli müzakirələrin, razılaşmaların aparıldığı bir çox Avropa şəhərlərini xatırladır. Təəccüblü deyil ki, Azərbaycan iki dəfə ABŞ, NATO və Rusiya hərbi liderlərinin görüşünün məkanı seçilib. Son on ildə Azərbaycan öz balanslı siyasəti, iqtisadi inkişafı və yoxsulluqla uğurlu mübarizə siyasəti ilə seçilir. Özünün ərazisinin 20 faizi ermənilər tərəfindən işğal edilməsinə baxmayaraq Azərbaycan bütün dünyada sülh və stabillik tərəfdarıdır".**

NATO və Rusiya generallarının üçüncü görüşünün də Bakıda keçirilməsini, bir-biri ilə münasibətləri gərgin olan iki dünya gücünün bir il ərzində üçüncü dəfə görüş üçün Bakını seçməsini "Yeni Müsavat"a şərh edən **deputat Zahid Oruc** bildirdi ki, 2017-ci ilin əvvəllərində ABŞ və Rusiya generalları Bakıda görüşəndə bəziləri bunu təsadüf adlandıra bilərdilər. Lakin ondan sonra NATO-nun yüksək çinli nümayəndəsi ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin görüş üçün Bakını seçməsi, indi də yanvarın 26-da keçiriləcək görüş sübut edir ki, Azərbaycanın beynəlxalq məkanda etibarlı bir siyasi imici formalaşmaqdadır: "Birinci növbədə biz həqiqətən də müstəqil bir ölkəyik və biz Rusiya əleyhinə Avroatlantik məkanın barrikadasında, hərbi cəbhəsində yer almaqdan uzağıq. Həmçinin biz Rusiya cinahından Avroatlantik məkana qarşı döyüşmürük. Biz bölgədə müharibəni körükləyən ölkə deyilik. Azərbaycanın regional mövqeyi onu diplomatik siyasi paytaxta çevirir. Nə Ermənistanda, nə də Gürcüstanda belə görüşləri keçirmək mümkün deyil. Azərbaycan bu tədbirlər üzərindən birinci növbədə beynəlxalq sülhə və təhlükəsizliyə xeyir verməyə çalışır. Biz həm də burada seçilən mövzuların düzgün nəticə verməsində maraqlıyıq. Azərbaycan çox maraqlıdır ki, ABŞ və Rusiya Bakıda razılaşsınlar. Bizə bəllidir ki, indi keçirilən görüşdə seçilən əsas mövzu Yaxın Şərq məsələsi və Ukraynadır. NATO-nu narahat edən məsələlər var. Onlar bura gəlirlər ki, bu kimi ciddi məsələləri danışsınlar. Azərbaycan isə bağlı qapılar arxasında prosesin gizliliyinə zəmanət verir. Bu görüşün keçirilməsinə ciddi hazırlıqlar görülür. O biri yandan dövlətimizin başçısı sonradan hər iki tərəfi qəbul edir və bu tribunadan maksimum dərəcədə ölkəmizin mənafeyi üçün yararlanır. Lakin ən önəmli məsələ odur biz çox arzulayırıq ki, Bakıda kompromislər tapılsın və qərarlar beynəlxalq məkanda vəziyyətə təsir eləsin. Biz istəyirik ki, Bakıdan onlar nəticə ilə çıxsınlar. Bu yaxşı bir praktika yaradır".

Bir sıra ekspertlər isə hesab edir ki, Bakının növbəti dəfə qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçilməsi Azərbaycanın həm coğrafi mövqeyinə, həm də dövlətimizin yürütdüyü siyasətinin prioritetlərinə görə Şərqlə Qərb arasında körpü rolunu oynaması ilə bağlıdır. Azərbaycan dövlətinin təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri ölkəmizin bu statusunu daha da möhkəmləndirib. Belə mühüm görüşlərin Bakıda keçirilməsinin əsas səbəblərindən biri Azərbaycan liderinin şəxsi nüfuzu və dövlətimizin regional və qlobal proseslərdə aktiv rol alması ilə bağlıdır. Digər tərəfdən, Azərbaycanın həm Rusiya, həm də NATO ilə normal əməkdaşlıq münasibəti var. Ölkəmiz beynəlxalq sülhyaratma missiyalarında fəal iştirak edir və eyni zamanda heç bir hərbi-siyasi blokun üzvlüyünə can atmır. Ölkəmizin regionda və dünyada gedən proseslərə, münaqişələrin həllinə ayrı-ayrı güclərin deyil, beynəlxalq hüququn norma və prinsiplərindən yanaşması da qlobal güclərin seçiminə öz müsbət təsirini göstərir. Bu amillər də Bakının bir il ərzində üçüncü dəfə qlobal güclərin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçilməsində rol oynayır.

❑ **Etibar SEYİDAĞA,**
❑ **"Yeni Müsavat"**

# Demokratiyanın qaranlıq ili...



**Hüseynbala SƏLİMOV**

**Desəm ki, hazırda cəmi dünya insanlarını hər bir şeydən az demokratiyanın dərdi-səri maraqlandırır, bunu heç də ifrata varmaq kimi dəyərləndirməyin, - həqiqətən də belədir.**

Bir çox ölkələr var ki, demokratiya orada adi normadır və sapsağlam adamlar öz əzaları haqda nə qədər düşünürsə, əksəriyyət də demokratiya haqda o qədər düşünür və yalnız qeyri-ənənəvi sosial qruplar durumları ilə bağlı diskomfort keçirirlər.

Elə bir azca da təlaş doğuran da budur ki, demokratiyanın problemləri daha çox həmin qrupların qayğısına çevrilir.

Ölkələr də var ki, orada demokratiya heç yerli-dibli olmayıb, çünki onların insanları heç vaxt özlərinə əziyyət verib azadlıq-filan haqqında düşünməyiblər.

İnsanlarımızın demokratiyanın problemlərinə tamam etinasızlığını nəzərə alaraq belə bir "izah"la prinsipcə, kifayətlənmək olardı. Amma məsələ bir az da qəlizdir. İlk narahatlıqlar hələ neçə illər bundan əvvəl amerikalı politoloq F.Zəkəriyyənin "Azadlığın gələcəyi" əsərində əksini tapmışdı.

Buna qədər də fikirlər dolaşırdı ki, ikinci "soyuq savaş"ın bitməsi demokratiya müstəvisindəki beynəlxalq səyləri azaldacaq, çünki "soyuq savaş" dönəmində demokratiya və insan haqları həm də geopolitikanın bir instrumenti idi - C.Karter "insan haqları diplomatiyası"nı elan edəndə bəlkə çoxu bunun heç fərqinə varmamışdı, çünki o savaş həm də ideoloji savaş idi və insanlar yeni çağırışlarda iki ideologiyanın fərqini görürdü...

İndilikdə isə, ümumiyyətlə, götürəndə hətta azadlığa dəyər verən ölkələrdə də insanlar başqa tərəflərə meyllənməyə başlayıblar ki, bu, da bəzi beynəlxalq institutlar artıq bu ili demokratiya üçün qaranlıq il kimi səciyyələndirməyə təhrik edib.

Əslində, qeyd etdiyimiz kimi, həyəcan siqnalı bir azca da əvvəl duyulurdu, özü də uzaqda yox, Avropa ölkələrində baş verən proseslər təhlilçilərə yenidən millətçiliyin dirçəlməsini iddia etməyə əsas verirdi.

Söhbət də millətçilikdən yox, ksenofobiyadan, şovinizmdən və proteksionizmdən gedirdi ki, bunun sağlam millətçiliyə elə bir aiddiyatı yoxdur.

Bəli, sərhədləri qapamağa, başqalarını öz ölkələrindən qovmağa, hətta azad biznesi və ticarəti məhdudlaşdırmağa yönəlik çağırışlar - indi bunlar bir vaxt demokratiyanın qalası sayılan ABŞ-da və Avropada da duyulur.

Üstəlik, bu, bir qurp radikal millətçinin və anti-qlobalistlərin də çağırışları deyil, qeyd etdiyimiz ölkələrin siyasi spektrindəki çalarlar da getdikcə tündləşməyə meyllənir və daha çox ölkələrdə hakimiyyətə sağçı qüvvələr gəlməyə başlayır.

Ən çox təlaş doğuran bilirsinizmi, nədir? Başqa ölkələrdə "demokratiyanın axşamı" düşəndə biz, - keçmiş sovet ölkələrinin insanları lap zülmət gecələr yaşamalı oluruq. Baxın, bu il bir neçə əski sovet ölkəsində seçki keçirilməlidir və əlinizi ürəyinizin üstünə qoyaraq bir suala cavab verin: Rusiyadakı seçkilər də daxil olmaqla bu ölkələrdəki seçkilər sizə zərrə qədər maraqlı gəlirmi?

Bəli, Ukraynada nəsə maraqlı bir şey ola bilərdi, amma oliqarxlar M.Saakaşvilinin ətrafında elə tor qurublar ki, çətin, bir şey alınsın. O ki qaldı Ermənistana, demokratiya xəstə xalqlar üçün deyil və hayların yalnız və yalnız qeyri-avtoritar ölkələr üçün nəzərdə tutulan, istisnasız demokratik institut olan parlament respublikasına keçmək istəməsi bizdə ancaq gülüş doğurur...

Ona görə də demokratiya üçün doğrudan da qaranlıq çağlar başlayır. Daha bir məsələyə toxunmaq istərdik. Son bir neçə ayda iki azərbaycanlı vəkilin statusundan məhrum olunması haqda eşitdik.

Doğrusu, problemin təfərrüatlarını bilmirik. Amma hər iki vəkil, əgər belə demək mümkünsə, daha mürəkkəb və siyasi cəhətdən mübahisəli proseslərdə iştirakları ilə seçilirdilər. Ona görə də onların peşələrindən məhrum edilməsi istər -istəməz müəyyən şübhə yaradır və sual doğurur: Kollegiyanın qərarları izafi dərəcədə sərt deyilmi?

Bilirsinizmi, hüquq müdafiəsi, -istər bu, hüquq müdafiəçisi səviyyəsində olsun, istərsə də ki, vəkil, - çox mübahisəli və mürəkkəb prosesdir. Hər bir insanın, ən qatı cinayətkarın belə müdafiə olunmaq hüququ var və hüquq müdafiəçisi və yaxud da vəkil bu işi öhdəsinə götürürsə, bu, o demək deyil ki, onların müttəhimə simpatiyası var və ya onun baxışlarını bölüşürlər, ya da onun əməllərinə haqq qazandırırlar.

Vəkilləri aktyorlarla müqayisə edən, lağ edən böyük yazıçılar və rejissorlar çox olub. Tək F.Dostoyevskini xatırlamaq yetər - onun demək olar, bütün əsərlərində belə epizodlar var. Fəqət, razılaşaq ki, müstəqil və azad vəkillik institutu olmadan əsl məhkəmədən də danışmaq olmur...

YENİ MÜSAVAT
N 18 (6907) 25 yanvar 2018



# “Leş mafiyası” yenə iş başında

## 1 ton xəstə at əti satanlar tutuldu

**Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Qusar rayonunda mənşəyi məlum olmayan külli miqdarda ətin satıldığı barədə əməliyyat məlumatı daxil olub. DİN-in mətbuat xidmətindən verilən məlumata görə, baş idarə əməkdaşları tərəfindən həyata keçirilən təxirəsalınmaz əməliyyat tədbiri nəticəsində rayon sakinləri Rudik Haqverdiyev və Mehdi Mehdiyev 1 tona yaxın mənşəyi məlum olmayan əti satmaq istəyən zaman saxlanılıblar. Aşkar edilən ətdən götürülən nümunələr laborator müayinəyə göndərilib. Ekspert rəyi ilə müəyyən edilib ki, həmin ətlər xəstə və yaşlı at cəmdəklərinə məxsusdur. Həmçinin istifadəyə tam yararsız olmaqla bərabər insan sağlamlığı üçün ciddi təhlükə mənbəyidir.**

Saxlanılan şəxslər Qusar, eləcə də ətraf bölgələrdən əldə etdikləri xəstə atları kəsərək həmin ətlərin iribuynuzlu mal əti adı altında Bakı şəhərində satışını təşkil etmək istəyiblər. Saxlanılan şəxslərin yaşadıqları evlərin həyətyanı sahələrinə keçirilən baxış zamanı oradan atların kəsilmiş və iz itirmək məqsədilə torpağa basdırılmış hissələri, həmçinin iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar da aşkar olunub. Qeyd edilən faktla bağlı toplanmış materiallar prosessual qərar qəbul edilməsi üçün Baş İdarənin İstintaq Şöbəsinə göndərilib.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** “Yeni Müsavat”a deyib ki, rəhbərlik etdiyi qurum 20 ilə yaxındır ki, murdar heyvan ətlərini regionlardan yığıb Bakıya gətirən, həmin ətləri hara gəldi satan bir şəbəkəni ifşa etmək istəyir: “”Leş mafiya"sının vizit kartları, ünvanları belə bizdə var. Geniş şəbəkədir və 20 ilə yaxındır ki, fəaliyyətdədir. Murdar heyvan ətlərinin ticarəti ilə məşğuldurlar. 5 ildir ki, at-eşşək ətlərinin satışını da təşkil ediblər. Bu şəbəkə öz işindədir. Bunun çox ciddi səbəbləri var. Dövlət orqanlarının bu məsələyə münasibəti fərqlidir. Kənd Təsərrüfatı Nazirliyinin Baytarlıq Komitəsi belə ətləri müəyyən edəndə satanları 200 manat cərimə edir və deyir ki, gedin satın. Kənd Təsərrüfatı Nazirliyinin idarə rəisi ötən ilin ortalarında telekanallardan birində çıxış etdi, dedi ki, hər əti - at-eşşək ətini satmaq olar, bir şərt var ki, üzərində hansı heyvanın əti olması yazılmalıdır. Belə bir mövqe bazara at-eşşək ətini çıxarılmasının qarşısını almır, əksinə, belə ətlərin piştaxtalara daha artıq daşınmasına şərait yaradır. Azərbaycanda belə ətlərin istehlakı ənənəsi yoxdur, üstəlik, satılan ətlər murdar olmuş heyvanların ətləridir".

**E.Hüseynov deyir ki, hazırda at-eşşək əti satanlara qarşı ən uğurlu işi BMCMİ aparır:** “Murdar ətləri satanlara qarşı kəsərli tədbirlər görürlər, müsadirə edilən ətləri ekspertizaya göndərirlər. Murdar ət ticarətçilərini təcrid edirlər, məhkəməyə verirlər, cərimə edirlər. Bu qurumdan başqa murdar ət ticarətçilərinə qarşı effektiv iş görən yoxdur. Təklif edirəm ki, qida təhlükəsizliyi sahəsində məsələlər Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsinə tapşırılsın”.

**AİB sədri ötən ilin fevralında yaradılan Qida Təhlükəsizliyi Agentliyindən gözləntiləri haqda bunları deyib:** “Bu gün (dünən-red.) onlarla əlaqə saxladım. Telefonları işləmir, bir balaca uşaq cavab verir. Saytları açılmır. Bundan əvvəl agentliyə dəfələrlə məktub yazıb təkliflərimi vermişəm. Bu sahədə durumu yaxşılaşdırmaq üçün təmənnasız köməyimi təklif etmişəm. Heç bir reaksiya verilməyib. Dəfələrlə demişəm, əgər bu qurum da qohum-qardaş üçün iş yerinə çeviriləcəksə, onlardan heç nə gözləməyək”.

**E.Hüseynov deyir ki, murdar ət satışının qarşısının alınmamasının səbəbi tələb yaradanların müəyyən olunmamasıdır:** “Yəni tonlarla murdar ət müəyyən olunur. Amma həmin ətin sahiblərindən soruşan yoxdur ki, sən bu murdar əti hara, kimə aparırdın. Ətin tələbkarı, sifarişçisinə qədər gedib çıxmırlar. Çıxırlarsa da, həmin şəxsləri ortaya çıxarmırlar. 5 il əvvəl Bakıda həmin ətləri satanları, alanları ifşa etmək üçün bazara getdim. Müəyyən etdim və dövlət orqanlarını bir yerə yığıb həmin əraziyə getmələrini təşkil etmək istədim. Biri dedi ki, ora getməyə icazəmiz yoxdur, o biri iş saatının bitdiyini bəhanə elədi, getmədilər. Düşünürəm ki, murdar ət ticarətinin qarşısını Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsi ala bilər və bu məsələ həmin idarəyə həvalə olunmalıdır”.

E.Hüseynov Qida Təhlükəsizliyi Agentliyinin Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə Baş İdarəsi ilə birləşdirilməsi, birgə faəliyyət göstərməsinin səmərə verəcəyini düşünür.

**AİB sədri metro stansiyalarının çıxışında satılan növbənöv kolbasa məhsullarının murdar ətlərdən istehsal edildiyini istisna etmir:** “Tonlarla at-eşşək əti bəs hara gedir? Uşaq bağçalarına, xəstəxanalara belə təhlükəli ətlər gedib çıxa bilir. Çünki heç bir nəzarət yoxdur”.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yenì Müsavat**

# Neft emalı zavodları paytaxt kənarlarına nə zaman köçürüləcək...





**“Mirvari Qəhrəmanlı:** “Oralarda yaşayanlar arasında ürək, xərçəng xəstəliklərindən ölənlər çoxdur”
**İlham Şaban:** “Yeni zavod üçün pul tapılmaması fikrini qəbul etmirəm”

**Bakı şəhərində neft emalı zavodunun yaxınlığında yaşayan sakinlərin həm həyatı, həm də sağlamlığı təhlükə altındadır. Zavodun ərazisində, hətta müxtəlif qurğuların yaxınlığında evlər tikilib, 10 minlərlə insan yaşayır. Həmin ərazilərdə yaşayan sakinlərin redkasiyamıza verdiyi məlumata görə, zavod qurğularından qalxan tüstü, müxətlif iy-qoxuları hər gün hiss edirlər. Bəzən belə qoxular günlərlə havada qalaraq, insanları narahat edir.**

Xatırladaq ki, 2009-cu ildə prezident İlham Əliyevin sərəncamına əsasən ölkədə yeni Neft, Qaz emalı və Neft-kimya Kompleksinin inşası ilə komissiya yaradılıb. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən hazırlanmış təkliflər paketini hökumət təsdiqləyib. Yeni kompleksin 2018-2020-ci illərdə istifadəyə verilməsi nəzərdə tutulurdu. Kompleksin tərkibinə Qaz Emalı Zavodu (ildə 10 mlrd. kubmetr istehsal gücü), Neft Emalı Zavodu (ildə 10 mln. ton istehsal gücü), Neft Kimya Zavodu (ildə 1,8 mln. ton hazır məhsul), Enerji Bloku və s. yardımçı infrastruktur daxil olacaqdı. Kompleksin istismara verilməsi ilə Bakı və Sumqayıt şəhərlərində yerləşən qaz emalı, neft emalı və neft-kimya sahələri üzrə köhnə istehsal güclərinin istismardan çıxarılması nəzərdə tutulurdu.

Kompleksin maliyyələşdirilməsində Dövlət Neft Fondunun da iştirakı planlaşdırılırdı. Belə ki, layihənin maliyyələşdirilməsinin 30 faizinin səhm kapitalı, 70 faizinin borc kapitalı hesabına aparılması, səhm kapitalının isə 90 faizinin Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuşdu. Hətta Neft Fondunun 2014-cü il büdcəsindən layihənin maliyyələşdirilməsi üçün 285 milyon manatın ayrılması planlaşdırılırdı.

Lakin sonradan neft emalı zavodunun tikintisi planı təxirə salındı. Belə ki, neftin dünya bazar qiymətinin ucuzlaşması bu layihənin qrafikinə ciddi təsir göstərdi. 2014-cü ildə məlum oldu ki, neft emalı zavodu bu layihənin ikinci mərhələsində inşa ediləcək və 2032-ci ildə istismara veriləcək. SOCAR-ın strateji inkişaf üzrə vitse-prezidenti, OGPC-nin direktoru Tofiq Qəhrəmanovun mətbuata verdiyi məlumata görə, respublikanın neft məhsullarına olan tələbatının təmin olunmasının vacibliyi və qlobal neft-qaz layihələrinin reallaşdırılmasına böyük həcmdə investisiyaların yatırılması nəzərə alınaraq, neft emalı zavodunun tikintisinin iş qrafikinə dəyişiklik edilməsinə dair qərar qəbul olunub. T.Qəhrəmanov bildirib ki, həmçinin Azərbaycanda yanacağa olan tələbatın təmin edilməsi çərçivəsində Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun yenidən qurulması, eləcə də onun daha 15 il ərzində öz işini davam etdirməsi haqqında qərar qəbul edilib. SOCAR rəsmisi deyib ki, zavodun modernizasiyası prosesində 14 yeni qurğunun tikilib istifadəyə verilməsi nəzərdə tutulub. Göründüyü kimi, yaxın onillikdə nəinki zavodun bağlanması gözlənilmir, əksinə, istehsal gücü daha da artırılır.

**Hüquq müdafiəçisi, Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı deyir ki, əvvəllər Xətai rayonunda UPD, NZS, Keşlə, 8-ci kilometr qəsəbələri, Nizami rayonunun əksər ərazilərində yaşayış çox az olub:** “Sonralar o pul-rüşvət hesabına oralarda tikintilər çoxaldı. İndi o qədər insan yaşayır ki... Köhnə neft çənləri evlərin əhatəsində qalıb. O ərazidə yaşayanlar arasında ürək-damar, xərçəng xəstəliyindən ölüm halları hədsiz çoxalıb. Uşaqlar arasında viruslu xəstəliklər geniş yayılıb”.

**Komitə sədrinin sözlərinə görə, zavod yaxınlığında, həmçinin Balaxanıda, Suraxanıda, Bibiheybət və digər neft istehsalı ərazilərində yaşayan insanların sağlamlığına böyük zərər dəyir:** “Bizim monitorinqlərimiz olub dəfələrlə. Elə yerlər var ki, balaca uşaqlar neft ”kaçalkaları"nın üstünə çıxıb oynayırlar. Neftayırma zavodunun fakellərindən nə qədər zərərli tullantılar atılır ətrafa. 90-cı illərin sonlarında Bibiheybətdən neftli ərazilərdən əhalinin köçürülməsi planı hazırlanmışdı, amma yaddan çıxdı".

**M.Qəhrəmanlı hökumətin köçürmə siyasətinin anlaşılan olmadığı qənaətindədir:** “Bütün Bakı ərazisində müxtəlif yerlərdən əhalini köçürürlər. ”Sovetski"ni, xruşşovkaları, Xutoru sökürlər. Mən anlaya bilmirəm ki, hökumət həyat və sağlamlıq üçün təhlükəli olan əraziləri qoyub niyə elə yerlərdən əhalini köçürür? İnsanların həyatı, sağlamlığı böyük təhlükə altındadır".

**Komitə sədri maraqlı bir məlumat da açıqladı ki, bir neçə ay əvvəl UPD, NZS tərəfdə gecə saatlarında havada xoşagəlməz qoxu yayılıb:** “Mən yazandan sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi gedib zavodu yoxlayıb cərimələdi. Həmin vaxt məlumat yayılmışdı ki, guya Qazaxıstandan gətirilən kükürdlü neft emal olunanda elə kəskin qoxu yayılır. Bu məlumatın nə qədər dəqiq olduğunu, təəssüf ki, deyə bilməyəcəm”.

**Neft sektoru üzrə ekspert, Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın sözlərinə görə, Bakı şəhərində 2 neft emalı zavodu(NEZ) var:** “Ən qədimi ”Azərneftyağ"dır - N qədər modernləşdirmə ilə 1880-ci illərdən fəaliyyət göstərir və Bakı buxtası sahilində Qara şəhərdə, keçmiş Rus İmperisyasının da ən böyük neft emalı müəssisəsi olub vaxtilə. Sovet zamanı da 8 milyon tona qədər neft emalı gücü olub, ancaq son illər orada 1-1,5 milyon ton neft emal edilir. Burada əsasən yağlar istehsal edilib - yəni ağır fraksiyalar. İkinci neft emalı müəssisəmiz indi H.Əliyev adına adlandırılan NEZ-dir. O, 1953-cü ildə tikilib. 1983-cü ildə modernizasiya edilib və 2015-ci ildən əsaslı şəkildə yenidən qurulur. “Azərnetyağ”da hazırda ancaq bitum qurğusu fəaliyyət göstərir. H.Əliyev adına NEZ-də yeni bitum qurğusu tikilib istifadəyə verildikdən sonra bu zavod bir müddət işləyib və 2019-da demontaj olunmalıdır. Çox düzgün qərardır, çünki şəhərin həm ekologiyasını korlayır, həm də görkəmini".

**İ.Şaban hesab edir ki, Azərbaycan hökuməti 2010-cu ildə Qaradağda yeni neft emalı müəssisəsi tikilməsi layihəsi üzərində israrlı olmalıydı:** “Hökumət «Koroğlu» metrosundan başlayaraq Keşlə qəsəbəsinə qədər böyük bir ərazidə uzanan və şəhərin artıq mərkəzindəı yerləşən ikinci NEZ-i də köçürməkdə iradəsini göstərməliydi. Ancaq təsəvvür edin ki, bu zavodu 2 milyard dollara yaxın bir vəsaitlə 5 ilə böyük əzab-əziyyət hesabına yenidən quracaqlar və 20 il bu modernizasiyadan sonra şəhərin mərkəzində onun yerini dəyişmək iqtisadi baxımdan artıq əlverişli olmayacaq. Bu müddətdə yeni bir nəsil yetişməli olacaq. Halbuki həm kreditlər, həm də neft fondunun və ilk dəfə olaraq Azərbaycan xalqının özünün birbaşa yatırımları hesabına *(bu NEZ-in 25 faiz səhmləri Bakı birjasına çıxarıla bilərdi və SOCAR-ın istiqrazları kimi hər bir vətəndaşa 1 ədəd olmaqla satıla bilərdi - yəni variant kimi deyirəm).* Yəni hökumətin ”vəsait olmadığından biz bunu edə bilmədik" deyimi ilə mən heç də razı deyiləm".

❑ **Dünya SAKİT,**
**“Yenì Müsavat”**



# Qarabağdakı antiterror əməliyyatları Ermənistan ərazisində davam edə bilər

## Türkiyənin Afrin əməliyyatı Azərbaycana ideal fürsət verir; **Ermənistan xofda:** "Bakı və Ankara Qarabağda "ildırımsürətli" əməliyyata əl atacaqlar"; azərbaycanlı ekspertlər deyir ki...

**Türkiyənin Suriyanın Afrin bölgəsində uğurlu antiterror əməliyyatı aparması onun dostlarını sevindirib, düşmənlərini isə ciddi şəkildə təşvişə salıb. Ankara birmənalı şəkildə bəyan edib ki, onun başqa ölkənin torpağında gözü yoxdur, sadəcə PKK, PYD, İŞİD və digər qanlı hörgütləri silahlandırıb Türkiyənin də təhlükəsizliyini təhdid edənləri yerində oturtmaq niyyətindədir.**

Türkiyənin qonşu ölkənin ərazisində həyata keçirdiyi hərbi əməliyyatlara ABŞ başda olmaqla, dünyanın bir sıra aparıcı ölkələrinin etirazları, hətta terrorçulara silah yardımı olsa belə, Ankara mövqeyindən geri çəkilmədi və əməliyyatları davam etdirməkdə israrlıdır. Qardaş ölkənin bu prinsipiallığı sonrakı günlərdə həmin qüvvələri geri çəkilməyə vadar etdi. Artıq NATO başda olmaqla, beynəlxalq təşkilatlar da Türkiyənin antiterror əməliyyatlarına dəstək verir.

Belə olan halda bir çoxları hesab edir ki, Afrin əməliyyatları Azərbaycan üçün həm də bir sınaq testi və Ermənistanın işğalçı qüvvələrinə qarşı hərbi əməliyyatlara başlamaq üçün şansın yaranması deməkdir. Məntiqlə əgər dünya gücləri Türkiyənin ölkə xaricində həyata keçirdiyi antiterror əməliyyatını dayandırmağa nail ola bilmədisə - sözsüz ki, ölkə vətəndaşlarına daim təhdid yaradan PKK tör-töküntülərinə qarşı mübarizə aparmaq qardaş ölkənin haqqıdır, ancaq ədalətsiz dünyanın reallıqları da var, terrorçulara dəstək verilməsi faktdır - deməli, Azərbaycan öz sərhədləri daxilində erməni terrorçularına qarşı əməliyyatlar keçirmək hüququnu reallaşdırmaq istəsə, beynəlxalq hüquqa istinad edəcək və kimsə buna qarşı çıxa bilməyəcək.

Son günlər təmas xətti boyunca ermənilərin təxribatlarının artması, ordumuzun şəhid verməsi də Azərbaycana əlavə arqumentlər verir. Hətta XİN başçılarının son görüşündən sonra düşmən təxribatları ara vermədi, deməli, yeganə yol hərbi əməliyyatlardır. Bu günlərdə orduya cavabdeh şəxslərin cəbhə bölgəsinə səfərləri də düşməni narahat edir. Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən prezidentin hüquq - mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi Fuad Ələsgərov və müdafiə naziri Zakir Həsənov cəbhəboyu zonada yerləşən hərbi hissələrdə olub. Müdafiə Nazirliyi xəbər verir ki, səfər zamanı qoşunların döyüş hazırlığının vəziyyəti, şəxsi heyətin xidməti və sosial-məişət şəraiti yoxlanılıb, eləcə də hərbi qulluqçularla söhbətlər aparılıb, birgə nahar təşkil olunub.

Üstəlik, bu yaxınlarda Rusiyadan alınan hərbi texnikanın növbəti partiyasının cəbhə bölgəsinə göndərilməsi işğalçı ölkənin rahatlığını pozub. Düşmən ölkə Rusiya-Azərbaycan hərbi əlaqələrinin dərinləşməsindən havalanıb. Azərbaycan prezidentinin son açıqlamaları isə işğalçı ölkədə şok effekti yaradıb.

**"Rusiya ilə hərbi-texniki əməkdaşlığa dair yeni sazişlər üzrə danışıqlar aparırıq. Bu istiqamətdə heç bir məhdudiyyət görmürük". Bunu "RİA Novosti"yə müsahibəsində Azərbaycan prezidenti İlham Əliyev Davosda bəyan edib. "Bu, daim diqqət mərkəzimizdə olan prosesdir. Hazırda danışıqlar davam edir. Siz daha yaxşı bilirsiniz ki, Rusiyanın hərbi sənayesi inkişaf edir, yeni müasir silahlar yaranır", - deyə o vurğulayıb. Dövlət başçısı bu istiqamətdə Rusiya ilə əməkdaşlığı məhsuldar adlandırıb. Həmçinin qeyd edib ki, Azərbaycanın Rusiya ilə imzaladığı sazişlərin əksəriyyəti icra olunub. Artıq silahların alındığını deyən İ. Əliyev əməkdaşlıq üzrə gələcək planlar üzərində işin davam etdiriləcəyini bildirib.**

Azərbaycanın Rusiya ilə hərbi sahədə də geniş əlaqələr qurması, şimal qonşumuzun silah bazarına böyük vəsaitlər ödəməsi Kremlin maraqlarına cavab verir. Bu, o deməkdir ki, ölkəmizlə əlaqələrin qorunub-saxlanmasına Rusiya daha çox üstünlük verməlidir. O halda Azərbaycanın hərbi qüvvələrinin işğalçı Ermənistan ordusuna sarsıdıcı zərbələr endirilməsinə Moskvanın ən azı loyal münasibət göstərməsi gözləniləndir. Ermənilər də bu vəziyyətə görə çox narahatdırlar.

**Türkiyənin Afrində həyata keçirdiyi uğurlu antiterror əməliyyatının dalğasının Dağlıq Qarabağa da çatacağı ehtimalı Ermənistanı qorxuya salıb. Publik.az xəbər verir ki, Ermənistan milli elmlər akademiyasının şərqşünaslıq institutunun direktoru, politoloq Ruben Safrastyan Afrin əməliyyatının İrəvan üçün təhlükəli nəticələrə səbəb ola biləcəyini düşünür. Onun sözlərinə görə, Türkiyənin güclü iradə ilə atdığı addımlar təkcə Yaxın Şərq regionu üçün yox, qonşu ölkələr, xüsusilə Ermənistan üçün yaxşı gələcək vəd etmir:** "Bizim üçün baş verənlər kontekstində Qarabağda hadisələrin necə inkişaf edəcəyi əhəmiyyətlidir. Suriyadakı münaqişənin Qarabağ münaqişəsi ilə düz xətt üzrə əlaqəsi yoxdur. Lakin ortada Türkiyənin gücü və bu gün ortaya qoyduğu iradə var. Bu baxımdan, hadisələrin Cənubi Qafqaza qədər gəlib çıxa biləcəyi ehtimalı mövcuddur".

**Erməni politoloq arzu edir ki, Türkiyə Suriyada məğlub olsun.** "Əgər Türkiyə qalib gələrsə, bu, Dağlıq Qarabağda vəziyyətin Ermənistanın əleyhinə dəyişəcəyi ilə nəticələnəcək. Çünki bölgədə güclənən Türkiyə Azərbaycanla birləşərək, Qarabağ məsələsinin tezliklə həllini tələb edəcək. Nəzərə almalıyıq ki, bu gün Azərbaycan özlüyündə güclüdür. Lakin Türkiyənin güclənməsi Rusiyanın və digər böyük ölkələrin də Ermənistanın əksinə olan cəbhədə yer almasına səbəb ola bilər. Biz o təhlükəni istisna etməməliyik ki, Bakı və Ankara Qarabağda "ildırımsürətli" əməliyyata əl atacaqlar", - deyə o bildirib.

Ermənistan daxilində hökm sürən seçkiqabağı ictimai-siyasi gərginlik də işğalçı ölkənin durumunu xeyli ağırlaşdırmaqdadır. Məlumata görə, erməni oliqarxlar hakim Respublika Partiyasının Ermənistan prezidenti vəzifəsinə Armen Sərkisyanın namizədliyini irəli sürməsinə qarşı çıxmaq istəyirlər. "Trend"in məlumatına görə, bir sıra oliqarxlar Ermənistanın biznes həyatında A.Sarkisyanın simasında yeni rəqibin peyda olacağından narahatdırlar. Onların fikrincə, A.Sarkisyan biznesin bəzi sahələrini ələ keçirməyə çalışacaq. Erməni KİV-lərinin yazdığına görə, yaxın zamanlarda A.Sərkisyanı etibardan salacaq məlumatlar yayıla bilər ki, bu da onu prezidentlik iddialarından əl çəkməyə vadar edə bilər.

Bütün bu mənzərə, üstəlik, Qarabağdakı erməni hərbçilərinin ruh düşkünlüyündə olması, Azərbaycan ordusunda isə hökm sürən ruh yüksəkliyi düşmənə qısamüddətdə sarsıdıcı zərbələr vurmağımızı mümkün edir. Qısa müddətdə işğalçıya zərbələr endirilməsi həm də o deməkdir ki, beynəlxalq aləm Azərbaycana təsir göstərməyə fürsət belə tapa bilməyəcək.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Qarabağda antiterror əməliyyatlarının keçirilməsi həmişə mümkündür:** "Azərbaycan dəfələrlə beynəlxalq təşkilatlara işğal altında olan ərazilərimizdə terror qruplarının təlim bazasının olduğu, həmçinin burada narkotik bitkilərin becərildiyi barədə hesabatlar təqdim edib. Digər tərəfdən, Azərbaycan əraziləri işğal altındadır və həmin ərazilərdə insanlıq əleyhinə cinayət törədən şəxslərdən ibarət qanunsuz rejim fəaliyyət göstərir".

**PKK-çıların Dağlıq Qarabağa köçü məsələsinə gəldikdə isə, E.Mirzəbəyli dedi ki, bunun bir sıra ideoloji əsasları da var:** "Bəzi erməni terror təşkilatları ilə PKK arasında əlaqə hər zaman olub. Onlar oxşar ideoloji platforma əsasında fəaliyyət göstəriblər. Daha doğrusu, radikal sol ideoloji platformaların arxasında öz gerçək terrorçu simalarını gizlətməyə çalışıblar. Məsələn, 1887-ci ildə Cenevrədə elan olunan QNÇAK sol platforma üzərində yaradılıb və faktiki olaraq həm Avropada, həm də Türkiyədə təxribatçı əməllərlə, terroru dəstəkləməklə məşğul olub. QNÇAK erməni diasporunun təşkilatıdır və bu gün də mövcudluğunu qoruyub saxlayır. Erməni inqilabi federasiyası - Daşnaksütyun Partiyası sol inqilabi platforma üzərində yaradılıb, amma təməlində separatizm və millətçilik dayanıb. Bu partiyanın tarix boyu türklərə nifrət körüklədiyi, soyqırımda, terrorda əli olduğu hər kəsə bəllidir. Onu da qeyd edim ki, erməni terror təşkilatı ASALA da sol radikal qrup hesab olunur. Göründüyü kimi, həm PKK, həm də onun tör-töküntüləri ilə ermənilərin separatçı-terrorçu qrupları eyni ideoloji xətt üzərində fəaliyyət göstəriblər və bu proses indi də davam edir. Bu baxımdan, PKK ilə erməni terror təşkilatlarının yaxın əlaqəsində təəccüblü heç nə yoxdur".

**Politoloq erməni və kürd terrorunun ortaq maraqlarına da diqqət çəkdi:** "Nəzərə almaq lazımdır ki, bu terror təşkilatlarının əsas məqsədi türk dövlətçiliyini süquta uğratmaq, türklərin izini bu regiondan silməkdən ibarət olub. Bu məsələnin tarixi tərəfi. Bu günə gəldikdə isə dünya birliyinin Afrinlə bağlı mövqeyini presedent kimi qəbul etmək doğru olmazdı. Əslində bu gün terrorizmə və aqressiv separatizmə qarşı mübarizəni əsaslandıran ən böyük fakt Dağlıq Qarabağda baş verib. Amma göründüyü kimi, bizim beynəlxalq birlik adlandırdığımız, lakin ayrı-ayrı güclərin maraqlarının idarə etdiyi amorf mexanizm bu günədək hərəkətə gəlməyib. Digər tərəfdən, Afrin başqa bir dövlətin ərazisidir. Türkiyə öz ərazi bütövlüyünə təhdid yaradan separatçı-terrorçu qruplara qarşı həm də başqa bir dövlətin - Suriyanın ərazisində mübarizə aparır. Dağlıq Qarabağ isə Azərbaycan ərazisidir. Bu baxımdan, oxşar ssenarilər üzrə hərəkət etməklə əgər biz erməni terrorizminin kökünü kəsmək istəsək, o zaman gərək hərbi əməliyyatları həm də Ermənistan ərazisində həyata keçirək".

"Azərbaycan ordusunun Qarabağı işğaldan azad etmək üçün antiterror əməliyyatına başlaması beynəlxalq hüquq normalarına tam uyğundur, daha doğrusu, beynəlxalq hüququn tələbidir. Azərbaycan bu addımı qardaş ölkə ilə birlikdə də ata bilər. Hesab edirəm ki, Türkiyə ilə strateji yaxınlığımız daha irəliyə getməli və hərbi ittifaq yaradılmalıdır". Bu fikirləri Dünya Azərbaycanlıları Mədəniyyət Fondunun Prezidenti, Avropa Azərbaycanlıları Konqresinin 1-ci vitse-prezidenti Füzuli Məmmədov mətbuata açıqlamasında deyib.

**Göründüyü kimi, beynəlxalq şərtlər, qardaş ölkənin nümunəsi, Ermənistan daxilində yaranmış qarışıqlıqlar, üstəlik, düşmən ölkənin sülh yolundan imtinası Azərbaycanın hərbi əməliyyatlara başlayaraq, torpağını terrorçulardan təmizləməsini zəruri edir. İctimai rəyin də gəldiyi qənaət məhz budur...**

YENİ MÜSAVAT
N 18 (6907) 25 yanvar 2018



# "Aksiz dərəcələrinin artırılması heç bir ciddi problem yaratmayacaq"

## "Bu qərarın benzinə o qədər də aidiyyəti yoxdur, tütün məmulatları və alkoqollu içkilərin qiymətinə müəyyən təsirləri ola bilər"

**Nazirlər Kabinetinin aksiz dərəcələrinin artırılması ilə bağlı verdiyi 23 yanvar tarixli qərarı idxal olunan tütün məmulatları, spirtli içkilər və bəzi benzin növlərinin bahalaşması anonsu kimi qəbul olundu.**

Yanvarın 23-də qüvvəyə minən qərar artıq müvafiq məhsulların qiymətinə təsir etməyə başlayıb.

Bir çox iqtisadçı ekspertlər isə aksiz dərəcələrinin artırılmasını tənqidlə qarşılayıb. Onlar bu qərarın bahalaşmaya və inflyasiyanın artmasına səbəb olacağını bildiriblər. O cümlədən müvafiq məhsulların qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsi hallarının artacağını, o cümlədən bazara keyfiyyətsiz məhsulların xarici markaların adı altında yol açacağını bildirənlər də olub.

Bəs görəsən, hökumətin siyasətini dəstəkləyən tanınmış iqtisadçılar qiymət artımına səbəb olacaq bu qərarı necə dəyərləndirirlər?

**"Yeni Müsavat"ın sualını cavablandıran Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov qeyd etdi ki, bu qərarın bazara ciddi təsiri olmayacaq:** "Mən inanmıram ki, burada ciddi bahalaşma olsun və ya inflyasiya səviyyəsinə təsir göstərsin. Bu qərarın benzinə o qədər də aidiyyəti yoxdur. Tütün məmulatları və alkoqollu içkilərin qiymətinə müəyyən təsirləri ola bilər. Bunun da alternativi var. Çünki Azərbaycanın özündə kifayət qədər tütün və alkoqollu içkilər istehsal olunur. Xaricdən idxal olunan məhsulların isə keyfiyyətində də müəyyən problemlər var. Əksər hissəsini Dağıstanda istehsal edirlər, Azərbaycana Rusiya məhsulu adı ilə gətirirlər. Bu məhsulların keyfiyyətində problem var".

**Vahid Əhmədov həmçinin tütündən istifadənin məhdudlaşmasına gətirib çıxaran qərarın tərəfdarı olduğunu bildirdi:** "Biz Milli Məclisdə qanun qəbul etmişik, çox yerdə tütündən istifadəyə qadağa qoymuşuq. İnsanlar başa düşməlidir ki, tütün, ümumiyyətlə, sağlamlığa ziyandır. Kim deyirsə bu, qiymət artımına və ya inflyasiyaya səbəb olacaq, mən buna inanmıram. Elə bir ciddi problem olmayacaq".

**Sözügedən məhsulların ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilməsi hallarının artacağı ehtimalına münasibət bildirən deputat bu kimi halların hər zaman olduğunu bildirdi:** "Qaçaqmalçılıq guya indi yoxdurmu? Hər gün mətbuatda Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd Xidməti tərəfindən qaçaqmalçılıq yolu ilə ölkəyə məhsul gətirmək istəyən şəxslərin tutulduğu ilə bağlı xəbərlər yayılır. Bu keçərli arqument deyil və mən bunu qəbul etmirəm. Onu da qeyd etməliyəm ki, son vaxtlar Azərbaycanda istehsal olunan spirtli içkilərin keyfiyyəti artıb. Bu bir faktdır".

**Sabiq maliyyə naziri Fikrət Yusifov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, tütün və alkoqollu içkilərin aksiz dərəcələrinin artırılmasını normal qarşılamaq lazımdır:** "Bəzi məhsullara aksiz vergilərinin artırılması ilə bağlı qərar keçən ilin dekabr ayının sonlarına yaxın qəbul edilmişdi. Onun qüvvəyə minməsi ilə tütün məmulatlarının və spirtli içkilərin qiymətləri nə qədər bahalanacaq? Bu sual ilk növbədə həmin məhsullardan mütəmadi istifadə edənləri daha çox düşündürür. Bizim ticarət adamları belə məsələlərdə çox "həssasdırlar". Heç şübhəsiz həmin məhsulların ticarəti ilə məşğul olanlar onların qiymətlərini bir ay öncə qəbul edilmiş qərara uyğun olaraq artıq artırıblar. Bütövlükdə isə idxal olunan tütün və spirtli içki məhsullarına aksiz vergilərinin artırılmasını normal qarşılamaq lazımdır. Bu məhsullar əsas istehlak məhsulları hesab oluna bilməz və onların istehlakının azaldılması daha çox insanların sağlamlığı üçün faydalıdır".

**F.Yusifov vurğuladı ki, qiymət artımı təkcə büdcəyə əlavə vəsait toplamaq məqsədi güdmür:** "Burada məqsəd eyni zamanda həmin məhsulların yerli istehsalını stimullaşdırmaqdan ibarətdir. "Premium" və "Super" markalı avtomobil yanacağı isə bir qayda olaraq daha bahalı avtomobillər üçün istifadə olunur. Bu səbəbdən onların qiymətlərində baş verəcək artımların başqa qiymətlərə təsir imkanları yoxdur".

**❑ Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Varlıların gözü doymur, yoxsa...

## Milyonerləri digər insanlardan fərqləndirən çox ilginc cəhətlər və bunun səbəbləri

**"Keçən il dünyada superzənginlər və digərləri arasında varlılıq fərqi artmaqda davam edib". Bu, "Oxfam" təşkilatının yeni hesabatında iddia edilir. "Yeni Müsavat" BBC-yə istinadən xəbər verir ki, bununla bağlı ortada ilginc rəqəmlər var.**




Xeyriyyə təşkilatı bildirib ki, keçən il qazanılan pulun 82 faizi dünya əhalisinin ən varlı 1 faizinin cibinə gedib, digərləri isə sahib olduqları sərvətdə heç bir artım müşahidə etməyiblər.

"Oxfam" bildirir ki, təşkilatın əldə etdiyi rəqəmlər hazırkı sistemin uğursuz olduğunu göstərir. Lakin bəzi tənqidçilər təşkilatın məlumat bazasını sual altına qoyublar.

Təşkilat artan fərqə əsas səbəblərin vergidən qaçma, şirkətlərin siyasətə təsiri, əmək hüquqlarının zəifləməsi və hökumətlərin xərclərini azaltması olduğunu deyib.

"Oxfam" artıq beş ildir ki, buna bənzər hesabatlar dərc edir. 2017-ci ildə təşkilatın hesablamaları dünyanın ən zəngin 8 varlısının sərvətinin dünya əhalisinin ən kasıb 50 faizinin sərvətinə bərabər olduğunu iddia etmişdi.

Builki hesabatda isə təşkilat hesablamasını dəyişərək, keçən ilki rəqəminə düzəliş edib, dünyada ən varlı 61 nəfərin sərvətinin ən kasıb 50 faizinin sərvətinə bərabər olduğunu deyib. Bu il isə fərq artaraq, yalnız 42 nəfərin sərvətinin ən kasıb 50 faizinin sərvətinə bərabər olduğunu qeyd edib.

"Oxfam" qeyd edir ki, hesablamada etdiyi dəyişikliyə səbəb təşkilatın daha dəqiq məlumat əldə etdiyinə görədir. Buna baxmayaraq, təşkilat dünyanın ən zənginləri ilə kasıb əhalinin sərvəti arasındakı fərqin artmaqda davam etdiyini vurğulayıb.

"Oxfam"ın baş idarəçisi Mark Goldring rəqəmlərindəki dəyişikliyin hesabatın hər dəfə hazırlananda mövcud olan ən dəqiq məlumatdan istifadə etdiyinə görə olduğunu bildirib.

"Bu dərəcədə bərabərsizlik qəbulolunmazdır", - o deyib.

"Oxfam"ın hesabatının dərc edilməsi İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumunun keçirilməsi ilə üst-üstə düşür. İllik konfrans dünyanını ən mühüm siyasi və biznes liderlərini cəlb edir.

Danışıqlar zamanı bərabərsizlik mühüm mövzu olur, lakin cənab Goldring şikayət edir ki, çox vaxt "sərt söhbətlər ilk müqavimətlə üzləşən kimi yoxa çıxır".

Superzənginlərin və ən kasıb əhalinin sahib olduğu sərvəti hesablamaq çox çətindir.

Superzənginlərin çoxu sərvətləri barədə məlumatı ictimailəşdirmirlər və dünyanın ən kasıb ölkələrinin topladığı statistikanın keyfiyyəti, adətən aşağı səviyyədə olur.

Hesabatın istifadə etdiyi statistika barədə digər problemlər də ola bilər. Məsələn, çox kasıb olduqları qeyd olunan şəxslər qeyd edilən səviyyədə kasıb olmaya bilərlər. Mümkündür ki, onlar təhsil xərcləri kimi böyük borcları olan peşəkarlar və ya böyük gəlirləri və eyni zamanda böyük ipoteka xərcləri olan insanlardır.

Lakin dünya əhalisinin sərvətinə bərabər sərvətə sahib olan şəxslərin sayı 8, 41 və ya 62 nəfər olsa da bu nəhəng bərabərsizliyin göstəricisidir və "Oxfam"ın Davosa yönəltdiyi əsas mesaj budur.

Amma bu məlumat özü ilə paralel xeyli suallar da yaradır. Xüsusən də ictimaiyyətdə bu rəqəmləri eşidən kimi formalaşan məsələlər fərqlidir. Sıravi vətəndaş dərhal düşünür ki, bu qədər malı, pulu olan insanlar niyə daha çox varlanmaq eşqi ilə yaşayır? Zatən yaxşı yaşayış üçün şərtlər bəllidir: gözəl ev, maşın, sağlamlıq və səyahətlər. Bütün bunları isə həmin var-dövlətin sahibləri asanlıqla əldə edə bilirlər. O halda bunun adı hərislikdir, yoxsa "ən yaxşı yaşayış" arzusu? Bəlkə bu qazanmaq özü bir sənətdir?

"Yeni Müsavat" dünya psixoloqlarının analizlərindən ibarət varlı insanların düşüncə və yaşam tərzlərindəki fərqlər barədə bir arayış hazırlayıb. Öncə ondan başlayaq ki, varlı insanları orta sinifdən fərqləndirən bank hesablarından daha çox düşüncə tərzləridir.

Sərvətinin hamısını özü yaratmış milyonerlər üzərində qurulan və 25 il davam edən araşdırmalara görə, varlı olmaq zehində başlayır və pul qazanmaqla bağlı düşüncələriniz, inanclarınız varlı olub-ola bilməyəcəyinizə təsir edən ən önəmli faktor olaraq qarşınıza çıxır. İnsanların varlı olmalarına mane olan şey ehtiras əskikliyindən daha çox inanc əskikliyindən qaynaqlanır və bu, olduqca əhəmiyyət daşıyan nəticələrdən biridir.

### Lazımi qədər pulları olmasa da, maddi sıxıntıda olduqlarını düşünməzlər

Varlı insanlar başqa insanların pullarından istifadə edərək, gələcəklərini qurmaqdan heç vaxt çəkinmirlər. Əgər gözəl bir iş fikri taparlarsa və bunu həyata keçirməyə kifayət edəcək qədər pulları yoxsa, o iş fikrini həyata keçirmək məqsədilə başqa insanların pullarından istifadə edərək, irəliləməyə çalışırlar.

Varlılar bilirlər ki, bir şeyi gerçəkləşdirməyə kifayət edəcək pula sahib olmamaq onu həyata keçirməyə əngəl deyil. Əsas məsələ buna investisiya qoymağa və ya əziyyət çəkməyə dəyib-dəyməməsidir.

Orta sinif insanlar maddi gözləntilərini aşağı səviyyədə tutaraq, xəyal qırıqlığına düşməkdən qaçarkən varlılar gözləntilərini son dərəcədə yüksək tutur və qarşılaşacaqları hər cür çətinliyə hazır olurlar.

Varlılar çox arzuladıqları bir hədəf müəyyənləşdirdikdən sonra həvəslə işə başlayır və bu hədəfə çatmaq üçün müxtəlif yollar axtarırlar: "Çempionlar nələrinsə olmasını gözləmirlər, onu gerçəkləşdirirlər".

### Pul qazanmağı bir oyun olaraq görürlər

Varlılar həyata, işə və pul qazanmağa bir oyun gözü ilə baxırlar. Məhz bu səbəbdən milyonerlər varlı olmalarına baxmayaraq, yenə də hər gün işə gedir və bir sonrakı hədəflərinə çatmağa çalışırlar. Bu insanlar üçün pul növbəti hədəfə çatdıqlarını göstərən bir göstəricidən başqa bir şey deyil.

Bundan başqa, "oyun oynamanın həyəcanı" davamlı olaraq gözləntini yüksəltmək adına onları təşviq edir.

Varlılar pulu ən yaxşı dost və ortaq olaraq görürlər. "Yuxusuz gecələr boyunca duyulan qayğıya, fiziki ağrıya son verəcək gücü olan və hətta həyatlarını xilas edə biləcək bir dostdur pul".

Varlılar pulun bir çox dərdə dava ola biləcəyinə inandıqları halda orta sinifdən olan insanlar pulu, ömür boyu dözmək zorunda olduqları, bitmək-tükənmək bilməyən bir müsibət olaraq görürlər.

Böyük adamlar qorxuya yer olmayan bir anlayış, məntiq səviyyəsində yaşayırlar. Bu düşüncə tərzində olan insanlara görə hər şey mümkündür. Çılğınlıq kimi görünən hər cür xəyal onlara görə həyata keçə bilər.

Bu səviyyədə bir anlayışa, beyinə sahib ola bilmək üçün öncə hər varlının etdiyi kimi öz rahatlıq səviyyənizin xaricinə çıxmalısınız. Dünya səviyyəsində məsələni təhlil edənlər ilk növbədə milyoner olmağın asan olmadığını bilirlər və bir müddət davam edən qeyri-müəyyənlik halında belə özlərini rahat hiss edirlər.

### Varlı olmaq qədər təbii bir şey yoxmuş kimi düşünürlər

Varlılar uğur, doyum və xoşbəxtliyin təbii şəkildə yarandığına inanırlar. Hardasa bu inanc belə təkbaşına uğurlu olmanın təminatçısıdır.

Bundan başqa, orta sinif daim mübarizə halındadır. Çünki onlar ummaqla kifayətlənirlər. Özünü varlı olmağa layiq belə görməyən bir yığın insan var. Öz-özünüzə "Mən kiməm ki, milyoner olum" demək yerinə, "Nə üçün mən də varlı olmayım?" deməyə üstünlük verməklazımdır.

### Puldan doyandan sonra siyasətə gəlirlər...

Bir çox hallarda isə varlılar müəyyən yaşdan sonra siyasətə gəlirlər. Siyasi analitiklər isə hesab edir ki, varlı insanların siyasətə gəlişi psixoloji nüansdır. Onların fikrincə, biznesdə uğur qazanan şəxslər eqolarını həm də ictimaiyyətin həyatında qazanacaqları uğurlarla doyuzdurmaq istəyirlər. Məsələn, biznes layihəsini uğurla həyata keçirən şəxs hesab edir ki, ölkədə də müsbət istiqamətdə hansısa dəyişikliklər edə bilər. Bundan başqa, dünyada varlılar siyasətə həm də var-dövlətlərini artırmaq, qarşılarında yaranmış bəzi qırmızı işıqları maneəsiz keçmək üçün baxırlar.

**❑ Sevinc TELMANQIZI, ❑ "Yeni Müsavat"**

Yeni Müsavat
N 18 (6907) 25 yanvar 2018

# Xaricdə təhsil üzrə dövlət proqramı bərpa oluna bilər

**Vahid Əhmədov:** "Ölkəmizin 42 milyard dollara yaxın ehtiyatı var, xaricdə təhsil proqramı yenidən həyata keçirilməlidir"

**Etibar Əliyev:** "Bu, bütün inkişaf etmiş ölkələrin təhsil siyasətinin əsasını təşkil edir"

**2007-2015-si illərdə Xaricdə Təhsil Dövlət Proqramının həyata keçirilməsi ilə minlərlə azərbaycanlı gənc dünyanın müxtəlif ölkələrindəki tanınmış universitetlərdə təhsil alaraq vətənə döndü və bu gün də müxtəlif sahələrdə uğurla çalışmaqdadırlar. Lakin 2014-cü ilin sonlarından başlayaraq neftin qiymətinin kəskin ucuzlaşması nəticəsində ölkə gəlirlərinin kəskin azalması və hökumətin bir çox sahələrdə xərcləri ixtisar etməyə məcbur qalması nəticəsində xaricdə təhsil proqramı da tarixə qovuşdu. İki neçə ildir ki, gənclər dövlətin təmin etdiyi bu imkandan məhrumdurlar.**


Vahid Əhmədov


Etibar Əliyev

Lakin artıq neftin qiyməti yenidən yüksəlməyə başlayıb. Hazırda Azərbaycanın "Azerlight" markalı nefti dünya bazarında 70 dollardan baha satılır ki, bu da hər barel üçün ölkəmizə 120 manata yaxın gəlir gəlməsi deməkdir. Halbuki neftin 100 dollara satıldığı vaxtlarda ölkə büdcəsinə milli valyuta ilə 78 manat gəlir gəlirdi. Deməli, vəziyyət ən azı əvvəlki səviyyədə xaricdə təhsil proqramını həyata keçirmək üçün yetərlidir. Bəs görəsən, hökumət yenidən bu proqramı gündəmə gətirə bilərmi?

**"Yeni Müsavat"ın sualını cavablandıran Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bu proqramın yenidən həyata keçirilməsinə zərurət olduğunu vurğuladı:** "Belə bir proqram Azərbaycanda hər zaman olub, hətta sovet dövründə də var idi. Ancaq müstəqilliyimiz elan olunduqdan sonradan azərbaycanlı tələbələrə xaricdə təhsil almaq üçün dövlət tərəfindən yardımlar ayrıldı. Təhsil Nazirliyi tərəfindən bu proqram həyata keçirilirdi, xaricdə təhsil alan tələbələrə maddi yardım edilirdi ki, gedib oxuya bilsinlər. Mən hesab edirəm ki, bu proqram yenidən davam etdiriləcək. Çünki belə də olmalıdır, maliyyə baxımından elə bir ciddi problemimiz yoxdur. Ölkəmizin 42 milyard dollara yaxın ehtiyatı var. Bu səbəbdən xaricdə təhsil proqramı yenidən həyata keçirilməlidir. Çünki azərbaycanlı gənclərin xaricdə təhsil alıb qayıtması bizim üçün çox önəmlidir. Bu proqram son illər maddi vəziyyətlə əlaqədar dayandırılmışdı. İndi çox güman ki, yenidən gündəmə qayıdacaq. 2018-ci ilin dövlət büdcəsində təhsillə bağlı, aparılacaq islahatlarla bağlı yetərincə vəsait ayrılıb. Yeni proqramın həyata keçirilməsinə qərar verilərsə, maliyyə ilə bağlı hər hansı problem olmayacaq".

**XXI əsr Təhsil Mərkəzinin sədri Etibar Əliyev isə "Yeni Müsavat"a danışarkən bildirdi ki, dövlət xətti ilə ən azı 500 tələbə xarici universitetlərdə təhsil üçün göndərilməlidir:** "Azərbaycanın imkanı var ki, ildə təxminən 500 nəfər vətəndaşının xaricdə ali təhsil almasını maliyyələşdirsin. Ümumiyyətlə, bu proses təkcə neftlə bağlı deyil. Azərbaycan dövlətinin gəlirləri təkcə neftlə məhdudlaşmır. Qazaxıstanda Xaricdə Təhsil Dövlət Proqramı 1992-ci ildən fəaliyyət göstərir və fasiləsiz olaraq hər il minlərlə Qazaxıstan vətəndaşı dünyanın aparıcı universitetlərində təhsil almağa göndərilir. Bunun effekti də artıq göz önündədir. Qazaxıstanın 7-8 universiteti beynəlxalq reytinqlərdə yer tutub. O kadrların da universitetlərin reytinqinin yüksəlməsində böyük rolu olur. Mən düşünürəm ki, bizdə də dövlət proqramı bərpa olunmalıdır. Bugünkü əmək bazarının tələbatı, o cümlədən ali məktəblərin tələbatı nəzərə alınmalıdır. Yüksək ixtisaslı mütəxəssislərə bu gün çox böyük tələbat var".

**E.Əliyev vurğuladı ki, dünyanın bütün ölkələrində , hətta ABŞ-da da xaricdə təhsil proqramı var:** "Amerika vətəndaşları da xaricdə təhsil almağa gedirlər. Almaniya kimi inkişaf etmiş ölkə də vətəndaşlarını xaricə təhsil üçün göndərir. Bu bütün inkişaf etmiş ölkələrin təhsil siyasətinin əsasını təşkil edir. Hazırda Azərbaycanın dünyanın müxtəlif universitetlərində təhsil almış mütəxəssislərə çox böyük ehtiyacı var. Kənd təsərrüfatı sahəsində, sənaye, tibb, İKT və digər sahələrdə yüksək ixtisaslı kadrlara ehtiyac var. Danılmaz bir fakt da var ki, bizim universitetlər hələ ki bu tələbatı ödəyə bilmirlər. Azərbaycanda çox qısa vaxtda sıçrayışla inkişaf etmiş, elmi yüksək səviyyədə qura bilən universitetlər var. Ancaq xarici təcrübə bunu tamamlayıb daha yetkin hala gətirə bilər. Beləliklə, ölkə üçün kadr tələbatını ödəməkdə problem yaşanmaz".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Borclu hansı halda ölkədən çıxa bilməz?

**Əkrəm Həsənov:** "Məhkəmə qərarı verilərkən icra məmuru vətəndaşın məhz üzürsüz səbəbdən o borcu ödəməməsi faktını müəyyən etmir"

**Ötən il 14 mindən artıq borclunun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılıb, 3.410 nəfərin məhdudiyyəti isə məhkəmə qərarını icra etdiklərinə görə götürülüb. Ədliyyə Nazirliyindən verilən məlumata görə, bu barədə 2017-ci ildə məhkəmə və digər orqanların qərarlarının icrası sahəsində görülmüş işlərin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş müşavirədə deyilib.**


Əkrəm Həsənov

Bəs görəsən, insanların ölkədən çıxışının məhdudlaşdırılması onların konstitusion hüquqlarına ziddirmi? Hansı hallarda bu qərar tətbiq oluna bilər? Bu sahədə Azərbaycan qanunvericiliyi və xarici təcrübə necədir?

"Yeni Müsavat"ın suallarını cavablandıran **iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov** bildirdi ki, yalnız məhkəmə qərarı ilə vətəndaşın bu və ya digər hüququ məhdudlaşdırıla bilər: "Hər bir halda burada fərq qoymaq lazımdır ki, kimə nəyə görə qadağa qoyulub. Konstitusiyaya görə, məhkəmə qərarı ilə vətəndaşın ölkədən çıxışı, ümumiyyətlə, hər cür azadlığı məhdudlaşdırıla bilər. Ancaq bu yalnız məhkəmənin qərarı ilə olmalıdır. Əgər məhkəmə qərarı varsa, burada heç bir halda qanun və ya konstitusiya pozuntusu yoxdur. Sadəcə, bizdə bəzən o hallar da olur ki, ölkədən çıxışa qadağa qoyulması qərarını məhkəmədən kənar verirlər. Düzdür, belə hallar çox deyil. Misal üçün, Beynəlxalq Banka borcu olanların ölkədən çıxışının məhdudlaşdırılması heç bir məhkəmə qərarı olmadan həyata keçirilir. Sadəcə, hüquq-mühafizə orqanları tərəfindən Dövlət Sərhəd Xidmətinə göstəriş verilir və vətəndaş ölkədən çıxa bilmir. Əlbəttə ki, bu qanunsuzdur, nəinki beynəlxalq konvensiyalara, eləcə də Azərbaycan Konstitusiyasına və daxili qanunlarımıza ziddir. Əgər ölkədən çıxışı məhdudlaşdırılan borcluların arasında belə şəxslər də varsa, bu əlbəttə ki, düzgün deyil. Ancaq mən ehtimal edirəm ki, 14 min nəfərin arasında belə şəxslər olsun. Çünki heç bir dövlət qurumu bunu rəsmi şəkildə etiraf etmir".

**Ə. Həsənov onu da vurğuladı ki, borcluların ölkədən çıxışına məhkəmə qaydasında qadağa qoyulmasında da problemlər var:** "Birincisi, kredit borcu olanlardır. Vətəndaşın borcu banka da ola bilər, digər vətəndaşa da ola bilər. Hər bir halda həmin borc məhkəmə qaydasında təsdiqlənməlidir. Əgər vətəndaşın banka borcu varsa, bank onu məhkəməyə verir, udur, bütün instansiyaları keçir. Məhkəmənin də qanuni qüvvəyə minmiş qərarı çıxarılır ki, borc ödənilməlidir. Bundan sonra vətəndaş üzürsüz səbəbdən o borcu ödəmirsə, icra məmuru yenidən məhkəməyə müraciət edir. O zaman məhkəmə qərar verir ki, bu vətəndaşın ölkədən çıxışına qadağa qoyulsun. Ancaq praktikada icra məmuru vətəndaşın məhz üzürsüz səbəbdən o borcu ödəməməsi faktını müəyyən etmir. Bu çox qanunsuz bir haldır. İcra məmuru sübut etməlidir ki, vətəndaşın pulu var, ancaq ödəmir. Ancaq təəssüf ki, Azərbaycan praktikasında bu belə deyil. Vətəndaşın ölkədən çıxışına məhdudiyyət qoyulması ilə bağlı qərarların əksəriyyəti bu şəkildə qəbul olunur və bu qərarlar qanunsuzdur. Sadəcə, bizim vətəndaşlarımız əksər hallarda bunu mübahisələndirmirlər".

**Hüquqşünas vergi borclarına görə vətəndaşın ölkədən çıxışına qadağa qoyulması prosesində də qanunvericilikdə problemlər olduğunu dilə gətirdi:** "Vergi borclarına görə tətbiq olunan məhdudiyyətlərlə bağlı qanunvericiliyimizin özündə problem var. Mülki Prosessual Məcəllədə nəzərdə tutulub ki, əgər vətəndaşın vergi borcu varsa, vergi orqanı məhkəməyə müraciət edir. Məhkəmə də 10 gün ərzində bu vətəndaşın ölkədən çıxışına qadağa haqqında qərar verir. O qərar da dərhal qüvvəyə minir. Mən burada diqqəti bir fərqə yönəltmək istəyirəm. Vətəndaşın banka və ya digər vətəndaşa borcu varsa, qarşı tərəf onu məhkəməyə verməlidir, sübut etməlidir, udmalıdır, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olmalıdır. Yalnız bundan sonra vətəndaş borcu üzürsüz səbəbdən ödəmirsə, icra məmuru bir də məhkəməyə müraciət edir və ölkədən çıxışa qadağa qoyur. Ancaq vergidə belə deyil. Vergi orqanı, sadəcə, görür ki, borc var, dərhal məhkəməyə verir. Məhkəmə orqanı da 10 gün ərzində ölkədən çıxışa qadağa qoyur. Vergi borcu hələ sübuta yetirilməyib, sadəcə, vergi orqanı belə düşünür. Bir çox hallarda vergi orqanları ümumiyyətlə borcu düzgün hesablamırlar, elə olur ki, real borc olmadığı halda vətəndaşın ölkədən çıxışına qadağa qoyurlar. Bir çox hallarda vətəndaşa bu qadağa ilə bağlı məlumat da verilmir, o, yalnız hava limanında ölkədən çıxışının məhdudlaşdırıldığını öyrənir. Bu da məhkəmənin vəzifəsidir ki, vətəndaşı dəvət edib məlumat verməlidir. Bizim məhkəmələrimiz isə çox təəssüf ki, çox vaxt bu barədə vətəndaşa məlumat vermirlər. Konstitusiyamızın 29-cu maddəsinə görə, Azərbaycanda mülkiyyətin 3 növü var. Bunlar dövlət mülkiyyəti, bələdiyyə mülkiyyəti və xüsusi mülkiyyət növləridir. Konstitusiyada deyilir ki, bu 3 mülkiyyət növü bərabərdir, heç birinə üstünlük verilmir. Lakin biz görürük ki, dövlət mülkiyyətinə üstünlük verilir. Əgər vətəndaşın dövlətə vergi borcu varsa, dövlət heç nə sübut etmədən məhkəmə qaydasında onun ölkədən çıxışına qadağa qoyur. Ancaq vətəndaşın borcu banka və ya digər şəxsədirsə, bu halda qanun deyir ki, məhkəməyə ver, sübut elə... Elə hallar da var ki, məhkəmə gedə-gedə borclular ölkədən çıxırlar. Bu halda mülkiyyət növləri arasında fərq qoyulur və konstitusiya kobud şəkildə pozulur. Bizim Mülki Prosessual Məcəllədəki vergi borcu olanların ölkədən çıxışına qadağa qoyulması konstitusiyaya ziddir".

**Hüquqşünas vurğuladı ki, vergi borcu ilə bağlı müvafiq qərar verilərkən vətəndaşın borcu üzürlü, yoxsa üzürsüz səbəbdən ödənməməsi də nəzərə alınmır:** "Konstitusiyada deyilir ki, dövlətin ali məqsədi vətəndaşın hüquq və azadlıqlarının müdafiəsi və ləyaqətli həyat səviyyəsinin təminatıdır. Dövlət orqanları üçün də ilk növbədə bu, rəhbər tutulmalıdır. Hər borcu olanın ölkədən çıxışı məhdudlaşdırılmamalıdır, burada istisnalar da olmalıdır. Bəlkə vətəndaşın övladı və ya həyat yoldaşı xəstədir, onu ölkə xaricinə müalicə üçün aparmalıdır. Bu halda şəxsin ölkədən çıxışının qadağan olunması nə dərəcədə doğrudur? Təəssüf ki, bizdə bu cür hallar nəzərə alınmır".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# "Badi-Kubə" MTK-nın binasında nələr baş verir?

"Yeni Müsavat"a gələn şikayət məktubunun izi ilə...

**Redaksiyamıza Yeni Günəşli qəsəbəsi V massivində, "Badi-Kubə" MTK-nın binasında yaşayan sakinlərin adından şikayət məktubu daxil olub. Anonim məktubun üzərində həmin binada yaşayan 70 nəfər qadının adından yazıldığı qeyd edilib.**

Şikayətdə binanın kommunal problemlərindən və MTK sədrinin laqeyd münasibətindən bəhs olunur. Bildirilir ki, 2006-cı ildə bünövrəsi qoyulan "Badi-Kubə" MTK-dan mənzil alan sakinlər binaya köçdükləri gündən bəri problem içərisində yaşayırlar.

Şikayətçilər 6 ildir tikintisi başa çatmış binada kommunal xidmətin normal səviyyədə olmamasından narazıdırlar. Binaya rəsmi qaydada texniki şərt alınmadığından mənzillərə təbii qazın verilişi hələ də bərpa olunmayıb. MTK-nın binasında yaşayan sakinlərin sayı müvafiq normaya çatmadığı üçün isə onlar kommunal ödənişləri 2-3 qat baha ödəmək məcburiyyətində qalıblar. Məktubda qeyd olunur ki, içməli suyun 1 kubmetrinin qiyməti rəsmi qaydada 50 qəpik müəyyən olunsa da, sakinlər hər kubmetr suya görə 2 AZN ödəyirlər, 1 kvt-ı 0.07 AZN olan elektrik enerjisini isə 0.10 AZN-dən ödəyirlər.

Məsələni yerində araşdırmaq üçün həmin ünvanda olduq. Ərazidə olduğumuz zaman 16 mərtəbəli binanın həyətində işləyən usta və fəhlələrin təmir işləri apardığının şahidi olduq. Öyrəndik ki, binanın tikintisi tam yekunlaşıb, bəzi sakinlər isə mənzillərini təmir etdirir.

Təqribən 1 saata yaxın binanın qarşısında dayanıb 10-a yaxın sakinlə həmsöhbət olduq. Lakin onlar şikayət məktubundan xəbərsiz olduqlarını dilə gətirdilər.

**Binanın yuxarı mərtəbələrinə qalxıb, mənzil sahiblərinin də fikirlərini öyrənməyə çalışdıq. Redaksiyamıza göndərilən şikayət məktubunu onların diqqətinə çatdırdıq. Binanın durumu və kommunal problemləri ilə maraqlandıq. Sakinlərdən Köçəri Hüseynov bildirdi ki, şikayət məktubundan məlumatsızdır:** "Şikayətlə bağlı ilk dəfə sizdən eşidirəm. Şəxsən mənim bununla bağlı məlumatım yoxdur. Əvvəllər binanın kommunal problemləri var idi. İşıqlar çox zəif idi, indi yeni şəbəkə çəkilib, hər şey qaydasına düşüb. Binanın əsas problemi təbii qazın olmamasıdır. Bu səbəbdən otaqları qızdırmaq üçün elektrikdən istifadə edirik. Bir neçə gün öncə MTK sədri ilə görüşdük. Sədr Firudin müəllim bildirdi ki, qaz çəkilişinin həyata keçirilməsi üçün sakinlər tam məskunlaşmalıdır. İndi mənzil sahibləri evlərinin təmirinə başlayıblar. Bu gedişlə yay aylarına kimi mənzil sahiblərinin böyük əksəriyyəti məskunlaşacaq. Ümid edirik ki, bu problem də aradan qalxacaq".

**Şikayətdə sakinlərin əsas problemlərindən birinin dəhlizlərə atılan tullantılarla bağlı olduğu yazılmışdı. Həmsöhbətim bunu təsdiqlədi:** "Binada təmirsiz mənzillər çoxdur. Bir neçə aydır ki, mənzil sahibləri təmir işlərinə başlayıblar. Lakin işləri səliqəsiz şəkildə aparırlar. Yükqaldıran qurğuların daşıdığı yüklərin fəhlələr tərəfindən liftlərlə aparıldığının şahidi olmuşuq. Dəfələrlə işi aparan ustalarla mübahisələrimiz olub. Məcbur qalaraq məsələ ilə bağlı komendanta da şikayətimizi bildirmişik. Bununla bağlı tədbir görülüb".

**Şikayətlərə aydınlıq gətirmək üçün "Badi Kubə" MTK-nın sədrləri Ədalət Qəmbərov və Firudun Əliyevin də fikirlərini aldıq. F. Əliyev həmin şikayətlərin əsassız olduğunu bildirdi:** "Bu cür yanlış informasiyalar bəzi qəzet və saytlarda çox dərc olunub. Düşünürəm ki, bu, təxribat xarakteri daşıyır. Mənimlə və yaxud Ədalət Qəmbərovla bağlı hər hansı bir şəxsi ittiham və yaxud şikayət olsa idi, yəqin ki, hər hansı bir güc strukturuna müraciət olunardı. Məktubu yazan bir nəfər şəxs 70 nəfərin adından şikayət yazır. Heç bir imza, heç bir ad olmadan... Əgər binadan şikayət varsa, istənilən mənzilin qapısını döyüb, maraqlana bilərsiz".









**MTK sədri binanın kommunal ödənişləri ilə bağlı məsələyə belə aydınlıq gətirdi:** "Hazırda binada 72 ədəd su sayğacı quraşdırılıb. Lakin yaşayış az olduğundan texniki şərt almaq mümkün deyil. Bu zaman biz suyu öz hesabımıza alırıq. Suyun 1 kubu üçün qeyri-yaşayış sahəsi kimi 2 manatdan ödəməli oluruq. Binada yaşayan ailələrin sayı 100-ə çatmalıdır ki, bu vəziyyət aradan qalxsın. Bu isə yaxın zamanlarda həllini tapacaq. Gərək sakinlər mənzillərini təmir etdirsinlər. Biz də tez-tez xəbərdarlıq edirik. Son günlər artıq sakinlər evlərini təmir etdirib, köçməyə başlayıblar. Digər sayğaclar da quraşdırıldıqdan sonra abonentlər 0.50 qəpikdən ödəyəcəklər. Bakıdakı bütün MTK-larda vəziyyət eynidir. Ümumiyyətlə, su, elektrik verilişi bu şərtlərlə həyata keçirilir".

Qeyd edək ki, anonim məktubda MTK sədri Ədalət Qəmbərova dair ittihamlar da yer alıb. Bildirilir ki, 2007-2008-ci illərdə işlər yolunda gedərkən, MTK-ya sədr təyin olunan Ədalət Qəmbərov bir sıra mübahisələri ilə yadda qalıb. Hətta vəziyyət o həddə çatıb ki, MTK-nın keçmiş sədri olan Asif Əsədullayevin oğlu Tural Əsədullayev hazırkı MTK sədri Ə. Qəmbərova adıçəkilən binanın qarşısında odlu silahdan atəş açıb. Nəticədə Ə.Qəmbərov ağır yaralanıb.

Bundan əlavə, Ə.Qəmbərovun binada 322 mənzili 500-ə yaxın vətəndaşa satdığı bildirilir. Bu səbəbdən də Yasamal məhkəməsinin 25 yanvar 2017-ci il tarixli həbs-qətimkan qərarı ilə Kürdəxanı həbsxanasında cəza çəkdiyi qeyd edilir.

**Ərazidə olduğumuz zaman Ə.Qəmbərovun iş başında olduğunun şahidi olduq. O, binada aparılan təmir işləri ilə bağlı müəyyən tapşırıqlar verirdi. MTK sədri Firudin Əliyev bu informasiyaların yalan və böhtan olduğunu bildirdi:** "Bu bina bir neçə əl dəyişib. Bizdən öncəkilər insanların başına min bir oyun gətirib. Biz bu binanı təhvil alan zaman yarımçıq idi. 12 mərtəbə "karkaz" formasında idi, ilk 6 mərtəbənin hörgüsü var idi, 4 mərtəbənin isə suvağı vurulmuşdu. Yəni yaşayışa hazır bina formasında deyildi, sadəcə, natamam bir tikili idi. MTK sədri Ədalət Qəmbərov öz vəsaiti hesabına, 1.5 milyon manat xərc çəkərək binanın tikintisini tamamladı. Bizdən öncəkilər bir mənzili 3 nəfərə satdığından insanları razı salmaq üçün öz vəsaiti hesabına 3-cü və 4-cü blokları tikdi. MTK-nın keçmiş rəhbərləri Nəsib Əliyev, Zaur Cabbarov, Asif Əsədullazadə tərəfindən 150-dən çox zərərçəkmiş vətəndaşı mənzillərlə təmin etdik. Adıçəkilən şəxslər saxta sənədləşdirmə apararaq, bir mənzili 3-4 nəfərə satmışdılar. Ümumilikdə, vətəndaşlardan 6 milyon manat vəsait mənimsəmişdilər. Tikinti işlərini isə yarımçıq qoymuşdular. Buna görə də hazırda Nəsib Əliyev həbsdədir. Asif Əsədullayev isə 2 il məhkum olunduqdan sonra hazırda icbari həbsdədir. Həmçinin Zaur Cabbarov da icbari həbslə azadlıqdadır. Ağır Cinayətlər Məhkəməsinin qərarında Nəsib Əliyev tərəfindən MTK-ya 2 milyon 800 min manat zərər vurulduğuna dair sənədlər var. Bu şəxslər həbs olunandan sonra biz binanın tam qaydada tikintisini başa vurduq. Yəni keçmiş MTK sədrlərinin eləmədiyi işləri qısa zamanda həyata keçirdik. Onların indiyədək gördüyü işlər ümumi işin heç 30 faizini təşkil etmirdi. Yerdə qalan 70 faiz işləri biz apardıq. Bu işlər MTK-nın daxili vəsaiti hesabına həyata keçirildi. Korrupsiya İdarəsinin tövsiyə məktubu əsasında istintaq zamanı zərərçəkmiş şəxslər müəyyən olundu və onlar tərəfimizdən mənzillə təmin olundular".

❑ **Məğrur MƏRD,**
**"Yenì Müsavat"**
**Fotolar müəllìfìndìr**

# Şaxtalı havada çimməyin xeyri nədir?

**Həkim xəbərdarlıq edir:** "Ürək, ciyər xəstəlikləri olanlar diqqətli olmalıdır..."

**Qış fəsli girəndən dünyanın bir çox ölkəsində insanların şaxtalı havada buzlu dənizə girdiklərinin şahidi oluruq. Bu haqda tez-tez sosial şəbəkələrdə də videogörüntülərlə rastlaşırıq. Maraqlıdır ki, onların arasında dünya ölkələrinin liderləri, sənətçilər, məşhurlar da var.**

Məsələn, bu günlərdə Rusiya prezidenti Vladimir Putin Seligerdə Nilo-Slobenskaya kişi monastırını ziyarət edən zaman - 7 dərəcə şaxtada suya girib çimmişdi. Bunun ardınca isə Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili xaç suyuna salma mərasimində Dneprin buz kimi sularına baş vurdu.

Bu günlərdə soyuq havada dənizə girənlər arasında prezident İlham Əliyevin bacısı oğlu Giraf Əliyev də var. O, Fransanın ucqar bir yerində dənizə girmişdi. Sosial şəbəkədə bu haqda fotolar paylaşan G.Əliyev soyuq havada çimməyi məsləhət görmüşdü: "Qış fəsli olması o demək deyil ki, dənizdə çimməyəsən".

Şaxtalı havada dənizə girən xanımlar da az deyil. Türkiyənin tanınmış aktrisası Betül Şahin bu siyahıdadır. Ötən il Bodrumda qastrol səfərində olan aktrisa son dərəcə şaxtanın olmasına baxmayaraq çimərlik geyimində dənizə girərək hər kəsi təəccübləndirmişdi. 42 yaşlı aktrisa uzun müddət dənizdə çimmişdi.

Ekspertlər isə deyir ki, soyuq havada dənizə girmək, soyuq suda çimmək üçün insan fiziki baxımından çox dözümlü olmalıdır. Həmçinin insanların ürək, ciyər xəstəlikləri olmamalıdır. Çünki suyun soyuq olması insan orqanizminə fərqli reaksiyalara səbəb ola bilər. Hətta bəzi insanlar suya girməmiş dünyasını dəyişir. Çünki



suya girib, onun soyuqluğunu bədənində hiss etmədən qorxu impulsu ürəyə ötürülür. Bir çox hallarda bu, insult, infarkt keçirmiş insanlar üçün ciddi fəsadlar törədir. Məsləhət görülür ki, soyuq suya girərkən öncədən bədən su ilə isladılmalı və suya girmədən yavaş və özündən arxayın bir şəkildə hoppanmaq lazımdır.

**Bəs şaxtalı havada dənizə girmək insan orqanizmi üçün nə qədər xeyirli və yaxud zərərlidir?**

**Tibb elmləri doktoru, professor Adil Qeybulla mövzu ilə bağlı "Yeni Müsavat"a bildirdi ki, şaxtalı havada soyuq suya girmək hər kəsə tövsiyə edilmir:** "İnsan kifayət qədər buna hazırlıqlı olmalıdır ki, soyuqlamasın. Xüsusən idmanla məşğul olan insanlar soyuq dənizə girə bilər. Yəni hər kəs üçün məsləhət edilmir. Lakin bu, insanların öz seçimidir. Dənizə girib çıxdıqdan sonra özünü soyuğa vermək olmaz. Mütləq qurulanmaq, geyinmək lazımdır ki, soyuğun orqanizm üçün təhlükə riski artmasın".

**Professor şaxtalı havada dənizə girməyin xeyirli tərəflərindən də söz açdı:** "Bu, dəri damarlarının genəlib-açılması üçün məşqdir. Bildiyiniz kimi, bir çox idmançılar duş qəbul edərkən isti-soyuq sudan istifadə edir, bu da dəri üçün xeyirlidir. Uzun müddət üzü isti su ilə yumaq üzü qırışdırır. Bunun üçün də məsləhət görülür ki, üz daha çox soyuq su ilə yuyulsun".

❑ **Xalìdə GƏRAY,**
**"Yenì Musavat"**

**Elan**

**Xırdalan şəhəri, H.Əliyev prospekti, 30-cu məhəllə, kristal MTK, 7-ci mərtəbə, 58,6 kv.m sahəsi olan 2 otaqlı mənzil. İçində Türkiyə istehsallı mətbəx mebeli var. Qiyməti 64000 manat. Kupçası var, qaz, işıq, su daimidir. Mühafizə ilə qorunan binadır.**

**Əlaqə nömrəsi: 050 561-64-67.**

**Axundzadə Qiyas Salavat oğluna verilmiş sürücülük vəsiqəsi və 99 KK 778 dövlət nömrə nişanlı avtomoblə məxsus texniki pasport itib.**

**Tapan şəxslərdən bu nömrəyə zəng etmək xahiş olunur:**

**(+99450) 663-44-73**

YENİ MÜSAVAT
N 18 (6907) 25 yanvar 2018

**"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) ötən gün həyata keçirdiyi Bakı-İstanbul aviareysində texniki problem yaranıb". APA-nın məlumatına görə, AZAL-a məxsus təyyarə Atatürk Hava Limanında eniş etmədən geriyə, Bakıya qayıdıb.**



# Təyyarələrlə bağlı ilginc faktlar: nə qədər yanacaq yandırır?

## Havada yanacağı bitsə də eniş edən uçaqlar, dənizə düşən təyyarələr

AZAL-ın mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski bildirib ki, texniki səbəblə əlaqədar olaraq Bakıdan İstanbula uçan təyyarə Heydər Əliyev hava limanına qayıtmaq məcburiyyətində qalıb. "Ciddi problem olmayıb. Sadəcə, kapitan hər ehtimala qarşı geri qayıtmaq qərarına gəlib. Təyyarədə yanacaq çox olub. Buna görə də təyyarə müəyyən müddət uçmalı olub. Təyyarə Bakıya geri qayıtdıqdan sonra AZAL-a məxsus növbəti reyslə sərnişinlər İstanbula yola salınıb", - deyə Kəsəmənski vurğulayıb.

Bəs təyyarələr hər 100 kilometr məsafəyə nə qədər yanacaq sərf edir?

Kənardan sadə görünən təyyarələr əslində çox incə bir mexanizm əsasında fəaliyyət göstərir. Bu mexanizmdə hansısa kiçik bir detalda yaranmış nasazlıq böyük faciələrə yol aça, təyyarənin uçuş yönünü dəyişə bilər. Xüsusilə də indiyədək təyyarə mühərriklərində, qanadlarda yaranmış problemlərin sonu ağır faciələrlə nəticələnib. Təyyarələr əsasən eniş və qalxma zamanı qəza törədir. Enmə zamanı isə yuxarıdakı xəbərdə qeyd olunduğu kimi, təyyarənin ağırlığı, yanacağın miqdarı çox önəmlidir. Əgər yanacaq müəyyən olunmuş səviyyədən artıqdırsa, təyyarələr yerlə təmas zamanı partlaya bilər.

Qeyd edək ki, dünyada təkrar yanacaq doldurmadan ən uzun yol qət edə bilən təyyarə "Boeing 777- 200LR" hesab edilir. Bu təyyarə fasiləsiz 17450 kilometr uça bilir. Təyyarələr uçuş əsnasında təxminən 85 ton yanacaq istifadə edir. Uçuş əsnasında isə ən çox yanacaq qalxma zamanı gedir. Bu zaman hər saniyədə tükədilən yanacaq 6-7 litr olur.

175 nəfərlik "Boeing 737-800" modeli isə 100 kilometrə 451 litr yanacaq sərf edir. Bu təyyarələrə 175 nəfər sərnişin minə bilər. Bakıdan İstanbula hava xəttinin uzunluğunun 1786 kilometr olduğunu nəzərə alsaq, deyə bilərik ki, eyni model təyyarə bu yolu qət etmək üçün 8 tondan bir qədər artıq yanacaq sərf edir.

Digər modellərə də nəzər salaq. Məsələn, "Airbus 320" modeli 100 kilometrə 424 litr yanacaq sərf edir. Bu təyyarələr 180 nəfər sərnişin götürmək qabiliyyətinə malikdir. Bir də var, böyük modellər ki, onların 100 kilometrə yandırdıqları yanacağın miqdarı 1 ton yarımdan çoxdur. Həmin təyyarələrlə uzun məsafələrə gedilir. Məsələn, "Boeing 747- 400" modeli 100 kilometrə 1697 litr yanacaq yandırır. Bu təyyarələr 660 nəfər sərnişin tutur. "Airbus 380" modeli isə 100 kilometrə 2060 litr yanacaq sərf edir. Bu təyyarələr bir dəfəyə 853 sərnişin daşıya bilir.

Avtomobillə müqayisə etsək, sıravi bir avtomobil, 100 kilometr başına ortalama 5-10 litr yanacaq istehlak edir. Ancaq təbii ki, avtomobillə təyyarəni müqayisə etmək qüsurludur. Səbəbini aşağıda izah edəcəyik...

Əlbəttə, istehlaka təsir edən bir çox nüanslar da var. Təyyarənin 100 kilometrə istifadə etdiyi yanacağın miqdarı yuxarıda qeyd etdiyimiz rəqəmlərdən bir qədər fərqlənə bilər. Bu, təyyarənin yük ağırlığından (baqaj) küləyin istiqamətindən, hündürlükdən və hava şəraitindən asılıdır. Bu məqamda qeyd edək ki, təyyarələr hündürdən uçduğu zaman daha az yanacaq sərf edir. Ona görə də dərhal eniş etmək istəyən təyyarələr eniş edəcəkləri uçuş xəttinin yaxınlığında alçaqdan uçaraq yanacaq tükətməyə çalışır. Təbii ki, əgər təyyarələrdə yanacaq atan sistem varsa, buna heç bir ehtiyac yoxdur. Lakin bu gün bir çox aviaşirkətlər bu sistemdən istifadə etmir. Çünki qurğu həm bahalıdır, həm də xüsusi xidmət tələb edir.

Bir məqamı da qeyd edək ki, təyyarələr havaya qalxan zaman ən pis hallar, bütün risk faktorları nəzərə alınır. Ona görə də, məsələn, Bakıdan İstanbula gedən təyyarə 8 ton yanacaq sərf edirsə, təyyarənin çəninə konkret bu qədər yanacaq doldurulur demək doğru olmaz. Risk faktoru, hava şərtləri, hətta geri dönüş zamanı lazım olan yanacağın miqdarı da nəzərə alınaraq, normalda təyyarələrə lazımından bir neçə qat artıq yanacaq doldurulur. Ancaq buna baxmayaraq havada olduğu zaman yanacağı bitən təyyarələr də olub.

**Bir faktı qeyd edək:** 24 avqust 2001-ci ildə "Airbus A330-200" modeli Atlantik okeanının üstündə olduğu zaman yanacağı bitir. Buna səbəb isə sağ qanadda olan problem səbəbindən yanacağın qədərindən artıq istifadəsi olur. Pilot sol qanaddakı yanacağı sağ qanada verərək vəziyyətdən çıxmağa çalışsa da, bu mümkün olmur. Sonradan bu addım hətta pilotun yanlış qərarı kimi də xarakterizə olunur. Nəticədə 306 nəfər sərnişin daşıyan təyyarə okeanın üzərində tamamilə yanacaqsız qalır. Onu da qeyd edək ki, təyyarə yanacağı bitdikdən sonra da müəyyən bir məsafəyə qədər qanadlarının və pilotun bacarığının hesabına havada süzür. Bu təyyarə 120 kilometr qət edərək, motorlar işləmədən eniş edə bilib. Lakin tarixdə yanacağı bitdiyi üçün dənizə düşən təyyarələrin də sayı az deyil...

Əlavə edək ki, bu gün təyyarələr ən səmərəli nəqliyyat vasitəsi hesab edilir. Maraqlıdır ki, təyyarənin yandırdığı ümumi yanacağı daşıdığı sərnişinlərin sayına bölərsək, bu zaman uçaqların avtomobildən daha sərfəli olduğu ortaya çıxır. Yuxarıda qeyd etdiyimiz "Airbus 380" modelinin 100 kilometrdə adam başına düşən yanacaq sərfiyyatı cəmi 2.41 litrdir. Həm də buna görə təyyarələr avtomobillərdən daha sərfəli nəqliyyat vasitəsi sayılır.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Saytlarında iş elanı verən oyunbaz firmalar-təfərrüat

## Onlar iş axtaranları daha çətin vəziyyətə salırlar...

**Azərbaycanda işsizliyin sayının azaldılması üçün dövlət tərəfindən müəyyən tədbirlər görülsə də, bu gün də işsizlərin sayı az deyil. Son zamanlar bir çox dövlət qurumlarında olan ixtisarlar, bağlanan özəl müəssisələrin sayəsində ölkədə işsizlik müəyyən qədər artıb. Lakin hər bir işsiz vətəndaş özünə iş tapıb ailəsini dolandırmaq üçün çörək pulu qazanmağa cəhd edir. Bunu vakansiya saytlarındakı elanların altında yazılanlardan və "işə düzəltmə agentliyi" adı altında fəaliyyət göstərən ofislərin qarşısındakı insanların sayından da görmək mümkündür.**




Bəs vakansiya saytlarında verilən elanlar işsizlərin dərdinə dərman olurmu?

Son zamanlar redaksiyamıza edilən şikayətlərdən sonra vakansiya saytlarında elan verən şirkətlərin bəzilərinin hansı işlə məşğul olduqlarını araşdırdıq. Öyrəndik ki, əslində bu "işə düzəldənlər" əlacsız vəziyyətdə iş axtaran insanlardan sui-istifadə edirlər.

Konkret olaraq bir neçə fakta diqqət edək. Ən çox şikayət edilən yerlərdən biri "VİP style" adı altında fəaliyyət göstərən klinikadır. Bakıda bir neçə yerdə ofisi olan bu estetik tibb mərkəzi haqqında internet üzərində də kiçik bir araşdırma etdiyimiz zaman çoxsaylı şikayətlərin şahidi olduq. Vakansiya saytlarında elan verən bu klinikanın əməkdaşları işə yalnız xanımları qəbul edirlər. Səbəb kimi də göstərilir ki, klinikanın işi xanımlara xidmət göstərmək olduğu üçün əməkdaşlar da bu cinsin nümayəndələri olmalıdır.

**"Yeni Müsavat"a müraciət edən şikayətçilərdən birinin sözlərinə görə, vakansiya saytlarında bu klinikanın elanını gördükdən sonra onlara müraciət edib:** "Ali təhsilli olmağıma baxmayaraq, orada belə bir tələb qoyulmur. Müraciətimdən bir müddət sonra mənə zəng gəldi və bildirdilər ki, metronun "Gənclik" stansiyasının yaxınlığında yerləşən ofislərinə gəlim. Dedikləri kimi ofisə getdim. Orada bildirdilər ki, sizə nömrələr verəcəyik, onlara zəng edib, klinikada kampaniya olduğunu bildirəcəksiniz. Çalışacaqsınız ki, xanımlar gəlib, buradan krem alsınlar. Daha sonra mən də daxil olmaqla, müraciət edənləri başqa klinikalarına göndərdilər. Orada isə bizə nömrələr verib bildirdilər ki, zəng etdiyiniz xanımları burada kampaniya olduğuna inandırın. Onlar sizi söysələr belə, əl çəkməyin. Bir yolla onları bura cəlb etməyi bacarın. Hər dəvət etdiyiniz müştərinin müqabilində sizə 1 manat mükafat veriləcək. Əlavə də 200 manata qədər maaş olacağını söylədilər. Ancaq faktiki olaraq orada heç bir kampaniya mövcud deyildi. Məqsəd insanları aldadıb, klinikaya cəlb etmək idi. Mənimlə birlikdə müraciət edən 4 nəfər də bu şərtlərlə razılaşmayıb, "işdən" imtina etdi".

Vakansiya saytlarında "işsiz ovu"na çıxan digər MMC isə su filtri satışı ilə məşğul olan müxtəlif qurumlardır. Onlar da daha çox xanımlara üstünlük verirlər və razılaşan xanımları hotellərə, evlərə göndərərək su filtri satdırırlar.

Vakansiya saytlarında aktiv olan digər qurum "Tiens" adlanan firmadır. Bu firma haqqında mətbuatda çox yazılsa da, onlar hələ də "at oynatmaqda" davam edirlər. Firmanın əməkdaşları işsizləri metronun "28 May" stansiyası yaxınlığında yerləşən ofisinə dəvət edir, orada ilkin qeydiyyat üçün şəxsdən 10 manat alırlar. Daha sonra isə öz firmalarının dərmanlarını verib, satmağı tələb edirlər. Onlara ömürlük qazanc vəd edən firma işə götürdüyü şəxsin satdığı dərmandan gəlir əldə edir. Şəxsin özünə isə bu satılan dərmandan çox az faizdə maaş verir. Maraqlıdır ki, bu şirkətlərin ofisləri şəhərin mərkəzində, icarəsi çox baha olan binalarda yerləşir.

Bundan başqa, yuxarıda da qeyd etdiyimiz kimi, işə düzəltmə agentlikləri də fəaliyyət göstərir ki, onlar da insanları dolandırmaqda yuxarıdakı şirkətlərdən geri qalmırlar. Onlar arasında "Uğur", "Mansur", "Klass" "Xəzərservis" kimi agentliklərin adlarını qeyd etmək olar. Agentliklərdə sürücü, aşpaz, şirniyyat bişirən, dönərçi, menecer kimi vakansiyalar var. Şərtlər isə hər birində fərqlidir. Məsələn, həm ev alqı-satqısı, həm dərzi, həm də işədüzəltmə agentliyi kimi fəaliyyət göstərən "Xəzərservis"də ilk olaraq müqavilə bağlamaq üçün 6 manat ödəməlisən. Yalnız bundan sonra səni vakansiya elan edən şirkətlərlə calaşdırırlar. Əgər şirkət səni işə götürsə, ilk maaşının 40 faizini agentliyə verməlisən. Digər agentliklərdə isə bir qayda olaraq ilkin olaraq 10 manat müqavilə haqqı ödəyib, daha sonra isə ilk ay aldığın maaşın 50 faizini də onlara verirsən. Öyrəndik ki, işlərin əksəriyyətində 12 saat iş müqabilində maaş 250-400 manat arasında dəyişir.

Qeyd edək ki, hazırda Avropada da bu cür agentliklər fəaliyyət göstərirlər. Orada da işədüzəltmə agentlikləri ilə bağlı xeyli sayda neqativ məlumatlar yayılıb. Lakin orada da vəziyyət bizdəki ilə oxşardır. Belə ki, xaricdə fəaliyyət göstərən bu şirkətlər iş axtaran insanları bəzən hətta əxlaqsız məkanlara belə göndərirlər...

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 18 (6907) 25 yanvar 2018*




## Çox təmiz hava da insana ölümcül təsir edirmiş...

**Norveç, Böyük Britaniya, Amerika və Almaniyadan olan beynəlxalq alimlər qrupu belə nəticəyə gəlib ki, havadan çirkli maddələri çıxarmaq qlobal istiləşməyə səbəb olur. Bu haqda "Daily Mail" nəşri xəbər verib. Araşdırma nəticəsində məlum olub ki, havanı çirkləndirən maddələr Yer üzünə daxil olan günəş radiasiyasının qarşısını alır. Bu prosesin nəticəsində atmosferin orta temperaturu 0.5-1.1 dərəcə artır. Bu isə öz növbəsində bu sayaq neqativ halların artmasına səbəb olur. Bəzi mütəxəssislər isə qlobal temperaturun aşağı salınması üçün aerozoldan istifadəni təklif edirlər. Araşdırmanın nəticələri göstərib ki, bu üsulla geomühəndislik, tullantıların atmosferə atılması sürətli istiləşməyə gətirib çıxara bilər. Bütün hallarda mütəxəssislər qeyd edirlər ki, iqlim dəyişikliyi ciddi hava dəyişikliyinə, ölümcül istilərə, donmalara və digər pis hallara səbəb olur.**

2017-ci ilin avqustunda bir qrup alim sübuta yetirib ki, klimatoloqlar milyonlarla insanın ekstremal hava şəraitinə, o cümlədən istilərə görə dünyasını dəyişdiyini sübuta yetirib.

# Keşişi tabutdan çıxarıb bəzədilər

**Keşiş Luang Phor Pian ötən ilin 16 noyabrında Taylandın paytaxtı Banqkokdakı bir xəstəxanada 92 yaşında ölüb. Təqibçiləri ölümündən 2 ay sonra keşişin cəsədini tabutundan çıxarıb. Keşişin cəsədini ona görə çıxarıblar ki, təmiz geyimlər geyindirərək bəzəsinlər. Amma onun şəkilləri böyük əks-səda yaradıb.**



Buddist rahib əslən kambociyalıdır. Bu həftə təqibçiləri onun saxlandığı mağaradan cəsədini çıxarıb. Cəsədin çürüməmiş olduğunu görənlər şok olub. İnanılmaz olsa da, Pianın üzü gülümsər imiş. Təqibçiləri bu ilginc anın şəklini çəkərək sosial mediada paylaşıb. Pianın bu halı həqiqətən də onun nirvanaya çatmasının bir sübutu kimi qiymətləndirilib. Ölümünün 100-cü günündə rahibə son bir final mərasimi təşkil olunacaq.

# Yarışa girən dəvələrda botoks tapıldı

**Səudiyyə Ərəbistanın Riyad şəhərində baş tutan dəvə festivalında ilginc görüntülər üzə çıxıb. 28 günlük şənlikdə dəvələr milyonlarla manat mükafatı olan gözəllik yarışmalarında da görünürlər. Kral Əbdüləzizin şəninə düzənlənən dəvə festivalında bu il təşkil olunan yarışmada isə 12 dəvə yarışmadan çıxarılıb. Səbəb isə heyvanların botokslu olmasıdır.**

Yarışmanın olduqca sərt qaydaları var. Festivalda toplam mükafat 57 milyon dollar olduğu üçün saxtakarlıq faktlarına da tez-tez rast gəlinir. Festivalın qeyd kitabında qeyd olunub ki, "Dodaqlarında dərman olan, ülgüclə təmizlənmiş, bədəninin hər hansı bir yeri boyanan və ya təbii formadakı dəyişikliyə tabe olan dərmanı olmayan dəvələr üçün icazə verilmir".

Festivalda gözəllik yarışmasının xaricində dəvə yarışı, itaət təlimi, dəvə saç sənəti və ən yaxşı dəvə şəkli kimi sahələrdə də mükafatlar verilir.






## Siqareti tərgidənlər niyə kökəlir?

**Avstriyanın "Der Standard" qəzeti İsveçrə alimlərinin siqareti atan insanların kökəlmə səbəbləri ilə bağlı apardıqları elmi araşdırmasının nəticələrini dərc edib. Redaksiya məqaləsində siqaretlə vidalaşanların 80 faizinin ortalama 7 kq (2.2 faiz) kökəldiyi qeyd edilir. Sən demə, çəki artımı hətta qidalanmanı (kalorini) tütün asılılığı dövrü ilə müqayisədə azaltdıqda da baş verir. Alimlərin fikrincə, artım bağırsağın bakterial mühitindəki dəyişikliklərlə bağlıdır. Bəlli olub ki, təzəcə siqaretlə vidalaşan insanların bağırsağında kök insanların bağırsaq florasında dominantlıq edən bağırsaq ştamlarının miqdarı artır. "Görünür, yeni bakterioloji flora qidanın tərkibindəki enerjinin daha effektli sərfini təmin edir", - deyə alimlər qənaətə gəliblər.**




**QOÇ** - Ümumi ovqatınızda mənfi fəsadlar nəzərə çarpacaq. Lakin bu, saat 14-dən o yana keçməyəcək. Çünki qalan müddətdə Göy qübbəsi var gücü ilə sizi sevindirəcək. Naşükürlük etməyin!

**BUĞA** - Bu təqvimdə bir qədər neytral mövqedə dayanmağınız məsləhət görülür. Nahardan sonra ciddi və riskli işlərə qol qoymayın. Unutmayın ki, gün ərzində mənfi yüklü Ay bürcünüzdə meydan sulamaqdadır.

**ƏKİZLƏR** - Bacardığınız qədər oturaq işlərə ara verin. Ən azı ona görə ki, bu təqvimdə qazandığınız uğur və zövq yalnız səyyar fəaliyyətlə bağlı olacaq. Qonaq getmək, gəzintiyə çıxmaq da olar.

**XƏRÇƏNG** - Qərar verməkdə başqalarının fikirlərinə aludə olmasanız, bu təqvimdən razı qalacaqsınız. İndiki məqamda əlçatmaz olan arzuların arxasınca qaçıb əbəs yerə vaxt itirməyin.

**ŞİR** - Əməkdaşlıq zəminində müəyyən uğurlar əldə edə bilərsiniz. Hətta yeni iş üslubuna keçmək də olar. Amma çalışmalısınız ki, təşəbbüskarlıq qarşı tərəfdən irəli gəlsin.

**QIZ** - Nahara qədər əsəblərinizi qoruyun ki, sonrakı müddətdə qarşınıza çıxan şanslardan lazımi qədər bəhrələnə biləsiniz. Saat 16-18 arası perspektivli danışıqlarda bəxtiniz gətirə bilər.

**TƏRƏZİ** - İqlimin qeyri-stabilliyi səhhətinizlə bağlı narahatlıq yaratmasın deyə, özünüzü buna hazırlamalısınız. Göy qübbəsi bu təqvimdə maddi durumunuzun yaxşılaşacağını bəyan edir. Amma yeni işlərə başlamamalısınız.

**ƏQRƏB** - Ümumi görüntü gərginliklə müşayiət olunsa da, əməkdaşlıq zəminində sizi böyük uğurlar gözləyir. Boş oturmaq haqqında düşünməməlisiniz. Nə qədər aktiv olsanız, nailiyyətləriniz də artacaq.

**OXATAN** - Fəaliyyətlə bağlı bəzi uğurlarınız gözlənilir. İşinizdə əsaslı dönüş yaratmaqla buna nail ola bilərsiniz. Sənədləşdirmə məsələlərinə maksimum diqqətlə yanaşın. Uzaq yola çıxmaq məsləhət görülmür.

**OĞLAQ** - İşgüzar əlaqələrdə, eləcə də qarşılıqlı sövdələşmələrdə tədbirli olun. Çünki ulduzların düzümü bu istiqamətdə bəzi maneələrin olacağından xəbər verir. Yalan vəd verməyin.

**SUTÖKƏN** - Olduqca təzadlı bir təqvimdir. Günün ümumi mənzərəsi atacağınız addımlardan birbaşa asılı olacaq. Həmkarlarınızla mübahisələrə yol verməyin. Nahardan sonra ziyarətgahlara gedin.

**BALIQLAR** - Risk etməyə lüzum yoxdur. Kiminsə təlimatlarına aludə olmaqdansa, reallığa uyğun addım atın. Unutmayın ki, indi sizin çıxılmaz vəziyyətə düşməyinizi istəyənlər çoxdur.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsanlar ədəb qaydalarını unudurlar - yeni dəb



**İngiltərədə aparılan bir araşdırmaya görə, insanlar ədəb qaydalarına getdikcə daha az riayət edir. Ədəb qaydası mütəxəssislərinin dediyinə görə, artıq restoranlarda əllə yemək mədəniyyəti get-gedə yayılır. Restoran sahibləri isə bu mənzərəyə o qədər də önəm vermir. Mütəxəssislər deyir ki, zəngəl-bıçaq istifadəsi vaxtilə zox əhəmiyyətli olub. Belə ki, süfrədə salfetin hara qoyulacağı, süfrədə davranma qaydaları, isti yeməyi üfləməyin yanlışlığı, barmaqları yalamağın mədəniyyətsizlik sayıldığı dönəm geridə qalıb. İndi buna riayət edənlər yoxdur. Buna səbəb insanların pizza, hamburger kimi fast food vərdişinə get-gedə daha zox riayət yiyələnməsi, bununsa yemək mədəniyyətini artırmasıdır.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100